www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 oktyabr 2018-ci il Çərşənbə № 225 (7114) Qiyməti 60 qəpik

**Xəbər**

## Müxalifətdə gizli dinləmələr və qarşılıqlı şok ittihamlar

yazısı səh.13-də

**Gündəm**

### ABŞ-ın yüksək çinli elçisi Bakıya gəlir




Bolton Cənubi Qafqaz səfərini Azərbaycandan başlayır; Tofiq Zülfüqarov: "Bakıda iki əsas məsələ diqqət mərkəzində olacaq"

yazısı səh.8-də

### Partiya sədrinin "Rus dilinin tədrisi konstitusiyamıza ziddir" iddiasına reaksiya

yazısı səh.12-də

### ABŞ-ın Qarabağla bağlı gizli planı

yazısı səh.9-da

### Aslan İsmayılov xalqı təhqir etdi - iş adamı sərt reaksiya verdi

yazısı səh.7-də

### Trampın güdazına gedənlər - Ağalarovlar və Məmmədovlar nə umurdular, nə buldular...

yazısı səh.4-də

### Nazirdən Müşfiqin sümüklərinin tapılması barədə daha bir mövqe

yazısı səh.3-də

### Ərəblər baş kəsməyə meyllidir, çünki...

yazısı səh.12-də

### Bakının "tıxanan" kanalizasiya problemi

yazısı səh.13-də

*KTN rəsmisi:*

### "Pambığın sahədə qalması fermerin məsuliyyətsizliyidir"

yazısı səh.14-də

### Qaşıqçının cəsədinin qalıqları quyudan tapıldı

yazısı səh.5-də

### "Qarabağ" - "Vorskla" qarşılaşması - erməni Qeqam gəlsəydi...

yazısı səh.15-də

# RƏSMİ BAKIDAN İKİ MÜHÜM GEDİŞ - "RUS NATO-SU" VƏ İSRAİL...

Elmar Məmmədyarov KTMT-yə üzvlüyün şərtini açıqladı; Baş Qərargah rəisi Nəcməddin Sadıkov isə İsrailə getdi - müdafiə naziri Libermanın Bakı səfərindən cəmi 1 ay sonra - əsas hədəf...




yazısı səh.9-da

## MTN-in sabiq şöbə müdiri həbsxanadan buraxılmayıb - Baş Prokurorluq

Cəzası 12 ildən 5 ilə endirilən Vüsal Ələkbərov nədə ittiham olunurdu, kimləri adını çəkəcəyi ilə hədələyirdi?

yazısı səh.4-də



### Rüfət Aslanlı həbs oluna bilər - ilginc korrupsiya faktları

yazısı səh.7-də



### Paşinyanı çətin günlər gözləyir - rəqibləri hərəkətə keçib

yazısı səh.11-də



Mübariz Qurbanlı

### Komitə sədri açıqladı: özünə əvvəldən qəbir yeri düzəltmək yasaqlanır

yazısı səh.13-də



## İlham Əliyev Rusiyanın daxili işlər nazirini qəbul edib

**Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 23-də Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə ikitərəfli məsələlər və qarşılıqlı əlaqələr müzakirə edilib.**

## Ərdoğan canlı yayımda İlham Əliyevə təşəkkür etdi

**Bu investisiyanın həyata keçirilməsi məsələsində dostum cənab İlham Əliyevə şəxsim və millətim adına təşəkkür edirəm. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AKP) qrup toplantısında çıxışı zamanı deyib.**

"İzmir şəhərində açılışı olan "Star" zavodunun xeyirli olmasını diləyirəm. Ən böyük neft zavodlarından biri kimi fəaliyyət göstərəcək bu zavodla cari kəsirimizi də 1.5 milyard dollar azaldacağıq. Bu layihə bütövlükdə götürüldükdə Azərbaycanın Türkiyəyə qoyduğu 10 milyardlıq investisiya layihəsidir", - Ərdoğan bildirib.

## Azərbaycanın 34 rayon və şəhəri xərclərini öz gəlirləri hesabına təmin edəcək

**2019-cu ildə Azərbaycanın 34 rayon və şəhəri xərclərini öz gəlirləri hesabına təmin edəcək. Bu barədə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi zərfində deyilir.**

2019-cu il dövlət büdcəsi gəlirlərinin tərkib hissəsi olan yerli gəlirlər (Bakı şəhərinə aid olan hissəsi nəzərə alınmaqla) 736,8 milyon manat nəzərdə tutulur ki, bu da 2018-ci il ilin müvafiq göstəricisi ilə müqayisədə 83,4 milyon manat və ya 12,8 faiz çoxdur.

Növbəti ildə yerli xərcləri tənzimləmək üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən ayrılan maliyyə yardımının (dotasiyanın) yerli xərclərin tərkibində xüsusi çəkisi 12,4 faiz təşkil edəcək ki, bu da əvvəlki illə müqayisədə 2,6 faiz çoxdur.

2019-cu ildə 34 rayon və şəhər, o cümlədən Gəncə, Lənkəran, Mingəçevir, Naftalan, Sumqayıt, Şəki, Şirvan, Yevlax şəhərləri, Abşeron, Ağcabədi, Ağdaş, Astara, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, Xaçmaz, İmişli, İsmayıllı, Kürdəmir, Qazax, Qəbələ, Quba, Qubadlı, Qusar, Masallı, Neftçala, Saatlı, Sabirabad, Salyan, Siyəzən, Şabran və Şamaxı rayonları xərclərini öz gəlirləri hesabına təmin edəcək.

## "Qarabağ" klubuna texniki məğlubiyyət verilib

**AFFA İntizam Komitəsi "Qarabağ" klubuna texniki məğlubiyyət verib. "Report" Peşəkar Futbol Liqasının saytına istinadən xəbər verir ki, buna səbəb Ağdam komandasının Azərbaycan Premyer Liqasının VIII turunda evdə "Səbail"i 1:0 hesabı ilə məğlub etdiyi matç zamanı aid protokolda olmayan futbolçunu meydana buraxmasıdır.**

Abbas Hüseynovun adı matçın iştirak ərizəsində göstərilməsə də, baş məşqçi Qurban Qurbanov onu ikinci hissədə kapitan Rəşad Sadıqovun əvəzinə meydana buraxıb. Buna görə də görüşün nəticəsi ləğv olunub və kluba 0:3 hesablı texniki məğlubiyyət verilib. "Qarabağ" eyni zamanda 8 min manat cərimələnib.

Qeyd edək ki, görüş "Qarabağ"ın 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. AFFA İntizam Komitəsi Premyer Liqada daha öncə "Zirə"yə də texniki məğlubiyyət verib. Qurum həmçinin I Divizionda "Səbail-2"ni də texniki məğlubiyyətlə cəzalandırıb.

## Ermənistanda bir sıra nazirliklər ləğv ediləcək

**Ermənistanda nazirliklərin sayı 8-10-dək azaldılacaq. Yerli "Hraparak" nəşri yazır ki, bunu hökumətdəki mənbə bildirib. Məlumata görə, oxşar funksiyaya malik nazirliklər birləşdiriləcək. Əmək və sosial məsələlər, səhiyyə, idman və gənclərlə iş üzrə və mədəniyyət nazirliklərinin birləşdirilməsi, yaxud ləğv ediləcəyi gözlənilir.**

Diasporla İş üzrə Nazirlik isə bundan sonra Xarici İşlər Nazirliyinin tərkibində fəaliyyət göstərəcək. Bundan başqa, güc nazirliklərinin sayının da azaldılacağı gözlənilir.

Qeyd edək ki, hazırda Ermənistanda 18 nazirlik var.

# Deputatlara yeni məhdudiyyətlər qoyulur

**Deputatlara hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər qoyulur. Modern.az-ın məlumatına görə, bununla bağlı "Milli Məclisin deputatının etik davranış qaydaları haqqında" Qanuna yeni 10.3-cü maddə təklif edilir.**

Yeni təklif olunan maddəyə görə, qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və güzəştlər təklif olunduğu hallarda deputat onlardan imtina etməlidir.

Bütün bunlar deputata ondan asılı olmayan səbəbdən verilərsə, o, bu barədə Milli Məclisin İntizam komissiyasına məlumat verməlidir.

Hazırkı qanunvericilikdə isə belə bir maddə yoxdur.



"Milli Məclisin deputatının etik davranış qaydaları haqqında" Qanuna dəyişiklik parlamentin oktyabrın 30-da keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.

## Türkiyədə MHP-AKP ittifaqı dağıldı

**Türkiyənin Milliyətçi Hərəkat Partiyasının (MHP) sədri Devlet Bahçeli hakim Ədalət və İnkişaf Partiyası (AKP) ilə ittifaqın başa çatdığını bildirib.**

«Trend»in məlumatına görə, ittifaqın başa çatmasına səbəb amnistiya ilə bağlı partiyalar arasındakı fikir ayrılıqları olub.

D.Bahçeli bildirib ki, MHP-nin məhbusların əfv olunması təklifinə "yuxarıdan aşağı baxan partiya" ilə ittifaqa ehtiyac yoxdur. "Madam ki MHP fərqli seçim edib "biz yolumuza" deyir, biz də "hərə öz yoluna" deyərik". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hakim Ədalət və İnkişaf Partiyasının (AKP) parlamentdəki fraksiyasının genişləndirilmiş toplantısında deyib.

**Ərdoğan deyib ki, bu ittifaq uzun müddət üçün formalaşdırılıb:** "Biz 2053, 2071-ci illər üçün ittifaq qurduq. Bunun üçün artıq baxış fərqlərini "Cümhur İttifaqı"nın üzərinə düşməsinə icazə verməməliyik. Biz bu ittifaqın ruhuna ziyan verəcək heç bir iş görmədik və görməyəcəyik. Millətimizin əmanəti olan "Cümhur İttifaqı"nı gündəlik siyasətdən üstün tutmaq istədik. Gördük ki, MHP fərqli seçim etdi. Madəm "biz yolumuza" deyirlər, biz də "hər kəs öz yoluna" deyirik".

## Bakıda 25 dərəcə isti olacaq

**Oktyabrın 24-nə gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq. Cənub-qərb küləyi gündüz arabir güclənəcək.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 15-17, gündüz 21-25, Bakıda gecə 15-17, gündüz 23-25 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 762 mm civə sütunundan 754 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz

## "Türkiyə-ABŞ münasibətləri keşiş Bransonun həbsinə görə pozulmayıb"

**Türkiyə ilə ABŞ arasındakı münasibətlər keşiş Endrü Bransonun həbsinə görə pozulmayıb. Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. Nazir bildirib kli, iki ölkə arasında fikir ayrılıqları Vaşinqtonun PYD və YPG terrorçularına dəstək göstərdiyi üçün mövcuddur: "ABŞ Suriyanın şimalında PYD və YPG-yə dəstəyini dayandırmalıdır".**

M.Çavuşoğlu əlavə edib ki, Türkiyə ABŞ-ın Mənbic üzrə yol xəritəsinin şərtlərini yerinə yetirəcəyinə ümid edir.




## "Nar TV" tətbiqini yüklə, smartfonda sevdiyin kanallara bax

**"Nar" Azərbaycan telekommunikasiya bazarında ilk dəfə olaraq, onlayn TV - "Nar TV" tətbiqini təqdim edir. "Nar TV" tətbiqi vaxt və məkan sərhədi tanımır. Beləki, bundan sonra abunəçilər istənilən məkanda və vaxtda smartfonlarında sevdikləri TV kanallara və verilişlərə rahat şəkildə baxa biləcəklər. "Nar TV" mobil telefonlarda və ya tabletlərdə idman, əyləncə, uşaq, film, xəbər də daxil olmaqla, 100-ə qədər seçilmiş yerli və regional televiziya kanallarına giriş imkanı verir.**

**"Nar TV" tətbiqini indi yükləməklə istifadəçilər 100-ə qədər kanala 1 ay ərzində ödənişsiz baxa bilərlər. Abunəçilərə rahat şəkildə sevdiyi kanalları izləmək imkanı yaradan "Nar TV" mobil tətbiqini "Google Play" - https://bax.nar.az/nartv-g və "App store"-dan - https://bax.nar.az/nartv-i telefonlara və ya tabletlərə yükləməli, "Nar" nömrəsindən istifadə edərək qeydiyyatdan keçilməlidir. "Nar TV"-nin digər üstünlüyü, vaxtınız olmadıqda ötürdüyünüz proqramlara 12 saat ərzində baxmaq mümkünlüyüdür. Aylıq abunə haqqı cəmi 3 AZN-dir. Abunəçilər "Nar TV"-yə "Nar"-ın 4G şəbəkəsindən istifadə etməklə, tam keyfiyyətdə baxa bilərlər.**

**"Nar TV"-də valideyn nəzarət xidməti də mövcuddur. Bunun üçün xüsusi kanalları PİN kod vasitəsilə məhdudlaşdırmaq olar. Qeyd edək ki, "Nar TV" xidməti "Uninet"-lə əməkdaşlıq çərçivəsində təqdim edilir. "Nar TV"-nin digər üstünlükləri barədə daha ərtaflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.**

## Bakıda narkotik tərkibli bitkilərin yetişdirilməsi ilə məşğul olan dəstə tutuldu

**Bakıda bağlardan birindən 350 kq-dan artıq narkotik tərkibli kənaf bitkisi aşkar edilib.**

DİN-dən verilən məlumata görə, oktyabrın 20-də gecə saat 2 radələrində Xəzər rayonunun Qala qəsəbəsinin Xaşaxuna bağlar sahəsi ərazisində "Volkswagen" markalı avtomobil şübhə doğurduğundan DİN-in Əlahiddə Çevik Polis Alayı və Xəzər Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən nəzarət qaydasında saxlanılıb. Polis əməkdaşları tərəfindən avtomobili idarə edən şəxsin Buzovna qəsəbə sakini Həsən Məmmədov olduğu müəyyən edilib.

Əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobilin yük yerindən çəkisi 23 kiloqram olan kənaf bitkisinin yaş halda yarpaqları və gövdələri, həmçinin 850 qram marixuana aşkar edilərək götürülüb. Sürücü və sərnişinləri, Qazax rayon sakinləri Vüsal Qurbanov, Elməddin Nağıyev və Yevlax rayon sakini Səxavət Elyasov saxlanılaraq Xəzər Rayon Polis İdarəsinin 1-ci Polis Şöbəsinə təhvil veriliblər. Davam etdirilən tədbirlərlə narkotikin əldə olunduğu mənbə də qısa zamanda polis əməkdaşları tərəfindən müəyyənləşdirilib. Məlum olub ki, onlar narkotik vasitəni Qax rayon sakini Teymur Nəcəfov, Maştağa qəsəbə sakinləri Sərxan Qarayev, Natiq Süleymanov və Asim Əliyevdən alıblar. Keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə adları çəkilən şəxslərin dördü də saxlanılıb.

Xaşaxuna bağlar sahəsində S.Qarayevə məxsus istixanada keçirilən tədbirlərlə oradan kultivasiya yolu ilə yetişdirilmiş, çəkisi 350 kiloqramdan artıq 1973 ədəd kənaf bitkisi də aşkar edilərək götürülüb. İstintaq zamanı müəyyən edilib ki, narkotik bitkilərin əkildiyi bağ sahəsi S.Qarayeva məxsusdur. O, həmin bitkiləri əkmək üçün torpaq sahəsini N.Süleymanova icarəyə verib. Dəstənin digər üzvü olan T.Nəcəfov isə N.Süleymanovla birlikdə həmin bağ sahəsində narkotik tərkibli bitkilərə xüsusi qaydada qulluq edərək onları yetişdirib.

Faktla bağlı Xəzər Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq və əməliyyat tədbirləri davam etdirilir.

## Əməkdar artistin qalmaqallı verilişi bağlandı

**Əməkdar artist Mehriban Xanlarovanın aparıcılığını etdiyi "Canım sizə desin" adlı proqramın yayımı dayandırılıb.**

Bu barədə ARB TV məlumat yayıb. Sosial şəbəkələrdə tənqid olunan verilişin kanal rəhbərliyi tərəfindən bağlanıldığı deyilir.

Qeyd edək ki, verilişdə ötən həftə "Azəri Vandam" adlı şəxsin qonaq olması və aktrisanın bayağı hərəkətləri müzakirə olunmuş, qınaq obyektinə çevrilmişdi.

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018

# Nazirdən Müşfiqin sümüklərinin tapılması barədə daha bir mövqe

## Əbülfəs Qarayev: "O vaxta qədər Mikayıl Müşfiqin qəbrinin harada olması ilə bağlı danışmaq tezdir"

**Mədəniyyət naziri Əbülfəs Qarayev Qaradağ rayonunun Buta qəsəbəsində şair Mikayıl Müşfiqin meyitinin qalıqlarının tapılması ilə bağlı iddialara münasibət bildirib.**

"Report"un xəbərinə görə, nazir deyib ki, bu məsələ araşdırılır. Ə.Qarayev eyni zamanda ictimaiyyəti bu kimi sensasion xəbərlərə inanmamağa çağırıb. O vurğulayıb ki, təsdiq olunmamış məlumatlara istinad etmək doğru deyil: "Mikayıl Müşfiqin adı Azərbaycan üçün müqəddəsdir. O, Azərbaycan ədəbiyyatı tarixində böyük iz qoymuş şəxsiyyətdir. Azərbaycan dövləti ona hörmətlə yanaşır. Prezidentin müvafiq sərəncamı ilə bu il şairin yubileyi keçirilir. Artıq bu tədbirlərin icrasına başlanılıb. Hazırda Mikayıl Müşfiq adına Muzeyin yenidən qurulması ilə bağlı işlər gedir. O, heç vaxt dövlət və ictimaiyyət tərəfindən unudulmayıb və bundan sonra da unudulmayacaq".

**M.Müşviqin məzarının harada olmasına gəlincə, nazir əlavə edib ki, məlumatlar Mədəniyyət Nazirliyinə daxil olduqdan sonra Azərbaycan Milli Elmlər Akademiyası və digər aidiyyəti qurumlarla birgə araşdırmalar aparılacaq:** "Qəbiristanlıqdakı qalıqların kimə aid olması dəqiqləşdikdən sonra bu məsələ barədə danışmaq olar. O vaxta qədər isə Mikayıl Müşfiqin qəbrinin harada olması ilə bağlı danışmaq tezdir. Ona görə də məsələyə həssas yanaşılmasını tövsiyə edirəm".



Xatırladaq ki, bu iddiaları rusiyalı milyarder Fərhad Əhmədov irəli sürüb.

"Şair Mikayıl Müşfiqə məxsus olduğu ehtimal edilən qalıqların aşkar edilməsi Azərbaycan üçün əhəmiyyətli hadisədir. Çünki Müşfiq Azərbaycan üçün bir dəyər məsələsidir, yaradıcı gənclərin simvoludur". Bunu virtualaz.org-a açıqlamasında **tarixçi-alim Nəsiman Yaqub**lu bildirib. Alimin sözlərinə görə, vaxtilə şairin həyat yoldaşı Dilbər xanımla da görüşüb, baş verənləri onun öz dilindən eşidib. "Müşfiq həm də milli mənəvi dəyərləri olan biri idi. Müşfiqdən sonra Dilbər xanımı da həbs ediblər, olduqca əzablı günlər keçirib", - Yaqublu deyib. N.Yaqublu qeyd edib ki, Müşfiqin qalıqlarının tapılması faktından istifadə edərək sovet rejimi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, eyni zamanda digər qurbanların məzarını, qalıqlarını tapmaq üçün araşdırmalara başlamaq lazımdır. Qalıqların Müşfiqə aid olduğu təsdiqlənəndən sonra şair dövlət səviyyəsində dəfn edilməlidir.

**"Hüseyn Cavidin nəşinin qalıqlarının tapılıb Bakıya gətirilməsi necə böyük hörmətlə qarşılandısa, Mikayıl Müşfiqin də qalırlarının tapılması və dəfn olunması xalq tərəfindən o cür hörmətlə qarşılanacaq". Mikayıl Müşfiq irsinin araşdırmaçısı, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Safura Quliyeva Qaradağ rayonunun Puta qəsəbəsində şairə məxsus olduğu ehtimal olunan qalıqların tapılmasına münasibət bildirərkən deyib.**

**Uzun illər Mikayıl Müşfiq yaradıcılığını tədqiq edən alim bildirib ki, əslində bu hadisənin çox böyük tarixi əhəmiyyəti olar:** "Şəxsən mənim çox böyük ağrılı yerimdir ki, bu nakam şairin nə övladı qalıb, nə kəndi qalıb. Ondan demək olar ki, heç nə qalmayıb. Heç olmasa qəbri olsa, ölən günündə, doğum günündə gedib qəbrini ziyarət edək. İndiyə kimi onu anmaq üçün ancaq büstünün qarşısında toplaşırdıq. Əgər sümüklər tapılsa, basdırılsa, bu çox böyük hadisə olar.

**"Əgər Mikayıl Müşfiqin hətta az ehtimal olunan qalığı varsa, o, mütləq öyrənilməli, şairə məxsus olub-olmadığı dəqiqləşdirilməlidir. Bu bizim vəzifəmizdir".**

**Bunu virtualaz.org-a açıqlamasında akademik Nizami Cəfərov deyib. N. Cəfərov hesab edir ki, Mikayıl Müşfiqin qalıqlarının aşkar edilməsinin çox böyük əhəmiyyəti var. Bu həm də Müşfiqin bizim ədəbiyyatımıza, mədəniyyətimizə olan xidmətləri qarşısında, onun istedadı qarşısında olan borcumuzdur.**

"Bu gün belə tədqiqat imkanları var, həmin qalıqların həqiqətən də Müşfiqə aid olub-olmadığını dəqiq müəyyənləşdirmək olar. İlk olaraq tədqiqat aparılmalıdır. Mütəxəssislər müəyyənləşdirməlidir, onlar antropoloji tədqiqat aparıb, təhlillər edib fikir söyləməlidirlər", - deyə N. Cəfərov bildirib.

Millət vəkili həmçinin qeyd edib ki, bioloji tədqiqatdan sonra ehtiyac olarsa, ümumictimai komissiya da yaradıla bilər. Bu komissiya müəyyən detalları, məsələn, tarixi şəraiti və sairi araşdıra bilər.

❑ **XALİDƏ, "Yeni Müsavat"**

# Müxalifətdə "üçüncü dünya müharibəsi"- şok ittihamlar

## "Qurban Məmmədov Pənah Hüseyn baş nazir olanda məxfi danışıqlarını dinləmək üçün gətirib orada səsyazma aparatı quraşdırmışdı"

**Müxalifət düşərgəsi qaynayır. Amma fəaliyyətlə deyil, daha çox qarşıdurmalarla... REAL Məclisinin sədri Erkin Qədirlinin müxalifət təcrübə toplayana qədər hakimiyyətin qalması ilə bağlı açıqlamalarının üstündən 20 gündən çox vaxt keçib. Amma hələ də Müsavat və AXCP-dən ibarət Milli Şura onu "məhşər ayağına" çəkir, ən ağır ifadələrlə aşağılayır.**

Müxalifət düşərgəsində daha bir savaş İngiltərədə yaşayan hüquqşünas Qurban Məmmədovla Milli Şura arasında gedir. Bu savaşın başlanmasından yarım aydan çox vaxt ötməsinə baxmayaraq hələ də davam edir.

**Milli Şura sədri Cəmil Həsənli Q.Məmmədova bu statusu həsr edib:** "Deməli, Qurban Məmmədov indi məsələni o istiqamətə yönəltmək istəyir ki, guya biz onun yeni "tapıntısı" Aslan İsmayılovun dezinformasiyasına inanıb onu ifşa etmişik. Bu növbəti oyunbazlıq, ictimaiyyəti aldatmağa yeni cəhddir. Bizim Qurbanı ifşa etməyimizin Aslanın boş-boş danışması ilə, Qərbi tənqid edib, Avropaya "təhsil" arxasınca getməsi, Polşada pənahəndə olması ilə heç bir əlaqəsi yoxdur.

Əslində heç biz Qurbanı ifşa etməmişik. O, özü-özünü ifşa edib. Sovet dövründə belə bir film var idi: "İlin doqquz günü". Elmi araşdırma institutunda fiziklərin elmi axtarışlarından bəhs edirdi bu film. Həmin filmdə pis işləyən, işə ziyan vuran, lakin tez-tez təşəbbüs qaldıran fiziklərin birini danlayan laboratoriya müdiri deyir ki, (lətifəsi Qurban Məmmədovdan uzaq) "ən təhlükəli axmaq, təşəbbüskar axmaqdar". İndi bu Qurban Məmmədov da öz təşəbbüskarlığından ifşa olunub. O, Azərbaycan dövlətçiliyini xilas etmək "təşəbbüsü" ilə Londona hicrət edib deşifrə olunduqdan sonra, bu Aslan Aslanov da Qurbanın özünü xilas etmək üçün Polşadan xuruc edib. Məsələ burasındadır ki, biz Qurban Məmmədovun böhtanlarına çox dözdük. Biz dözdükcə o, daha da azğınlaşdı. Əlbəttə, bunun bir sonu olmalı idi. İndi artıq görürsünüz, Şeyx Nəsrullah kimi o, ölü diriltməklə məşğuldur. Özünə hörmət edən heç kim artıq onun kanalına getmir.



Qurban Məmmədov

Adam Londonda xanənişin olandan sonra Nardaran hadisələrinin ardınca Milli Şuranın Koordinasiya Mərkəzinin toplantısında xalqımızın İslam inanclı olduğuna dayanaraq "şəriət dövləti" yaratmaq təklifindən kəmali-ehtiramla yan keçmək istəyir. Bu təklif həmin iclasda iştirak edən bütün üzvlərin qarşısında edilib. Birinci olaraq Gültəkin xanım onun ağzından vurub ki, biz bura şəriət dövləti yaratmağa yığışmamışıq. Biz Milli Şura olaraq xalqımızın ideallarını Qərb dəyərlərində, Avropa Birliyi sərhədlərində görürük. Cavabında Qurban Məmmədov bildirib ki, xanım siz əgər Allaha inanmırsınızsa bu o demək deyil ki, bütün Azərbaycan xalqı sizin kimidir. Mən müdaxilə edib müzakirəni dayandırmışam. İndi Qurban iclas zamanı apardığı "qeydlərə" əsasən sübut etsin ki, yox, belə deyil. Londona gedəndən sonra birinci işi də bizi debata çağırmaq olub, özü dediyi kimi, tribuna vermək üçün yox, "anamızı ağlatmaq" üçün.

Bütün ömrü boyu bu adamın işi öz "dostlarının" əleyhinə "kompromat" toplamaq olub. Onun topladığı "kompromat" qovluqlarını üst-üstə yığsan boyundan çox-çox hündür olar. Deməli, Pənah Hüseyn baş nazir işləyəndə kabinetinin arxasındakı məxfi danışıqlar otağının açarını tənha olaraq Qurbana vermişdi. O da bu "etimadı" yüksək qiymətləndirərək Pənah bəyin məxfi danışıqlarını dinləmək üçün gətirib orada səsyazma aparatı quraşdırmışdı. İndi belə adamdan nə gözləyirsiniz? O, Qılınc Qurban olmaq iddiasında idi, amma təəssüf ki, gülünc Qurban oldu".

Q.Məmmədov C.Həsənliyə onun deputat olarkən parlamentdən hakimiyyətin təhsil siyasətini tərifləyən videosunu paylaşmaqla bu cümləni yazıb: "Əsl sifətiniz budur, Cəmil Həsənli".

Hüquqşünas son günlərdə C.Həsənlinin əsas müdafiəçisinə çevrilərək, şəxsinə yönəlik təhqirlər, tənqidlər yağdıran Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylinin 2008-ci ilin prezident seçkilərində hakimiyyətin seçki mitinqlərindəki çıxışlarından birini bu başlıqla paylaşıb: "Afərin, Gültəkin! Məni söyməyə də, böhtan atmağa da haqqın var, bu ağılla".

Milli Şuranın Koordinasiya Mərkəzinin daha bir üzvü Eldəniz Quliyevin Q.Məmmədovu hədəf aldığı status bütün etik sərhədləri keçib: "Qurban Məmmədov, hər şey bir qırağa...

Əzab-əziyyət içində qovrulan siyasi məhbus ailələrinin çörək puluna tamah saldığın üçün sən vicdansızsan".

Q.Məmmədovun cavabı: "Bilirdim, ancaq bu qədər kütbeyin olduğunu bilmirdim, Eldəniz. Nə gündə imişsən. Bu "ağıl-kamalla" sən çox uzağa gedəcəksən. Payını artırıblar deyəsən, nuş olsun. Bilirəm, Heydər Əliyev Gəncədən qayıdan gün keçirdiyi mətbuat konfransında dediyin: "Haradasız, gəlin bu cəbhəçilərdən bizi xilas edin" - deyə, bağırmağını xatırlatdığım üçün mənə qızğınsan. Ancaq faktlar amansız olur. Başım qarışıb. Sənə də vaxt ayıracağam, gözlə. Get qurban ol Mehdi bəyə..."

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018

# Trampın güdazına gedən azərbaycanlılar

## Ağalarovlar və Məmmədovlar - nə umurdular, nə buldular?

**Amerika prezidenti Donald Tramp öz ölkəsində mübahisəli fiqur olmaqla yanaşı, Azərbaycanın siyasi həyatında da ilginc izlər qoyub. Xüsusən də bəzi biznes fiqurlarının.**






Zamanında, yeni cənab Tramp prezident olmadan öncə onunla işgüzar münasibətlərdə olanların başı daha sonra ciddi şəkildə ağrıyıb. Buna səbəb aparılan araşdırmalar, tətbiq edilən sanksiyalar paketi olub.

"Yeni Müsavat" həmin şəxslərin kimliyini və onlarla bağlı yaşananları təqdim edir. Öncə ondan başlayaq ki, ABŞ-ın Maliyyə Nazirliyi Konqresə Rusiya əleyhinə misli görünməmiş sanksiyalar paketi təqdim edib. Paketdəki siyahıda Rusiyanın 114 nəfər yüksək vəzifəli məmurunun, dövlət şirkəti sahiblərinin və 96 nəfər tanınmış biznesmenin adı qeyd olunub.

Azərbaycan əsilli oliqarxlar Araz Ağalarov ("Crocus Group" şirkətinin sahibi və prezidenti), Fərhad Əhmədov ("Aznar" şirkətinin Direktorlar Şurasının sədri), Vahid Ələkbərov ("Lukoil" şirkətinin prezidenti) və Qod Nisanov ("Kiyevskaya Ploşad" holdinqin İdarə Heyətinin sədri) ABŞ-ın sanksiyalar siyahısında yer alıb.

Daha əvvəl ABŞ prezidenti Donald Trampla yaxın dostluq münasibətləri olan Araz Ağalarov və Fərhad Əhmədovun adlarının bu siyahıda yer alması xüsusi maraq doğurub. Araz Ağalarovun oğlu, azərbaycanlı müğənni və iş adamı Emin Ağalarovun bir klipində hətta Donald Tramp rol alıb. E.Ağalarov öz müsahibələrində Trampın özü və övladları ilə dost olduğunu, onların evinə qonaq getdiyini bildirib.

Ümumiyyətlə, Ağalarovların Amerikadakı seçkiöncəsi dövrdə Trampla əlaqələrini təsdiqləyən faktı yenə oğul Tramp açıqlayıb. O, özünün twitter hesabında keçmiş musiqi şərhçisi olan Rob Qoldstounla 2016-cı ilin iyununda apardığı yazışmalarını yayıb. Daha sonra isə məlum olub ki, həmin Qoldstoun Emin Ağalarovun PR meneceridir.

Qoldstounun yazdıqlarından belə məlum olur ki, Ağalarovlar ailəsi Tramplara "Rusiyanın dövlət prokuroru"ndan onlara verilmiş Klinton əleyhinə kompromatlarla tanış olmağı təklif ediblər. Kompromatları isə Tramplara N.Veselnitskaya çatdırmalı imiş. Kiçik Tramp bəyan edir ki, görüş baş tutub, lakin N.Veselnitskaya onlara hansısa kompromat təqdim etmək əvəzinə ABŞ-ın Rusiyaya qarşı sanksiyalarından, yetimlər haqqında qanundan danışıb.

Maraqlıdır ki, dünya mətbuatında Ağalarovun əlində Trampa qarşı materialların olduğu, buna görə də onu görüşə razı sala bildiyi iddiaları da yer alır. Dünya mətbuatının yazdığına görə, Ağalarov nəinki D.Trampın köhnə biznes ortağı, həm də Kremlin ən etibarlı oliqarxlarından biridir. Hətta bəzi mənbələr Trampı Putinlə məhz onun tanış etdiyini deyirlər.

Bəs Ağalarovlarla Trampın tanışlığı haradan başlayıb? Mənbələrə görə, tanışlıq Eminin öz klipinə qəhrəman axtarışı ilə başlanıb. Bu axtarışların nəticəsi olaraq "Dünya gözəli - 2012" Eminin klipinə çəkilib, Ağalarovların Trampla dostluğunun əsası qoyulub. Onlar müsabiqənin "Crocus City" Hallda keçirilməsi barədə 7 milyon dollarlıq razılığa gəldikdən sonra isə Tramp twitter vasitəsilə Putini də tədbirə dəvət edib. Lakin Putini tədbirdə işlər müdiri Vladimir Kojin təmsil edib. Putinin özü isə Trampla telefonla danışıb, daha sonra ona Nyu-Yorka hədiyyə göndərib.

Tramp prezident seçiləndən sonra Ağalarovlarla Tramp ailəsi arasındakı münasibətlər barədə Eminin "Forbes"ə müsahibəsi də xeyli müzakirələrə səbəb olub. Belə ki, həmin müsahibədə Emininin dediyi "İndi-seçilib və qalib gələndən sonra da Tramp öz dostlarını unutmur" cümləsi uzun müddət dünya mətbuatında müzakirə olunub.

Həmin müsahibədən aydın olur ki, Tramp seçki prosesinə qoşulmasaydı, o və atası Rusiyada Tramp qülləsi tikməyə başlayacaqdılar. Lakin Donaldın seçki marafonuna qoşulması planın yarımçıq qalmasına gətirib çıxarıb.

Bundan başqa, Trampın adını daşıyan böyük oğlu, twitter hesabında paylaşdığı şəxsi emaillərdə, musiqi agenti Rob Goldstone-un Azərbaycan əsilli Rusiya milyarderi Araz Ağalarovun Rusiya hökumətindən Hillari Klinton barədə aldığı sənədləri cənab Trampın prezidentlik kampaniyasına dəstək olaraq paylaşmaq istədiyini bildirmişdi...

Azərbaycan-Amerika Alyansının rəhbəri, keçmiş nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov da Trampla əlaqələri olan azərbaycanlılardandır. O da 2016-cı ilin noyabrında ABŞ-da keçirilən prezident seçkilərinin qalibi olan Trampı "Instagram" hesabından təbrik etmişdi. O, Trampın qızı ilə fotosunu paylaşaraq "Əziz dostum, sizi və ailənizi bu tarixi gün münasibətilə təbrik edirəm" yazmışdı.

Amma ABŞ Senatının bir qrup aparıcı üzvü "Tramp Organization" təşkilatının Azərbaycanda Məmmədovlar ailəsi ilə müştərək tikdiyi "Tramp Tower" göydələninin hansı hesabdan tikilməsinin araşdırılmasını istəyiblər. ABŞ mətbuatında da bu haqda yazılar dərc olunub.

Seçkilərdən əvvəl mətbuatda yazılırdı ki, Azərbaycanda Trampın şəxsi mülkiyyəti sayılan "Tramp Tower" beynəlxalq ticarət markasının adını daşıyan, yeni ABŞ prezidentinin verdiyi lisenziya əsasında tikilmiş yeganə bina məhz Azərbaycan-Amerika Alyansının təsisçisi və prezidenti Anar Məmmədovun şirkətinə aiddir. Hətta həmin vaxt Məmmədovlara yaxın media orqanları yazırdı ki, A.Məmmədovla Trampın illərə dayanan biznes tərəfdaşlığı və şəxsi dostluğu gələcəkdə Azərbaycan-ABŞ münasibətlərinin daha da dərinləşməsinə xidmət edəcək və ABŞ-ın yeni xarici siyasətində Azərbaycanın əməkdaşlıq üçün daha prioritet ölkəyə çevrilməsinə gətirib çıxaracaq.

Hələ Tramp prezident seçilmədən onun A.Məmmədovla əlaqələri Amerika mediası tərəfindən araşdırılıb, kəskin tənqid hədəfi oldu. "The Newsweek"də yazılan məqalədə bildirilirdi ki, maraqlar toqquşması barədə narahatlıq doğuran başqa bir sövdələşmə Azərbaycana aiddir. Trampın maliyyə hesabatlarına görə o, "OT Marks Baku" LLC və "DT Marks Baku Manaaina Member Corp" adlı iki biznes vahidinin prezidentidir.

"The Newsweek"in yazdığına görə, bu sövdələşmə üzrə Trampın partnyoru ölkənin nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun nəzarətində olan "Garant Holding" şirkəti olub. Məqalədə bildirilirdi ki, Amerikanın 2010-cu ildə ictimaiyyətə açılmış diplomatik hesabatlarına görə Birləşmiş Ştatlar Ziya Məmmədovun İran hərbiyyəsi üçün çirkli pulları yumasına dair şübhələr yaradan sənədlərə malikdir...

Amma Tramp prezident seçiləndən hər iki tanınmış biznesmen ABŞ prezidenti ilə olan münasibətlərindən divident əldə etmək əvəzinə, ciddi zərər yaşadılar. Buna səbəb Trampın prezidentliyə namizədlik dönəmində qanunvericiliyə əsasən, bəzi biznes layihələrindən geri çəkilməsi oldu. Seçkidən sonra da başlanan araşdırmalar cənab Trampa öz azərbaycanlı dostlarına sahib çıxmağa mane oldu. Nəticədə Ağalarovların bank hesabına həbs qoyuldu, Məmmədovlar isə ciddi yanlışlıq və fiaskolara görə vəzifə və diaspor sektorundan silindilər, biznesdə isə demək olar ki, izləri qalmadı.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

# MTN-in sabiq şöbə müdiri həbsxanadan buraxılmayıb-Baş Prokurorluq

## Cəzası 12 ildən 5 ilə endirilən Vüsal Ələkbərov nədə ittiham olunurdu, kimləri adını çəkəcəyi ilə hədələyirdi?

**Baş Prokurorluğun mətbuat xidməti bəzi kütləvi informasiya vasitələrində ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) sabiq şöbə rəisi Vüsal Ələkbərovun cəza çəkdiyi cəzaçəkmə müəssisəsindən guya vaxtından əvvəl azadlığa buraxılması və ya məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi barədə yaydığı informasiyalara münasibət bildirib.**



Baş Prokurorluqdan modern.az-a verilən məlumatda bildirilb ki, həmin məlumatlar həqiqəti əks etdirmədiyindən Baş Prokurorluq tərəfindən qəti şəkildə təkzib olunur: "Belə ki, rüşvət alma, hədə-qorxu ilə tələb etmə və sair faktlarla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı tamamlanmış cinayət işi üzrə məhkəmə tərəfindən azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş Vüsal Ələkbərov hazırda Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müvafiq cəzaçəkmə müəssisəsində azadlıqdan məhrumetmə cəzasını çəkir".

"Yeni Müsavat" bildirir ki, Vüsal Ələkbərov Cinayət Məcəlləsinin 182.3.1, 182.3.2-ci (mütəşəkkil dəstə tərəfindən, külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu gəlmə), 294.3-cü (sübutları saxtalaşdırma, ağır və ya xüsusilə ağır cinayətlər haqqında cinayət işi üzrə sübutları saxtalaşdırma, habelə digər işlər üzrə sübutların saxtalaşdırılması ağır nəticələrə səbəb olma), 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, təkrar, külli miqdarda, hədə-qorxu tətbiq olunmaqla rüşvət alma), 341.2.1 və 341.2.3-cü (bir qrup şəxs tərəfindən, ağır nəticələrə səbəb olmaqla hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə) maddələri ilə ittiham edilib.

Sahibkarlara hədə-qorxu gəlməkdə, onların külli miqdarda əmlakını ələ keçirməkdə ittiham olunan ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi İstintaq Baş İdarəsi 2-ci istintaq şöbəsinin rəisi Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi ötən ilin iyun ayının 10-da başa çatıb. Bakı Hərbi Məhkəməsində hakim Siyavuş Hacıyevin sədrliyi ilə baş tutan prosesdə Vüsal Ələkbərov 12 il müddətinə azadlıqdan məhrum edilib. Məhkəmə həmçinin polkovnikin rütbəsinin əlindən alınması barədə xüsusi qərardad çıxarıb. Vüsal Ələkbərov son sözündə sensasion faktlar sadalayacağını vəd edib. "Mən bəzi sensasion faktlar açıqlayacağam. Söhbət mütəşəkkil cinayətkar dəstədən gedirsə, o zaman bu dəstənin başçıları haradadır? Mənimlə burada kimlər qolu qandallı oturmalıdır, bunu onlar yaxşı bilirlər. Mən həmin mütəşəkkil dəstənin üzvlərinin hamısının adlarını və əməllərini bir-bir açıqlayacağam. Mən nə etmişəmsə, tapşırıq alaraq etmişəm, mənim rəisim olub. Burada mən yox, onlar niyə oturmayıb?" desə də, son sözündə yalnız zərərçəkənlərin ittihamlarını rədd edib.

İstintaq sənədlərinə görə, Vüsal Ələkbərova məxsus olan və həyat yoldaşı Şəhla Ələkbərovanın adına rəsmiləşdirilmiş Səbayel rayonu, Badamdar qəsəbəsindəki 0,18 hektar torpaq sahəsi və üzərində yerləşən fərdi yaşayış evi, Yasamal rayonu, Şərifzadə küçəsindəki mənzilin üzərinə həbs qoyulub.

Üzərinə həbs qoyulan əmlakların ümumi dəyəri 1.277.000 manat dəyərində hesablanıb.

Bu ilin fevralında isə Vüsal Ələkbərov barəsində çıxarılmış hökmdən apelyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib.

Bakı Apelyasiya Məhkəməsində hakim Qədim Babayevin sədrliyi ilə baş tutan prosesdə prokuror çıxış edib.

O, Bakı Hərbi Məhkəməsinin hökmünün qanuni və ədalətli olduğunu bildirib. Qeyd edib ki, Vüsal Ələkbərov və onun vəkillərinin apelyasiya şikayətləri əsassızdır. Prokuror hökmün dəyişdirilməməsini istəyib.

**Daha sonra çıxış edən Vüsal Ələkborov bildirib ki, birinci məhkəmə instansiyası onun barəsində əsassız hökm çıxarıb:** "Mənə mütəşəkkil dəstə tərkibində ittiham verilib. Amma mütəşəkkil dəstə müəyyən edilməyib. Mənim əmlakımın müsadirə edilərək zərərçəkmiş Akif Qurbanova verilməsi barədə qərar çıxarılıb. Nə səbəbə mütəşəkkil dəstənin törətdiyi cinayət əməlini mən ödəməliyəm? Mütəşəkkil dəstə anlayışı ilə bağlı Ali Məhkəmənin plenumunun qərarı var. Həmin qərarlara nəzər yetirilməlidir. Xahiş edirəm, bu məsələyə diqqət yetirilsin. Bu qədər ədalətsizlik olmaz". Daha sonra hakimlər qərar açıqlayıblar. Qərara görə, Vüsal Ələkbərovun cəzası 5 ilə endirilib.

❑ **ORXAN,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018

# Camal Qaşıqçının qətlində yeni şok detallar

## Jurnalist öldürülməzdən bir neçə ay əvvəl Ər-Riyadın ABŞ-dakı səfiri, vəliəhd şahzadə Məhəmməd bin Salmanın qardaşı ilə görüşüb

**Oktyabrın 2-də Səudiyyə Ərəbistanının İstanbuldakı Baş Konsulluğunda "Washington Post" qəzetinin müxbiri Camal Qaşıqçının qətlə yetirilməsi ilə bağlı yeni detallar üzə çıxıb. Jurnalistin həyatının son anlarının yer aldığı kadrlar yayılıb.**




Oxu.az xəbər verir ki, Türkiyənin A Haber telekanalının efirində nümayiş olunan videoda İstanbulun ayrı-ayrı yerlərində qurulan kameralardan görüntülər cəmlənib.

Bildirilir ki, jurnalist London aviareysi ilə İstanbula sentyabrın 28-də gəlib. Həmin gün o, öz nişanlısı ilə nikah prosesini yekunlaşdırmaq üçün Fatih Bələdiyyəsinə yollanıb. Qaşıqçı çatışmayan sənədləri almaq məqsədilə Səudiyyə Ərəbistanının baş konsulluğuna daxil olub.

Təxminən 1,5 saatdan sonra oradan çıxıb və nişanlısına deyib ki, boşanma və yeni nikaha daxil olma haqqında sənəd İstanbula növbəti səfərinədək hazır olacaq. Həmin günün axşamı jurnalist Londona yollanıb və oktyabrın 2-də yenidən İstanbula qayıdıb. Ona sənədlərin hazır olduğu bildirildikdən sonra Qaşıqçı nişanlısı ilə konsulluğa yollanıb. Saat 13.14-də o, binaya daxil olub və bir daha oradan çıxmayıb.

Bildirilir ki, təxminən eyni vaxtda İstanbul hava limanında kəşfiyyat polkovniki Maher Əbdüləziz Mutreblə birgə səudiyyəli kəşfiyyatçıların olduğu təyyarə eniş edib.

Qaşıqçı ilə bağlı son məlumatlardan biri odur ki, jurnalistin cəsədi İstanbulda quyuda aşkar edilib.

Bununla bağlı Vətən Partiyasının sədri Doğu Pərinçək məlumat verib. Onun sözlərinə əsasən, cəsəd Səudiyyə Ərəbistanının İstanbuldakı baş konsulluğunun ərazisindəki quyuda tapılıb. Pərinçək bu məlumatı İstanbul təhlükəsizlik xidmətindəki mənbədən aldığını bildirib.

**Səudiyyə Ərəbistanının xarici işlər naziri Adil Cübeyr Qaşıqçının ölümü ilə bağlı yeni açıqlama verib:** "Bir daha əsla belə bir şey baş verməyəcək. Camal Qaşıqçının istintaqı baş verənlərə dair həqiqətləri ortaya çıxaracaq".

Üzə çıxan bu fakt isə daha çox diqqət çəkir. Belə ki, Qaşıqçı öldürülməzdən bir neçə ay əvvəl Ər-Riyadın ABŞ-dakı səfiri, kral Salmanın oğlu, vəliəhd şahzadə Məhəmməd bin Salmanın qardaşı Xalid bin-Salmanla görüşüb. "Report" xəbər verir ki, məlumatı "NBC" telekanalı yayıb. Vaşinqtonda keçirilən görüş yarım saata yaxın sürüb. Səfirlə jurnalist arasında söhbətin məzmunu məlum olmasa da, "NBC" C.Qaşıqçının görüşdən "məmnun" qaldığını vurğulayıb.

**"Səudiyyə Ərəbistanı "Camal Qaşıqçının meyitini Türkiyəyə təhvil vermişik" deyir. Onlar meyiti kimə verdiklərini açıqlamalıdırlar". Bunu isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının parlamentdəki fraksiyasının genişləndirilmiş toplantısında bildirib. Onun sözlərinə görə, hadisələrin gedişatı Qaşıqçının qətlinin planlaşdırılmış şəkildə həyata keçirildiyini deməyə əsas verir.**

"Hadisə İstanbulda baş verdiyindən biz də araşdırma aparmağa məcburuq. Səudiyyə Ərəbistanının kralı ilə əlimizdəki məlumatları paylaşdım. Kralın təlimatı üzrə orada araşdırma apardıq. Baş Konsulluğun məsuliyyətsiz davrandığını krala söylədim. Onu tutduğu vəzifəsindən azad etdilər. Sui-qəsddən bir gün sonra Krallıq Camal Qaşıqçının Baş Konsulluqda öldürüldüyünü etiraf edib. Kral Salman hadisə ilə bağlı 18 nəfərin tutulduğunu bildirdi. Onların adları bizim şübhələndiklərimiz şəxslərlə eyni idi. Ölkəmizin etibarına yönələn bu sui-qəsdlər bizi yolumuzdan döndərə bilməz. Heç kim unutmasın ki, bunlar Türkiyənin sərhədləri daxilində baş verir. Vyana Konvensiyası da buna yol vermir. Biz bu cinayəti axıradək araşdıracağıq. Türkiyə bu məsələni təqib edəcək. İndiyədək ortaya çıxan dəlillər göstərir ki, Camal Qaşıqçı vəhşicəsinə öldürülüb. Cinayətin adi bir hadisədən qaynaqlanmadığı, planlı bir qətl olması haqqında əlimizdə dəlillər var. Cinayət günü 15 nəfər niyə İstanbulda toplanmışdı? Onlar kimdən əmr alaraq bura gəlmişdilər? Cinayət açıq-aşkar ortadaykən niyə onlarla əsassız dəlillər irəli sürülüb? Biz bu suallara cavab istəyirik. Bu məsul şəxs kimdir? O, sıradan biri deyil. Səudiyyə Ərəbistanı bu cinayətin məsuliyyətini daşıyanı açıqlamağa borcludur. Buradan çağırış edirəm. Hadisə İstanbulda baş verdiyindən tutulan 18 nəfər burada mühakimə edilməlidir", - o vurğulayıb.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında Səudiyyə kralının vəziyyətinin çətin olduğunu bildirərək, Qaşıqçı cinayətinin artıq gizlədilməsinin mümkünsüz olduğunu söylədi:** "Beynəlxalq aləm hesabat tələb edir. Bunun qarşılığında Səudiyyə Ərəbistanından belə bir açıqlama yayıldı ki, guya konsulluqda dava düşüb və jurnalist təsadüfən ölüb. Buna inanan azdır. Hamı anlayır ki, 15 nəfər Qaşıqçını öldürmək üçün İstanbula göndərilib. Əgər Ər-Riyadın iddia etdiyi kimi, jurnalist təsadüfən öldürülübsə, bəs onda onun meyitinin yeri niyə deyilmir? Fikrimcə, jurnalist məhz qətlə yetirilib və bu, əvvəlcədən hazırlanan plan olub. Sadəcə, Ər-Riyadda düşünmürdülər ki, jurnalistin ölümü bu böyüklükdə qalmaqala səbəb olacaq. Səudiyyə kralı hazırda vəziyyətdən çıxış yolu axtarır. Mən əvvəl də proqnozlaşdırırdım ki, kral məsuliyyəti başqalarının boynuna qoymağa çalışacaq. Elə də oldu, iki yüksək rütbəli məmur istefaya göndərildi, istisna etmirəm ki, İstanbulda cinayət törədən qrupun üzvləri həbs olunsunlar, biri artıq müəmmalı şəkildə avtomobil qəzasında ölüb. Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan olayı gizlətmədi, cinayətə işarə edən görüntülər və Səudiyyə Ərəbistanından İstanbula gələn qrup üzvlərinin şəkilləri yayımlandı. Ankara bütün bunları etməsəydi, Qaşıqçının cinayətin qurbanı olduğu bilinməyəcəkdi. Ankara bütün riskləri gözaltına alaraq cinayət şübhəlilərinin şəkillərini paylaşdı. Halbuki Ankara Səudiyyə Ərəbistanı ilə münasibətləri göz önünə alaraq məsələni gizlədə də bilərdi. Ancaq Ərdoğan bunu etmədi. Bu, mənəvi addım idi. Ərdoğanın bu addımı beynəlxalq aləmdə yüksək qiymətləndirildi. Ərdoğandan fərqli olaraq ABŞ prezidenti Donald Tramp bu sınaqdan üzüağ çıxmadı. Ağ Ev sahibi milyardlarla dollar gəliri insan həyatından üstün tutdu".

**Politoloq Türkiyə-Səudiyyə münasibətlərinin bundan sonra necə davam edəcəyinə də aydınlıq gətirdi:** "İki ölkə arasındakı münasibətlər onsuz da bu hadisəyə qədər soyuq idi. Çünki Türkiyə Qətər böhranında bu ölkəni dəstəkləmiş, bu da Səudiyyənin xoşuna gəlməmişdi. Qaşıqçı olayının üstünü açdığı üçün Səudiyyənin rəsmi Ankaraya münasibəti mənfiyə doğru bir qədər də dəyişə bilər. Təsadüfi deyil ki, gələn xəbərlərə görə, Səudiyyə Suriyadakı radikal kürdlərə yüz milyon dollara yaxın pul ayırıb. Təbii ki, bu xəbər təsdiqlənsə, bu da Türkiyə əleyhinə atılmış birbaşa addım olacaq. İstənilən halda qardaş ölkə ən doğru addımı atdı. Çünki Türkiyə bu cinayəti gizlədə bilməzdi".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Türkiyədə erməni fotoqraf Gülərə aşırı sevgi nədən qaynaqlanır?

## Aynur İmran: "Burada erməni sevgisindən yox, işini peşəkarcasına həyata keçirən şəxslərə qarşı xüsusi münasibətdən söhbət gedir"



**Xəbər verdiyimiz kimi, Türkiyənin tanınan fotoqrafı, erməni əsilli Ara Gülər 90 yaşında vəfat edib. Ara Gülər 20-ci əsrin ən tanınmış fotoqraflarından idi. "Mənim çəkdiyim fotoşəkillər olmasaydı, 50-60-cı illərin İstanbulu indi yaddan çıxmışdı", - Gülər bunu verdiyi bütün müsahibələrində deyib.**

Qeyd edək ki, Ara Gülər 1928-ci ildə İstanbulda etnik erməni ailəsində doğulub. O, jurnalist fəaliyyətinə 1950-ci ildə "Yeni İstanbul" qəzetində başlayıb. Erməni əsilli Ara çoxsaylı tanınmışların, o cümlədən Bertran Rassel, Uinston Çörçil, Arnold Toynbi, Pikasso və Salvador Dalinin də fotolarını çəkib.

Onun dəfnindən hazırlanan videoreportajlardan, ölümü ilə bağlı mediada yer alan saysız-hesabsız materiallardan isə belə məlum olurdu ki, A.Gülər Türkiyə insanı arasında yetərincə populyardır. Bundan başqa, ona qarşı bu sevgi nümayişi də hər bir azərbaycanlının içində istər-istəməz neqativ bir hiss yaradır: niyə ermənilər, bizim düşmənimiz olan millət qardaş Türkiyədə bunca sayğı görür? Bundan başqa, Türkiyədə, xüsusən də İstanbulda ermənilərin sayca çox olması faktını yaddan çıxarmaq olmaz. İstanbulda erməni sənət adamları, ermənilərin məhləsi... bu barədə dəfələrlə oxumuşuq. Zamanında Bakıda necə ki, qədim ermənilər olub, mərkəzi zəbt edərək, ən yaxşı evlərdə yaşayıblar, İstanbulda da eləcə. Amma bu fakt gördüyümüz mənzərə üçün yetərlidirmi?

**Türkiyədə yaşayan araşdırmaçı-jurnalist Aynur İmran "Yeni Müsavat"a açıqlamasında A.Gülərin nümunəsində gördüklərimizi xüsusi erməni sevgisi ilə əlaqələndirməyin düzgün olmadığını dedi. Onun sözlərinə görə, zamanında Bakıda da ermənilər öz sahələrində hər zaman sənətkar kimi tanırdılar:** "Ara Gülər dünyanın ən böyük 7 fotoqrafından biridir. Bütün dünyada tanınır. Özünə də dünya vətəndaşı deyirdi. Uzun illər siyasətçiləri çəkib. Burada Qapalı Çarşıda gedirsən, ən yaxşı sənətkarlar, əl işlərinin müəllifləri ermənilərdir. Burada erməni sevgisindən yox, işini peşəkarcasına həyata keçirən şəxslərə qarşı xüsusi münasibətdən söhbət gedir".

**A.İmran hesab edir ki, ermənilərin Türkiyədə nüfuz qazanmasının bir başqa səbəbi də onların bir-birini daim dəstəkləməsidir. Jurnalistin sözlərinə görə, ermənilər dünyanın harasında olursa-olsun, öz sənətkarlarını, tanınmış insanlarını qabağa çəkir, gözə soxurlar:** "Bizimkilər isə tam əksinədir. Bir-birini vurur, ayağından çəkməyə çalışırlar. Ona görə də neçə illərdir ki, İstanbulda, Türkiyədə yaşayan soydaşlarımızın adı ilə bağlı bir küçə belə yoxdur. Böyük sərgi, konfranslar, tədbirlər olur. Amma Heydər Əliyev mövzusunda. Heydər Əliyevi də dövlət dəstəkləyir deyə bu böyük tədbirlər dövlətlərarası münasibətdən qaynaqlanır. Zaman-zaman bizim başqa tanınmış şəxslərlə bağlı da tədbirlər keçirilir, kiçik-kiçik dərnəklər bunu təşkil edir. Amma biz o tədbirlərin heç birində Ara Gülərin sağlığında başına, öləndən sonra yasına yığılan qələbəliyi görmürük".

**Jurnalistin fikrincə, hökumət bu məsələdə Türkiyədə yaşayan azərbaycanlılara dəstək verməlidir. O hesab edir ki, burada kiməsə tədbir keçirəndə, ya da işə götürüləndə Azərbaycan hökuməti ilə razılaşma aparılır. Bir çox hallarda bu təkliflərə "hə" cavabının verilmədiyini xatırladan A.İmran insanlarımızın bu səbəbdən həvəsdən düşdüyünü düşünür:** "Bu kimi məsələlərdə dövlətin ciddi dəstəyinə ehtiyac var. Əks halda, qardaş ölkə də olsa, Türkiyədə tanınan azərbaycanlıların böyük nüfuz qazanmasına şahid ola bilməyəcəyik".

❑ **SEVİNC,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018

**Səudiyyə Ərəbistanının İstanbuldakı baş konsulluğunda "Washington Post" qəzetinin müxbiri Camal Qaşıqçının başına gətirilənlər dünya mətbuatının gündəmindən düşmür. Xüsusilə də ən çox dartışılan və insanları heyrətə gətirən məsələ jurnalistin bədəninin doğranmasıdır. Bəzi mənbələrdə Qaşıqçının diri-diri doğranması, digərlərində isə boğularaq öldürüldükdən sonra bədəninin hissələrə ayrılması qeyd olunub. Məlumatlara görə, bunun üçün xüsusi mütəxəssis də çağırılıb və o, Qaşıqçını doğrayan zaman qulaqcıq vasitəsilə musiqi dinləyib. Yaxınlıqda bu prosesdən narahat olanlara da tövsiyə edib ki, qulaqcıq taxıb, musiqi dinləsinlər.**

# "Meyiti bir neçə dəqiqəyə hissələrə ayırmaq olar"

## Sərdar Cəlaloğlu Qaşıqçının doğranma texnologiyasını açıqladı



Məsələ ilə bağlı musavat.com-a danışan ADP sədri Sərdar Cəlaloğlu bəzi detallara toxunub. Əvvəlcə məlumat üçün onu qeyd edək ki, **Sərdar Cəlaloğlu** Azərbaycan Tibb Universitetində ali tibb təhsili alıb. İxtisasca məhkəmə-tibb ekspertidir. Yəni o, insan meyitinin yarılması prosesində iştirak edib. S. Cəlaloğlu bildirdi ki, insan bədənini hissələrə ayırmaq üçün bəzi tibbi məsələləri bilmək lazımdır:

"Yayılan məlumatlarda qeyd olunub ki, meyiti doğramaq üçün özləri ilə ekspert gətiriblər. Həmin ekspert də ona görə gətirilib ki, meyitin parçalanması üçün ən azından tibbi bilik lazımdır. Ekspertin ətrafdakılara qulaqcıqdan istifadə etməyi tapşırması da bununla bağlıdır ki, proses çox ağır psixoloji hadisədir. İnsanı parçalamaq asan məsələ deyil. Adi bir heyvanı da doğrayan zaman insan narahat olur. Ona görə də proses ətrafdakılara mənfi təsir etməsin deyə, ola bilər ki, ekspert bu cür fikir səsləndirib. Ancaq bütövlükdə təbabətdə belə bir şey yoxdur ki, meyiti yaran zaman hökmən qulağına nə isə taxmalısan. Diri-diri doğrayıblar, yoxsa ki, yox, bunu söyləmək çətindir. İşgəncə vermək məqsədilə Babəki də xəlifənin gözünün qarşısında parçalamışdılar. Əgər cəza veriblərsə, təbii ki, onu diri-diri də parçalaya bilərlər. Həmçinin daşımaq üçün də boğub, hissələrə ayırmaları mümkündür. Meyitin hissələrə ayrılmasında məqsəd onu daha asan gizlətməkdir. Məsələn, başını bir yerə atırlar, qollarını digər yerə və sairə. Eyni zamanda səfirlikdən çıxaranda da bölünübsə, kənardan baxanda bunun insan cəsədi olması təsəvvürü yaranmır. Meyitin hissələrə ayrılması anatomik bilgi əsasında aparılır. Həkimlərin hamısı bilir ki, qol bazudan, dirsəkdən və biləkdən ayrıla bilər. Aşağı ətrafları isə dizdən, topuq və buddan ayırmaq mümkündür. Baş isə onurğa sütununun birinci fəqərəsindən çox asanlıqla ayrılır. Bütövlükdə bədəni isə bölmək olmur. Çünki daxili orqanlar kənara çıxır. Ona görə də çox güman ki, Qaşıqçının da başını, ayaq və qollarını ayırıblar. Bədənini isə ayrıca hissə kimi götürüb, haradasa gizlədiblər. Yəni onun bədənini ayırmırlar. Çünki daxili orqanlar tökülən zaman yığışdırmaq da çətindir".

**S. Cəlaloğlu bildirib ki, bunun üçün hər hansı bir xüsusi laboratoriya şəraitinə ehtiyac yoxdur:**

"Meyiti yarmaq üçün adi stol da kifayət edir. Eyni zamanda döşəmənin üzərində də insan meyitini bir neçə dəqiqə ərzində hissələrə ayırmaq olar. Oynaqlardan ayırmaq çox ağır proses deyil. Görürük ki, qəssab da 15-20 dəqiqə müddətində böyük bir heyvanı hissələrə ayırır. Faktiki olaraq qəssabların əti hissələrə ayırması ilə meyitin parçalanması arasında heç bir fərq yoxdur. Burada artıq həkimlikdən deyil, qəssablıqdan söhbət gedir. Həkim olan adam bu cür cinayətdə iştirak etməz".

**S. Cəlaloğlu hesab edir ki, bütün proses öncədən düşünülmüş planın bir parçasıdır:** "Burada çox mürəkkəb oyun oynanılıb. Qaşıqçının konsulluğa gələcəyi öncədən bəlli olub və Səudiyyə Ərəbistanından da Türkiyəyə xüsusi briqada gəlib. Meyitin bu cür öldürülüb basdırılması, Səudiyyə Ərəbistanının onun konsulluqda öldürülməməsi ilə bağlı bəyanatı bir şeyi ağıla gətirir ki, cinayəti öncə Türkiyənin üzərinə qoymaq istəyiblər. Bilirik ki, şahzadə Salmanın Türkiyəyə olan münasibəti olduqca pisdir. Türkiyə sübut edəndə ki, bunu Səudiyyə Ərəbistanı edib, o zaman artıq Amerikanın da Türkiyə üzərinə gəlməyə bəhanəsi qalmadı. Artıq Amerikanın əlində çox ciddi əsas var ki, Səudiyyə Ərəbistanını istənilən şərtə məcbur etsin. Bundan öncə onlar heç bir şərtə əməl etmirdilər. Trampın verdiyi bəyanatdan da bu, aydın şəkildə görünür. Deyir ki, Səudiyyəyə yatırımlar edəcəyik, ancaq silah ticarətində heç bir məhdudiyyət olmayacaq. Şahzadə Salmanın bu proseslərdən kənarda qalması üçün milyardlarla dollar xərci də çıxacaq. Səudiyyə Ərəbistanı lazımi ödənci ödədikdən sonra Qaşıqçının qanı batacaq. Ona görə də Avropa ölkələri bu hadisə ilə bağlı narahatdır və sona qədər gedilməli olduğunu bildirirlər. Bu məsələdən Amerikanın da müəyyən dairələri əvvəlcədən məlumatlı olublar. Düşünürəm ki, hadisə baş tutarsa, Türkiyə, tutmasa, Səudiyyə Ərəbistanı Amerikanın şərtlərini yerinə yetirsin".

**❑ Əli RAİS,**
**Musavat.com**

# Azərbaycanın ilk böyük eşşək fermasından reportaj

## Eşşək südünün baha olmasının səbəbi nədir?





**Ölkədə 5 minə yaxın eşşəyin yoxa çıxması xəbərinin şoku tam yaşanmamış, daha bir məlumat ortaya çıxdı - Bakıda ilk eşşək südü istehsal edən böyük ferma yaradılıb.**

"Yeni Müsavat"ın əməkdaşları Abşeron rayonu, Məhəmmədi qəsəbəsində yerləşən fermada olublar.

Fermanın nümayəndəsi Ülvi Hidayətzadənin sözlərinə görə, böyük marağa səbəb olan bu ferma təxminən 2-3 ildir ki, yaradılmağa başlayıb: "Fermamız hələ ki tam formalaşmayıb. Hazırda 100 başa yaxın heyvan bəsləyirik. Müşahidə etdiyiniz kimi, hər bir heyvan xüsusi bəslənmə şəraitində saxlanılır, peyvənd olunub, baytarlıq nəzarətindən keçib. Xüsusi əməkdaşlarımız var ki, hər gün onların yemlənməsinə, bəslənməsinə nəzarət edir. Heyvandan keyfiyyətli süd almaq üçün onun sağlam olması, yaxşı bəslənməsi və ən əsası, təmiz saxlanılması vacibdir".

**Ü.Hidayətzadənin sözlərinə görə, mal-qaradan fərqli olaraq eşşəklərin bəslənməsi daha çətindir:** "Hər gün heyvanlar həkim nəzarətindən keçməli, onların dırnaqları kəsilməli, yeməkləri vaxtlı-vaxtında, qaydasında olmalı, yaxşı otla yemlənməlidir".

**Ferma nümayəndəsi qeyd etdi ki, gələcəkdə aidiyyəti qurumlardan, o cümlədən Qida Təhlükəsizliyi Agentliyindən icazə cavabı aldıqdan sonra kütləvi şəkildə xüsusi şüşələrdə qablaşdırılmış eşşək südü satılacaq. 200 qram südün qiyməti 16 manat, 500 qram südün qiyməti isə 40 manat olacağı nəzərdə tutulur:** "Bəzən deyirlər ki, eşşək südü niyə bu cür bahadır? Məlumat üçün bildirim ki, eşşəkdən alınan südün çəkisi qoyun və inəkdən alınan süddən 4-5 dəfə az olur. Belə ki, gün ərzində bir heyvandan təxminən 100-150 qram süd ala bilirik. Üstəlik, hər bir uzunqulağın bəslənib, yemlənməsinin böyük xərc tələb etdiyini nəzərə alsaq, ondan alınan südün niyə baha olduğunu anlamaq olar".

**Ü. Hidayətzadə onu da vurğuladı ki, heyvanlardan alınan süd xüsusi pasterizə olunmuş halda satılacaq:** "Fermamızda müasir pasterizə aparatları quraşdırılıb. Südlər pasterizə olunduqdan sonra +4 dərəcə temperaturda satışa buraxılacaq. Bildiyiniz kimi, artıq bir müddətdir ki, Türkiyədə də kiçik eşşək fermaları yaradılıb. Həmin fermalarda süd adi su qablarına doldurulur, daha sonra isə buzun içərisində dondurulur. Əslində isə süd nə dondurulmalı, nə də qaynadılmalıdır. Çünki bu zaman içərisindəki minerallar məhv olur. Onun üçün də biz onu pasterizə edirik. Eşşək südü əsasən insanda immunitetin artırılmasında mühüm əhəmiyyətə malikdir. İsveçrədə bu süddən hazırlanan şokoladlar satılır. Digər ölkələrdə isə kosmetik vasitələrdə geniş istifadə olunur".

**Söhbət zamanı əməkdaşımıza bildirildi ki, bu ferma təkcə Azərbaycanda deyil, Qafqazda ilk böyük eşşək fermasıdır:**

"Gürcüstanda bu tip kiçik fermalar var. Lakin həmin fermalarda cəmi 10-15 heyvan bəslənilir. Bizim ferma isə daha geniş olacaq, gələcəkdə də fermamıza çoxlu sayda sağlam heyvanların cəlb edilməsinə çalışacağıq".

**Ferma nümayəndəsi son vaxtlar eşşək ətinin mal-qara əti adı ilə satışa çıxarılmasına da münasibət bildirdi:** "Hazırda fermamızda bütün heyvanlar gənc uzunqulaqlardır. Gələcəkdə onların da arasında qocalanlar olduqda aidiyyəti qurumlara müraciət edib, onlara təhvil verəcəyik. Yəni fermada qocalmış heyvanların hansısa yolla satışa çıxarılması mümkün deyil".

Qeyd edək ki, yerli mütəxəssislər də eşşək südünün faydalarının misilsiz olduğunu qeyd edir. Məlumata görə, eşşəkdən alınan süd dünyanın bəlasına çevrilən xərçəng xəstəliyinin, o cümlədən sədəf, serroz, ürək və damar, astma, bronxit xəstəliklərinin müalicəsində böyük əhəmiyyətə malikdir. O da məlumdur ki, dünyanın bir çox ölkələrində eşşək südü və pendiri istehsal edilir. Onların arasında ABŞ, Braziliya, Fransa, İtaliya, İngiltərə, İspaniya, Çin və digər ölkələrin adlarını qeyd etmək olar. Eləcə də qardaş Türkiyədə artıq bir müddətdir ki, eşşək ferması yaradılıb.

**❑ Xalidə GƏRAY,**
**Məğrur MƏRD,**
**"Yeni Müsavat"**



# "Nə əməliyyat olunmuşam, nə də xəstəxanaya düşmüşəm"

## Əhəd Abıyev: "Hazırda Daşkəsəndəyəm, iş başındayam"

**Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin xəstəxanaya yerləşdirildiyi, əməliyyat olunduğu haqda məlumat yayılıb.**

Məlumatda bildirilir ki, başçı ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib, cərrahiyyə əməliyyatı edilib. Ə.Abıyevin adından açıqlama da yayılıb.

Məsələ ilə bağlı unikal.org-a açıqlama verən Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev əməliyyat olunduğunu təsdiqləyib: "Böyrəyimə duz yığıldığı üçün şiş əmələ gəlmişdi. Həmçinin böyrəyimdə kriatinin miqdarı artmışdı. Mərkəzi Gömrük Hospitalında əməliyyat olundum. Əməliyyatı lazerlə elədilər. İndi özümü yaxşı hiss edirəm. Şükür Allaha, hər şey qaydasındadır".

Musavat.com Əhəd Abıyevlə telefon vasitəsilə əlaqə saxlayıb, yayılan məlumata aydınlıq gətirib. O bildirib ki, barəsində dərc olunmuş xəbər tamamilə yalandır: "Hazırda Daşkəsəndəyəm, iş başındayam, bir az öncə tədbir keçirmişik. İndi də sizinlə kabinetdən danışıram. Nə əməliyyat olunmuşam, nə də xəstəxanaya yerləşdirilmişəm. Görünür, bu, kimlərinsə oyunudur". İcra başçısı haqqında yayılan məlumatları təxribat adlandırıb: "Bayaq bir nazir müavini zəng edib, mənimlə maraqlandı. Narahat olduğunu dedi. Ona da bildirdim ki, yayılan xəbər yalandır".

**Ə.Abıyev bildirib ki, onun adından yayılmış açıqlama da saxtadır:** "Mən heç bir sayta açıqlama verib, deməmişəm ki, böyrəyimdən əməliyyat olunmuşam. Gümraham, səhhətimdə problem yoxdur, özümü normal hiss edirəm. Mənə görə narahat olan dostlara bildirirəm ki, narahatlığa əsas yoxdur. Hər şey qaydasındadır".

**❑ Musavat.com**

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018

**Hüquqşünas Aslan İsmayılovun oktyabrın 22-də öz facebook səhifəsində paylaşdığı videomüraciət ciddi etiraz doğurub. Hüquqşünas yüksək rütbəli dövlət məmurlarının ünvanına təhqiramiz ifadələr işlədib. Bu azmış kimi, A.İsmayılov xalqımızın da ünvanına xoşagəlməyən ifadələrə yol verib.**

# Aslan İsmayılov xalqı təhqir etdi-iş adamı sərt reaksiya verdi

## Mürvət Həsənli: "Çıxışında o, öz iyrənc sifətini ortaya qoydu"

A.İsmayılov videomüraciəti etməsinə səbəb kimi, məhkəməyə aparılması üçün yaşadığı ünvana gələn polisləri göstərib.

Hüquqşünasın indiyə qədər Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev, tanınmış iş adamı Mürvət Həsənli ilə arasında olan məhkəmə prosesini uduzduğu və Binəqədi məhkəməsində belə bir halı yaşaya biləcəyini duyduğu üçün facebook səhifəsində canlı yayım edib. Çünki indiyə qədər bir neçə dəfə o, məhkəmədə iştirakdan yayınıb. Bu səbəbdən onun yaşadığı ünvana polislər göndərilib.

A.İsmayılov səhifəsinin 300 minə yaxın izləyicisi olmasına baxmayaraq, məhkəmə proseslərinə 50-60 nəfər gəldiyi üçün xalqa yönəlik "siz ölümə məhkumsunuz" ifadələri işlədib. O, xalqı mübarizə aparmaqdan qorxmaqda günahlandırıb. Vaxtilə vəkil kimi fəaliyyət göstərən A.İsmayılov insanların hüquqlarını müdafiə etməsi adı altında onlara minnət də qoyub və bundan sonra belə etməyəcəyini söyləyib.

Etika xatirinə A.İsmayılovun dövlət məmurları, xalqla bağlı işlətdiyi bəzi ifadələri təqdim etməyi lüzum bilmirik.



**M.Həsənli "Yeni Müsavat"a açıqlamasında şəxsinə yönəlik ittihamlar səsləndirən hüquqşünasa sərt cavab verdi:** "Çıxışında o, öz iyrənc sifətini ortaya qoydu. Azərbaycan məhkəmələrinin çıxardığı qərarlarla razılaşmayan və yaşadığı ünvana polislərin getdiyindən qəzəblənən hüquqşünas qanunları və etik normaları ayaq altına ataraq, dövlət orqanlarında fəaliyyət göstərən bütün məmurları hədəfə çevirdi. Sanki hüququn aliliyini tanımayan bu adam məhkəmədə uduzmağının qisasını bütünlüklə Azərbaycan dövlətindən alırdı. Hakimiyyətin, demək olar ki, bütün qollarına qarşı eyni anda hücuma keçən Aslan İsmayılov bununla kifayətlənmir, onun avantürist mövqeyini dəstəkləməyən xalqımızı da qamçılayırdı. Açıq şəkildə "Mən artıq bu xalqdan heç nə gözləmirəm, başına gələn müsibətlərə layiqdir" deyən və utanmadan özünü "ziyalı" adlandıran bu adam həmin mövqeyi ilə şəxsi mənfəətini bütün ali dəyərlərdən üstün tutduğunu nümayiş etdirirdi".

**Avantürist siyasətinə dəstək verməyən şəhid ailələrini, döyüşlərdə yaralanan, bədən üzvlərini itirən qəhrəman oğullarımızı, canıyla əlləşən xərçəng xəstələrini belə qınaq obyektinə çevirən hüquqşünasın xudpəsəndliyinə heyrətləndiyini deyən iş adamının fikrincə, bu ikrah doğuran mövqe Aslan İsmayılovun ilk belə addımı deyil:** "Yadınızdadırsa, bir müddət əvvəl Qarabağla bağlı mitinq ərəfəsində eyni mövqedən çıxış edən Aslan İsmayılov bundan sonra qaçqınlara da hüquqi yardım göstərməyəcəyini bildirmişdi. Onun bu fikirlərini dinlədikcə yadıma eşitdiyim bir əhvalat düşürdü. Rəvayətə görə, bir gün əldən-ayaqdan düşmüş qoca bir kişi ayaqyoluna gedir. İşini bitirdikdən sonra aftafasında suyun olmadığını görən ağsaqqal həyat yoldaşını çağırır. Həyat yoldaşı cavab verməyincə bağıra-bağıra qalır. Hər çağırışından sonra arvadının sülaləsini ən ağır küçə söyüşləri ilə söyür. Saatlarla tualetdə bağıran kişinin səsini eşidən qonşular vəziyyət barədə qulağı yaxşı eşitməyən qarı nənəyə məlumat verirlər. Qarı nənə ayaqyoluna yaxınlaşarkən kişi yenə öz söyüşlərinə davam edirmiş. Axırda bu qədər söyüşə tab gətirməyən qarı ağsaqqaldan soruşur:

- Ay Mamed kişi, axı nəylə?

İndi qarı nənənin sözü olmasın, ay Aslan İsmayılov, sən qaçqına, veterana, xəstəyə hüquqi xidmət göstərməyəcəyini deyirsən. Axı sən necə hüquqi xidmət göstərə bilərsən ki, heç vəkil də, nümayəndə də deyilsən?"

**Aslan İsmayılovun öz müvəkkillərinə və xalqa qoyduğu bu minnətin nə hüquqda, nə mənəviyyatda yeri olmadığını deyən iş adamı fikirlərini belə əsaslandırdı:** "Əvvəla, Aslan İsmayılovu yaxından tanıyanlar bilir ki, o, haqqını almadan heç atasına da hüquqi yardım göstərməz. Əgər göstərdiyin xidmətin müqabilini alıbsansa, hansı üzlə insanları özünə borclu sayırsan? İnsanları siyasi və mənəvi basqı altına saxlamaq, "öz mövqeyindən asılı olmayaraq, mütləq, mənə dəstək verməlisən" demək, səni müdafiə etməyənlərin ünvanına təhqirlər yağdırmaq ədalətli və qanunidir? Özgə vaxt kimlərisə qeyri-demokratiklikdə ittiham edənlərin indi "ya mənimlə, ya mənə qarşı ol" məntiqi ilə məsələlərə yanaşması əsl diktatorluq əxlaqı deyilmi?

İkincisi, hüquqi yardıma möhtac birisinə əlindən gələni əsirgəməmək hər bir vəkilin peşə borcudur. Təsadüfi deyil ki, öz hüququnu müdafiə etməyə maddi imkanı çatmayan müttəhimlər dövlət tərəfindən vəkillə təmin olunurlar. Heç bir vəkil də bu borcundan imtina etməyə haqqı çatmır. Aslan İsmayılovun sözlərindən isə belə çıxır ki, peşə borcunu yerinə yetirərkən müvəkkillərini özünün qoyun sürüsü hesab edir. O, çomağını hansı tərəfə tutursa, qoyunları da o tərəfə getməlidir. Müvəkkilinə, xalqına, dövlətinə bu qədər xor baxan birini ağlı başında olan kimsə dəstəkləyərmi?"

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Rüfət Aslanlı həbs oluna bilər - ilginc korrupsiya faktları

## Hüquqşünas: "Beş ayda "StandardBank"ın sağlamlaşdırılması adı ilə 265 milyon manat yoxa çıxıb"

| Müştərinin adı | İnd. | Hesab | Faiz | Kart hesabının dövriyyəsi (USD) | Kart hesabının dövriyyəsi (AZN) | Verilmə tarixi |
|---|---|---|---|---|---|---|
| Aslanlı Rüfət Cəbrayıl | Kartlar | 210802311000165**USD**00 | 18% | 219 365,00 | 385 533,99 | 14.06.2016 |
| Aslanlı Rüfət Cəbrayıl | Kartlar | 210802311000186**USD**00 | 18% | 173 735,00 | 305 339,26 | 14.06.2016 |
| Aslanlı Rüfət Cəbrayıl | Kartlar | 210700000000465**AZM**00 | 18% | 3 200,00 | 3 200,00 | 23.08.2016 |
| Aslanlı Rüfət Cəbrayıl | Kartlar | 210700000000464**AZM**00 | 18% | 3 200,00 | 3 200,00 | 23.08.2016 |
| Aslanlı Leyla Mirzə | Kartlar | 21080000001053**USD**00 | 18% | 50 000,00 | 87 875,00 | 12.07.2016 |
| Aslanlı Leyla Mirzə | Kartlar | 21080000001054**USD**00 | 18% | 50 000,00 | 87 875,00 | 12.07.2016 |
| **Cəmi** | | | | **499 500,00** | **873 023,25** | |

| Əməliyyatın Tarixi | İstifadə olunmuş məbləğ | Valyutası | Əməliyyatın növü | İstifadə olunduğu ölkə | İstifadə olunma təyinatı |
|---|---|---|---|---|---|
| 15.06.2016 | -7 270,51 | USD | Retail | Turkey,Istanbul | Sunset grill-bar,Eating place |
| 16.06.2016 | -28 609,98 | USD | Retail | Turkey,Istanbul | Four Seasons Bosphorus |
| 23.06.2016 | -13 444,88 | USD | Retail | USA | Jomashop |
| 20.07.2016 | -14 469,88 | USD | Retail | USA | Jomashop |
| 02.09.2016 | -31 435,15 | USD | Retail | UK,London | Harrods LTD |
| 02.09.2016 | -40 561,00 | USD | Retail | UK,London | Harrods LTD |
| 04.09.2016 | -2 857,10 | USD | Retail | United Kingdom,Hounslow | Chanel LTD,Mens And … |

**Maliyyə Bazarlarına Nəzarət Palatasının sabiq rəhbəri Rüfət Aslanlı barədə hər gün yeni məlumatlar aşkarlanmaqdadır. Onun harın həyat tərzi, bahalı avtomobilləri, müxtəlif saatları və sair barədə ölkə mətbuatında çoxsaylı materiallar dərc olunur.**

Həmin materiallardan aydın olur ki, sabiq Palata rəhbəri çox dəbdəbəli həyat tərzi keçirib, bahalı aksesuarlara, əyləncə və gəzintilərə külli miqdarda pullar xərcləyib. Məsələn, haqqın.az saytının yaydığı son məlumatdan R.Aslanlının Londonda bir hoteldə qalmağa minlərlə funtsterlinq xərclədiyi ortaya çıxır. Belə ki, 2016-cı ilin avqust-oktyabr aylarında Palata rəhbəri olaraq o, Londonun "Windzor Suite" hotelində qalmağa bir dəfə 3600, ikinci dəfə isə 4300 funtsterlinq pul xərcləyib. Ödənişləri isə özünün "Lloyds Bank PLC"dəki hesabından icra edib. Bundan əlavə, R.Aslanlı Beynəlxalq Bankın sabiq direktoru Cahangir Hacıyevin xanımı Zamirə Hacıyevanın bazarlıq etdiyi "Harrods" adlı ticarət mərkəzindən böyük məbləğdə alver edib. Belə ki, 2016-cı ilin 2 sentyabr tarixində onun kart hesabından həmin ticarət mərkəzi üçün 31 min 435,15 dollar çıxılıb. Elə həmin gün həmin ticarət mərkəzində R.Aslanlı daha 40 min 561 dollar xərcləyib.

| | | | | | |
|---|---|---|---|---|---|
| 31.10.2016 | -2 104,45 | USD | Retail | United Kingdom,London | LA Chapelle,Drinking Place |
| 14.11.2016 | -7 658,85 | USD | Retail | Turkey,Istanbul | Brioni |
| 14.11.2016 | -2 521,70 | USD | Retail | Turkey,Istanbul | Ulus clup 29,Eating place |
| 15.11.2016 | -2 783,05 | USD | Retail | Turkey,Istanbul | Beymen-Cucinelli,Family cloth |
| 15.11.2016 | -3 783,33 | USD | Retail | Turkey,Istanbul | Ayaydin magazacilik,Family cloth |
| 15.11.2016 | -7 813,36 | USD | Retail | Turkey,Istanbul | Sunset grill-bar,Eating place |
| 25.11.2016 | -17 956,88 | USD | Retail | Switzerland,Verbier | Verbier Rentals,Hotels Motels |
| 29.11.2016 | -3 671,25 | USD | Retail | Azerbaijan,Baku | Pasha pos H2H,Emporium |
| 06.12.2016 | -2 933,08 | USD | Retail | Germany,Pullach | Sixt Car Rental |
| 07.12.2016 | -1 267,27 | USD | Retail | France,Strasbourg | Esprit Terroir,7399 Business |
| 08.12.2016 | -1 922,07 | USD | Retail | France,Baerenthal | L'arnsbourg,Eating place |
| 09.12.2016 | -2 601,15 | USD | Retail | France,Illhaeusern | Auberge De L'LL,Eating place |
| 31.12.2016 | -1 558,95 | USD | Retail | Switzerland,Verbier | Remontees Meecanquee,Transportat |
| 01.01.2017 | -1 547,42 | USD | Retail | Switzerland,Martigny | Powder Extreme Sart,Recreation |
| 05.01.2017 | -104 545,44 | USD | Retail | Switzerland,Verbier | Michaud Verbier SA,Jewelerry Store |
| 12.03.2017 | -7 127,00 | USD | Retail | Azerbaijan,Baku | Emporiom Baku |
| 19.03.2017 | -6 623,00 | USD | Retail | Germany,Pullach | Cosmetic store |
| 20.03.2017 | -22 653,00 | USD | Retail | Germany, Munhen | Munhen jewelry |

**"Sənədlərdə göstərilir ki, guya bu məbləğin 75 milyon manatı "StandardBank"ın əmanətçilərinə ödənilib, amma bu şəxslər bildirirlər ki, bizə heç nə verilməyib"**

Habelə, 2017-ci ilin yanvarında o, İsveçrədəki "Michaud Verbier SA" cəvahirat mağazasından bir gündə 104 min 545,44 dollarlıq alış-veriş edib.

Göründüyü kimi, R.Aslanlının xərcləmələri onun statusu, aylıq vəzifə maaşı ilə müqayisədə yüz dəfələrlə yüksək məbləği əhatə edir. Bu məlumatların açıqlanması R.Aslanlının həbsinə səbəb ola bilərmi? Onun barəsində xərcləmələri və əmlakı ilə bağlı iş qaldırıla bilərmi?

Rüfət Aslanlı banklardakı qeyri-sağlam durumu normalaşdırmağa məsul edildiyi halda, onun özünün maliyyə sektorunda korrupsiyaya qurşanması məsuliyyətini ikiqat artırır.

**Suallara cavab verən hüquqşünas-ekspert Əkrəm Həsənov deyir ki, Azərbaycanda var-dövlətin mənşəyini sübut edə bilməmək cinayət sayılmır:** "Yəni cinayət deyil, ümumiyyətlə, buna görə məsuliyyət nəzərdə tutulmur. Məsələn, Böyük Britaniyada 50 min funtsterlinqdən artıq olan əmlak barədə mənbəyinin göstərilməsi tələb olunur. Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevin xanımı Zamirə Hacıyevaya qarşı bu qanun əsasında iş qaldırılıb. Mənbəyini sübut edə bilməsə, əmlakı əlindən alınacaq. Bizdə isə bununla bağlı heç bir norma yoxdur. Heç Azərbaycanda dövlət məmurlarının gəlir bəyannaməsi təqdim etməsi qaydası da yoxdur. Daha doğrusu, bununla bağlı müəyyən işlər görülsə də, uzun illərdir proses yubadılır. Əksər ölkələrdə dövlət məmurları illik gəlir-xərclərini barədə bəyannamə təqdim edirlər. Oradan bilinir ki, kim nə qədər gəlir əldə edib. Azərbaycanda isə bu olmadığı üçün kimin gəlirinin nə qədər olduğu, nə qədər xərcləməyə imkan verdiyi bilinmir".

**Hüquqşünas bildirir ki, Azərbaycanda insanlar, o cümlədən keçmiş vəzifəlilər konkret əməllərə görə cəzalandırılır:** "Məsələn, korrupsiyaya görə cəzalandırma olur, yaxud mənimsəmə, rüşvət alma faktlarına görə olur. Rüfət Aslanlıya gəlincə, Palataya rəhbərlik etdiyi dövrdə baş verən bir sıra faktlara görə onun barəsində cinayət işinin qaldırılması mümkündür. Məsələn, "Bank Standard"ın sağlamlaşdırılması adı ilə xeyli miqdarda vəsaitin hara getdiyi məlum deyil. Belə ki, Mərkəzi Bankdan bu bankın sağlamlaşdırılması üçün 115 milyon manat götürülüb. Sənədlərdə göstərilir ki, guya bu məbləğin 75 milyon manatı "StandardBank"ın əmanətçilərinə ödənilib. Mən bu gün "StandardBank"ın Kreditorlar Komitəsinin sədriyəm. O bankda pulu qalan 44 min fiziki və hüquqi şəxsi təmsil edirəm. Bu şəxslər bildirirlər ki, bizə heç nə verilməyib. Bəs onda bu pul kimə verilib? 2016-cı ilin mayından sentyabrınadək "StandardBank"ın sağlamlaşdırılması prosesi gedib. Bu prosesə Maliyyə Bazarlarına Nəzarət Palatası, Palataya isə Rüfət Aslanlı rəhbərlik edib".

**Ə.Həsənov bildirir ki, əslində R.Aslanlının rəhbərlik etdiyi Palata "StandardBank"ın sağlamlaşdırılmasını da qanunsuzluqlarla icra edib:** "Sağlamlaşdırma üçün plan hazırlanmalı və Nazirlər Kabineti tərəfindən təsdiqlənməli və qərar verilməli idi. Palata belə bir qərar olmadan sağlamlaşdırmaya başlayıb. Bundan əlavə, sağlamlaşdırma prosesi müddətində heç bir əmanətçiyə banka qoyduğu əmanəti götürməyə icazə verilmirdi - Rüfət Aslanlının əmri ilə. Bu halda Mərkəzi Bankdan alınan pullar hansı əmanətçilərə verilib? Habelə, sağlamlaşdırma getdiyi 5 ay ərzində "StandardBank"da hər ay 30 milyon manat "itib". Bu, Ali Məhkəmənin təsdiq etdiyi ləğv planında əksini tapan faktdır. Bu pullar hara gedib? Dəfələrlə bu sualları vermişəm, cavab verən yoxdur. Düşünürəm ki, bu faktlar üzrə cinayət işi qaldırılıb, günahkarlar cəzalandırılarsa, onların arasında Rüfət Aslanlı da ola bilər".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018



# Hamıya qazılan quyu

Zamin HACI
zaminhaci@gmail.com

**"İndi mən ölüyəm, bir quyunun dibində cəsədəm. Son nəfəsim çoxdan çıxıb, qəlbim çoxdan dayanıb, amma alçaq qatilimdən başqa kimsə başıma gələnləri bilmir". Bunlar türk yazıçı Orxan Pamukun 1998-ci ildə çapdan çıxan "Mənim adım Qırmızı" romanının ilk cümləlləridir. Dünən mən bu romanı xatırladım, çünki səudiyyəli jurnalist Camal Qaşıqçının cəsədinin İstanbulda Səudiyyə konsulunun evinin həyətindəki quyudan tapıldığı xəbəri dolaşırdı. Pamuk romanında orta əsrlər İstanbulunu təsvir eləmişdi, ancaq belə görünür, Şərq bölgəsində orta əsrlər hələ uzun sürəcəkdir.**

2001-ci ilin sentyabrında ABŞ "Əl Qaidə"nin hücumuna məruz qalanda prezident Buş Əfqanıstanı vurmaq qərarı almışdı. Sonralar İraq da qəzəbə tuş gəldi. İran onsuz çoxdan nişangahda idi. Yalnız Səudiyyənin adı heç bir yerdə çəkilmədi. O üzdən, amerikalı rejissor Maykl Mur "Farengeyt 11/9" filmini (2004-cü ildə Kann-da "Qızıl palma budağı" alan bu film ən böyük gəlir gətirmiş sənədli film sayılır - cəmi 6 milyon dollarlıq büdcə ilə 220 milyon dollar qazanıb) çəkəndə ortaya bu sualı da qoymuşdu: "Əgər Amerikaya 11 sentyabr terrorunu edən 18 nəfərin 14-ü Səudiyyə doğumlu, Səudiyyə vətəndaşı və ya hər hansı səbəbdən Səudiyyə ilə bağlıdırsa, hədəfimizdə niyə başqalarıdır?" Mur bu suala filmdə belə cavab verirdi ki, ABŞ-ın hakim dairələrini Səudiyyə kral ailəsi ilə böyük neft, silah alverləri, qarşılıqlı maraqlar bağlayır. Ancaq təbii ki, ABŞ hökuməti bu ittihamları qulaq ardına verdi, Muru isə dezinformasiya yaymaqda suçladılar. Guya onun filmdə istinad elədiyi sənədlərin hamısı saxta imiş. Vəssalam.

İndi isə - Qaşıqçı olayından sonra - cidanı çuvalda gizlətmək çətindir, ABŞ-ın beynəlxalq miqyasda riyakarlığı artıq gözə girir. Təsəvvür edin, jurnalisti doğrayıb quyuda gizlədən feodal təfəkkürlü bir dövlət ortalıqdadır, ancaq sənin prezidentin ilk rəsmi səfərini məhz bura edir. Və özünü dünyada demokratiyanın qarantı elan edən dövlət həmin orta əsr feodallarını rəsmən müdafiə etməkdədir. Tramp son brifinqində Səudiyyə kralına vəkillik etmişdi, deyir hələ tələsməyək, istintaqı-zadı gözləyək və sairə. (*Elə bil Məzahir müəllim Dabanbasdı kəndində bələdiyyə seçkisi zamanı döşündə bülleten tutulub videoya çəkilən məktəb direktoru Gülbadam müəllimənin ifşasına münasibət açıqlayır - həmin ritorikadır. Ya da bizim köhnə "Uzaq sahillərdə" filmində deyilən kimi: "Həmin dalğa, həmin koordinat"*). Sözgəlişi, bu "istintaq davam edir" tragikomediyasının fonunda Səudiyyə xüsusi xidmətləri xəbər lentlərini əcaib dezolarla doldururdular. Misal üçün, hətta iddia olunmuşdu guya Qaşıqçının sevgilisi... kişidir. Onun çarşablı şəklini kollaj edib yayırdılar. Burada adama deyərlər, günah kimdədir? Siz qadınlara imkan verin, onlar sərbəst geyimdə gəzsinlər, kimin kişi, kimin qadın olduğu da asan bilinsin. Yenə bizim klassik Üzeyir bəyin dahi əsərindəki yanaşmada deyilən kimi: "Bunu gətirəndə baxmadınız kişidir, ya arvad?" Qaşıqçının çarşablı arvadının kişi olmasını iddia edərkən ərəblər özlərinə gülürdülər, xəbərləri yox idi.

Almaniya və Kanada Səudiyyə ilə neçə milyardlıq silah satışı müqavilələrini pozduqlarını bildiriblər. Məşhur şirkətlər, tanınmış adamlar Səudiyyənin boykotuna qoşulur. Yalnız ABŞ-dan "tık" belə yoxdur. 120 milyard dollarlıq silah satacaqlar, sonra Səudiyyə bu silahla Yəməndə qırğın törədəcək - canları cəhənnəmə... Müsəlmanın ağlı olsun, qırılmasın. Bax, həmin yüz milyardlıq silah alverinin fonunda hansısa jurnalistin diri-diri doğranıb quyuya atılması nəmənə şeydir? Uzağı buna görə "narahat olmaq" mümkündür. Biz bu narahatlığı artıq "n" hərfindən tanıyırıq.

Bir məsələ də maraqlıdır ki, "iki müqəddəs ocağın" qoruqçuları dünyanın hər yerindən elə silah alırmışlar. Neft milyardları insan ölümü üçün vasitələrə xərclənirmiş. Halbuki o pulları kitaba xərcləyib müsəlman dünyasına atsaydılar indi Orta Şərq cənnətə dönmüşdü. Bir kitaba yox, çoxlu kitaba - bu da vacib qeyddir.




# ABŞ-ın yüksək çinli elçisi Bakıya gəlir

## Bolton Cənubi Qafqaz səfərini Azərbaycandan başlayır; **Tofiq Zülfüqarov:** "Bakıda iki əsas məsələ diqqət mərkəzində olacaq"

**ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton oktyabrın 24-də Azərbaycan paytaxtına gələcək. Buradan o, Gürcüstan və Ermənistana gedəcək, həmkarları ilə görüşəcək, regional məsələləri, həmçinin təhlükəsizlik məsələlərini müzakirə edəcək.**

Xatırladaq ki, ABŞ prezidenti bu ilin martında milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Qerbert Makmasteri istefaya göndərdi və bu vəzifəyə ABŞ-ın BMT-dəki keçmiş daimi nümayəndəsi Con Bolton təyin olundu. 9 apreldə Con Boltonun təyinatı barədə qərar veriləndə deyilirdi ki, o, müharibə təhrikçisidir və beləsinin Donald Trampın milli təhlükəsizlik məsləhətçisi təyin olunması qlobal təhlükəsizlik üçün təhlükədir. Hesab olunur ki, Bolton təhdidləri şişirtdirən, diplomatiyaya hörmət, beynəlxalq qurumlara ehtiram göstərməyən xarici siyasəti müdafiə edir və zorakılığı dəstəkləyir. İddialar var ki, bu işə o, vəzifəsinin icrasına başlayan Bolton İranla nüvə razılaşmasını tar-mar etmək və İranı bombalamaq istəyir. Digər iddiaya görə, Bolton ABŞ və İran deyil, həm də İngiltərə, Fransa, Almaniya, Çin, Rusiya və Aİ tərəfindən imzalanan nüvə razılaşmasına nifrət edir.

Qeyd edək ki, C.Bolton Moskvada, Rusiya rəsmiləri ilə prezident Donald Trampın orta mənzilli raketlərə dair razılıqdan çıxmaq istədiyi haqda qərarını elan etməsi ilə bağlı müzakirələr aparıb. Rusiyaya səfərin məqsədi bəllidir. Bəs Boltonun Cənubi Qafqaz ölkələrinə gəlişində əsas məram-məqsəd nədən ibarətdir?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, ABŞ-ın Orta və Uzaq Mənzilli raketlərin məhv edilməsi anlaşmasından çıxmaq istəyi anlaşılandır:** "Anlaşma keçmiş SSRİ ilə ABŞ arasında 1987-ci ildə imzalanıb. O zaman "soyuq müharibə" hələ bitməmişdi, iki fövqəlgüc xeyli raketlərə malik idi və hərbi toqquşma ehtimalını azaltmaq üçün həmin sazişi imzalamağa ehtiyac var idi. 30 il keçib, SSRİ yoxdur, bu arada, Çin, İran, Pakistan və Hindistan kimi ölkələr də orta və uzaq mənzilli raketlərə malik olublar. Onlar vaxtilə nə SSRİ, nə də ABŞ-la oxşar saziş imzalayıblar. Ona görə də istədikləri qədər raket istehsal edə bilərlər. Bu isə ABŞ-ı narahat edir. ABŞ anlaşmaya riayət edərək rəqib hesab etdiyi ölkələrin Avrasiya bölgəsində hegemonluğuna göz yummaq istəmir və ona görə anlaşmadan çıxır. Bundan başqa, Vaşinqton hesab edir ki, SSRİ-nin varisi olan Rusiya yeni növ raketlər istehsal etməklə anlaşmanın şərtlərini illərdir pozur. Buna görə də 30 il əvvəl imzalanan sazişin əhəmiyyəti qalmayıb".

**Bəs bundan sonra nə baş verə bilər? C.Boltonun Cənubi Qafqaz ölkələrinə səfəri nəyə hesablanıb? E.Şahinoğlu:** "Birincisi, ABŞ sazişdən çıxdıqdan sonra Avropa Rusiya ilə üz-üzə qalacaq. Çünki ABŞ anlaşmadan çıxırsa, Rusiya da anlaşmadan çıxacaq və orta - uzaq mənzilli raketlərin istehsalını gücləndirəcək. Bu isə ilk növbədə Avropa üçün təhlükə mənbəyinə çevriləcək. Belə olan halda bəzi Avropa ölkələri ABŞ-dan onları Rusiya təhlükəsindən qorumalarını istəyəcəklər. ABŞ öz raketlərini Avropa qitəsində yerləşdirməyə başlayacaq. 1980-ci illərin əvvəllərində də ABŞ "Perşinq" raketlərini köhnə qitədə yerləşdirmişdi. Tarixin təkrarlanması ehtimalı böyükdür. İkincisi, ABŞ Avropa ölkələri ilə yanaşı raketlərini qonşu Gürcüstanda da yerləşdirə bilər. Əlbəttə, bu, Rusiyanı ciddi narahat edəcək. Ancaq Rusiya orta və uzaq mənzilli raketlərin yenidən istehsalına başladıqdan sonra qonşuluqda Moskva ilə problemləri olan ölkələr - Litva, Latviya, Estoniya, Ukrayna və Gürcüstan ABŞ-dan dəstək istəyəcəklər. ABŞ-ın Gürcüstandakı hərbi bazalarını rəsmiləşdirməsi Azərbaycanın maraqlarına uyğundur. Rusiyanın Ermənistandakı hərbi bazaları Azərbaycan üçün təhdiddir. ABŞ-ın Gürcüstandakı hərbi bazaları isə bölgədə qüvvələr nisbətində balans yaradacaq. Digər tərəfdən, ABŞ-ın Gürcüstanda hərbi varlığı Azərbaycanın enerji layihələrinin təhlükəsizliyini də təmin edəcək. Onsuz da Vaşinqton Azərbaycanın bütün regional layihələrini dəstəkləyir. Elə bütün bu mövzuları müzakirə etmək üçün ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton bölgədədir".

Qeyd edək ki, ötən həftə Birləşmiş Ştatların nüfuzlu "The Washington Times" qəzeti "Caspian Group Holdings"in direktoru Rob Sobhaninin "Con Bolton Azərbaycana yola düşür" sərlövhəli məqaləsini dərc etmişdi. Məqalədə onun Bakıya tezliklə nəzərdə tutulan səfəri və Birləşmiş Ştatlarla Azərbaycan arasında strateji tərəfdaşlıqdan bəhs olunur. Müəllif yazır ki, ABŞ-ın ən etibarlı müttəfiqlərindən biri kimi Azərbaycanın rolu lazımınca qiymətləndirilməyib. Cənab Bolton geopolitik cəhətdən bu mühüm ölkəyə səfərindən Vaşinqtonun Azərbaycana dəyişməz və güclü dəstəyini təsdiq etmək üçün istifadə etməlidir. Sobhani qeyd edir ki, prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə Azərbaycan sabit, müstəqil, çiçəklənən, dini cəhətdən tolerant və müasir dövlətə çevrilib.

Yeri gəlmişkən, eyni gündə ABŞ prezidentinin kibertəhlükəsizlik müşaviri Rudolf Culiani Ermənistan müdafiə naziri David Tonoyanla görüşüb (axar.az). Görüş zamanı Tonoyan Culianiyə Ermənistan ətrafında yaranan vəziyyətlə əlaqədar məlumatları təqdim edib. Tərəflər xüsusilə ABŞ-dakı ermeni icmasının ölkənin ictimai-siyasi həyatındakı rolu barədə məsələni müzakirə ediblər. Qeyd edək ki, Culiani Ermənistana Rusiya Erməniləri İttifaqının rəhbəri Ara Abramyanın dəvəti ilə gəlib.

Son zamanlar amerikanlaрın bölgəmizə davamlı səfərlər etməsi, həmçinin Qarabağla bağlı açıqlamaları diqqət çəkir.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a bildirdi ki, Boltonun səfərində bir saylı məsələ İrandır:** "Amma eyni zamanda enerji təhlükəsizliyi mövzuları da nəzərdən keçiriləcək. Çünki ABŞ bu məsələ ilə bağlı öz mövqeyini bir neçə ay bundan qabaq açıqlayıb. Həm də Almaniyanın kansleri regionda səfərdə olarkən məsələ ilə bağlı bəyanat verib. Bu baxımdan enerji təminatının təhlükəsizliyi məsələləri Azərbaycan gündəmində Avropa üçün birinci dərəcəli məsələdir. İkinci müzakirə olacaq mövzu Qarabağ məsələsidir. Qarabağ məsələsi birbaşa təhlükəsizlik məsələləri ilə bağlıdır. Çünki vəziyyət bəllidir, danışıqlar prosesi dalandadır, Rusiya Paşinyanın gəlişindən sonra aktivliyini dondurub. İstisna etmirəm ki, Boltonun səfərində bu məsələ də müzakirə olunacaq".

**T.Zülfüqarov Eldar Namazovun "Yeni Müsavat"a son müsahibəsində çox maraqlı fikirlər səsləndirdiyini bildirdi:** "Mən də istisna etmirəm ki, ciddi əsaslar var. Hər halda, Eldar müəllimin söylədiyi fikirlərə çox ciddi yanaşıram". Qeyd edək ki, E.Namazov öz müsahibəsində ABŞ-ın Qarabağla bağlı planının olduğunu söyləmişdi. Zülfüqarov da hansısa prosesin getdiyini istisna etmədi: "Hiss olunur ki, Qərb Paşinyandan gözləntilərini ala bilmədi. Paşinyan da bu yaxınlarda deyib ki, ABŞ-ın onlara münasibəti adekvat, Ermənistanın istədiyi səviyyədə deyil. Həmçinin investisiyaların ciddi şəkildə azaldığını bildirib. Bu baxımdan Boltonun Ermənistan səfərində Paşinyana da ciddi suallar olacaq. Bu sualların bir qismi Qarabağ məsələsinə aiddir. ABŞ-ın Ermənistandakı səfirinin son açıqlamaları da böyük maraq kəsb edir".

**Eks-nazir C. Boltonu çox aktiv və radikal mövqelərdə duran bir insan kimi xarakterizə etdi:** "Hər halda, onun diplomatik məsələlərdə təcrübəsi çox böyükdür, yüksək səviyyədə peşəkardır. Həmçinin sərt və konservativ mövqedə duran diplomatdır. Ümumiyyətlə, Tramp-Bolton tandemi çox maraqlı tandemdir. Çünki Trampın da sərtliyi var. Amma ABŞ-ın bu regiona aid siyasəti hələ də formalaşmayıb. Əgər formalaşıbsa da, hələlik görsənmir. Görək səfərdən sonra nələr olacaq".

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

# Rəsmi Bakıdan iki mühüm gediş - "Rus NATO-su" və İsrail...

## Elmar Məmmədyarov KTMT-yə üzvlüyün şərtini açıqladı; Baş Qərargah rəisi Nəcməddin Sadıkov isə İsrailə getdi - müdafiə naziri Libermanın Bakı səfərindən cəmi 1 ay sonra - əsas hədəf...

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Çex Respublikasına təzəcə başa çatan səfəri haqda məlumat vermişik. Azərbaycanın hərb naziri səfər çərçivəsində ötən həftə Praqada müdafiə sənayesi sərgisinə qatılıb, çexiyalı həmkarı ilə və bu ölkənin hərbi şirkətlərinin nümayəndələri ilə görüşüb. Təbii ki, əsas müzakirə mövzusu hərbi-texniki əməkdaşlıq məsələləri olub.**

Yada salaq ki, artıq Azərbaycan Silahlı Qüvvələrinin arsenalında Çexiya istehsalı "DANA" müasir raket kompleksləri var - hansı ki, işğalçı Ermənistanda ciddi təlaş yaradıb. Həm də o səbəbə ki, Çexiya Avropa Birliyinin (AB) üzvüdür. Gözlənilir ki, ordumuzun hərbi parkı tezliklə yeni silah-sursatlarla zənginləşəcək. Nazirin Praqa səfəri bu mənada Azərbaycanın silahlanma strategiyasını saxələndirmək baxımından xüsusi önəm daşıyır.

*****

İsrail dövləti isə Azərbaycanın silah tədarük elədiyi ölkələr sırasında özünəməxsus yer tutur. Yeri gəlmişkən, Zakir Həsənovdan sonra Azərbaycanın müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ötən gün - oktyabrın 23-də israilli həmkarı general-leytenant Qadi Ayzenkotun dəvəti ilə Tel-Əviv şəhərinə rəsmi səfərə yola düşüb. Musavat.com-un Müdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, səfər çərçivəsində Nəcməddin Sadıkovun İsrailin müdafiə naziri Avidqor Liberman, baş Qərargah rəisi və digər rəsmi şəxslərlə görüşü, habelə müdafiə sənayesi sahəsində fəaliyyət göstərən müəssisələri ziyarət etməsi nəzərdə tutulub.

"Yeni Müsavat" xatırladır ki, İsrailin müdafiə naziri Aviqdor Liberman cəmi bir ay öncə, özü də 5 günlük səfərlə (13-19 sentyabr) Azərbaycanda olmuş, ölkənin siyasi və hərbi rəhbərliyi ilə görüşmüşdü. O sırada o, prezidenti İlham Əliyevlə bağlı qapılar arxasında saatlarla sürən danışıqlar aparmışdı. Daha sonra o, müdafiə, fövqəladə hallar nazirləri, Sərhəd Qoşunlarının komandanı və xarici işlər naziri ilə bir araya gəlmişdi.




Bu da maraqlıdır ki, Liberman qonşu Gürcüstanda cəmi bir gün qaldıqdan sonra Tiflisdən Bakıya gəlmişdi. Bundan əlavə, İsrailin müdafiə naziri Şəhidlər Xiyabanında Azərbaycanın Milli Qəhrəmanı, ərazi bütövlüyümüz uğrunda şəhid olmuş yəhudi vətəndaşımız Albert Aqarunovun məzarını ziyarət etmişdi. Sonuncu fakt düşmən Ermənistanda xüsusi narahatlıq yaratmış və işğalçıya İsrail dövlətinin açıq xəbərdarlıq mesajı kimi qiymətləndirilmişdi.

Əksər siyasi təhlilçilər məhz bu faktı - İsrail müdafiə nazirinin ilk dəfə Azərbaycana belə çoxgünlük səfər eləməsini misli görünməmiş hadisə kimi, eyni zamanda Azərbaycana siyasi dəstəyin qabarıq təzahürü olaraq dəyərləndirmişdilər. Həmin səfərin belə uzun çəkməsi, ən yüksək səviyyədə aparılan danışıqlar, iki dövlət arasında münasibətlərin strateji xarakterini ortaya qoymuş, İsrail dövlətinin regionda, xüsusən də Azərbaycan ətrafında cərəyan edən geosiyasi proseslərə xüsusi diqqətinin təsdiqi kimi yadda qalmışdı.

Reallıq belədir ki, İsrail üçün Azərbaycan dünyada əsas hərbi-siyasi tərəfdaşlardan biridir. İki ölkə arasında başqa sahələrə də əlaqələr genişdir. Məsələn, İsrail Azərbaycan neftinin əsas alıcılarından biridir. Ölkəmizin böyük lobbistlərindən sayılan Libermanın özü isə dəfələrlə Bakıda səfərdə olub - həm xarici işlər naziri, həm baş nazirin dəftərxanasının rəhbəri qismində. Ancaq ilk dəfədir müdafiə naziri statusunda Bakıda beş gün qaldı.

İndi isə Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəis İsraildədir. Şübhə yox ki, bu səfər iki dövlət arasında hərbi-texniki əməkdaşlığın səviyyəsini bir az da yüksəyə qaldırmaqla nəticələnəcək, o sırada Azərbaycanda yüksək dəqiqlikli Pilotsuz Uçan Aparatların (PUA) birgə istehsalı yönündə yeni üfüqlər açacaq. Ən əsası, dərinləşən hərbi-siyasi əlaqələr beynəlxalq miqyasda Azərbaycanın haqq işinə nüfuzlu yəhudi lobbisinin dəstəyini gücləndirəcək.

*****

Sözsüz ki, balanslı xarici siyasət aparan və heç bir hərbi bloka, o cümlədən "Rus NATO-su" sayılan KTMT-yə qoşulmayan Azərbaycan öz ordusunun silahlanmasında da çoxvektorluluğu saxlamağa üstünlük verir ki, yalnız bir ölkənin, məsələn, Rusiyanın silahlarından asıl duruma düşməsin.

"Rus NATO-su"ndan söz düşmüşkən, bu arada Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bir daha KTMT-yə üzvlüklə bağlı məsələyə münasibət bildirib. "Yeni Müsavat"ın məlumatına görə, "RİA-Novosti"yə müsahibəsində XİN başçısı suala birmənalı cavab verməkdən yayınıb. **"Dəfələrlə qeyd etdiyimiz kimi, Azərbaycan balanslı xarici siyasət aparır. Bu xüsusda biz ölkəmizə qarşı hərbi təcavüzü davam etdirən, beynəlxalq səviyyədə tanınmış ərazilərimizi işğal altında saxlayan və bu ərazilərdə Azərbaycan əhalisinə qarşı qanlı və total etnik təmizləmə həyata keçirən Ermənistan istisna olmaqla, KTMT-nin bütün üzvləri ilə fəal ikitərəfli dialoqu və qarşılıqlı faydalı, bərabər əməkdaşlığı davam etdiririk"**, - deyə Məmmədyarov qeyd edib.

Beləliklə, Bakı bir daha Moskvaya aydın mesaj verib ki, Rusiya Ermənistanın işğalçılıq siyasətinə beynəlxalq hüquq çərçivəsində qiymət verməyincə, təcavüzkarı cilovlamayınca, ilkin mərhələdə heç olmasa, işğal altındakı ərazilərin bir qisminin qeyd-şərtsiz boşaldılması üçün İrəvana təzyiq etməyincə, Azərbaycan Kremlin heç bir hərbi və iqtisadi blokunda Ermənistanla birgə təmsil olunmayacaq...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# ABŞ-ın Qarabağla bağlı gizli planı

## Fəzail Ağamalı: "Sülhməramlı qüvvələrin yerləşdirilməsi yalnız 7 rayon azad edildikdən sonra mümkün ola bilər, ancaq..."

**Son zamanlar ABŞ diplomatlarının Qarabağla bağlı verdikləri bəyanatlar Vaşinqtonun münaqişənin həlli ilə alaqədar hansısa planının mövcudluğundan xəbər verən açıqlamalar kimi şərh edilir. Son olaraq ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədri Ceyms Uorlik prosesinin son mərhələlərində əraziyə neytral ölkələrin sülhməramlı qüvvələrinin yerləşdiriləcəyindən danışıb. Bəs ABŞ-ın Qarabağ məsələsi ilə bağlı hansısa planının mövcudluğundan danışmaq mümkündürmü?**

**Deputat Fəzail Ağamalı** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Qarabağda sülhməramlıların yerləşdirilməsi məsələsi əvvəllər ATƏT-in müxtəlif sammitlərində müzakirə predmeti olub, problemin sülh yolu ilə həll olunmasından sonra sülhməramlı qüvvələrin yerləşdirilməsi ilə bağlı müəyyən şifahi razılıqlar əldə olunub: "Bu gün bu məsələnin aktuallıq kəsb etməsi, sadəcə olaraq, işğal olunmuş torpaqlarımızın sülh yolu ilə azad edilməsini intensivləşdirməyə xidmət edir. Uorlikin də söylədiyi kimi, bu məsələ 10 il qabaq müzakirə edilib və ümumi şifahi danışıqlar əsasında centlemen razılıq əldə olunub. Lakin bu, heç bir sənəddə əksini tapmayıb və bu cür fikirlər hüquqi əsasa malik deyil. Ancaq bizim hər birimizi düşündürən işğal olunmuş torpaqlarımızın azad edilməsidir. Mənim fikrim bundan ibarətdir ki, işğal olunmuş ərazilərimizin hamısı azad edilməlidir. Yəni ilkin mərhələdə Dağlıq Qarabağ ətrafındakı işğalda olan 7 rayonun yeddisi də boşadılmalıdır. Azərbaycanın ərazi bütövlüyünü təsbit edən ədalətli sülhə nail olmalıyıq. Ondan sonra mərhələli həll planına uyğun olaraq Dağlıq Qarabağın statusu müəyyənləşməlidir. Yəni həm erməni, həm azərbaycanlı icmasının birgə yaşayışını təmin edən status müəyyən olunmalıdır. Azərbaycan dövləti yüksək səviyyədə bunun təminatını verir. Bəli, ola bilsin ki, 7 rayon işğaldan azad edildikdən sonra tərəflər arasında etimadı gücləndirmək, etimadı təmin etmək və təhlükəsizliyi təmin eləmək məqsədilə Uorlikin də dediyi kimi, sülhməramlı qüvvələrin yerləşdirilməsi mümkün olsun. Ancaq sülhməramlı qüvvələr harada yerləşdiriləcək? Dağlıq Qarabağla azad olunan 7 rayonun arasındamı? Yoxsa Ermənistanla Azərbaycanın sərhədindəmi? Bütövlükdə bunların hamısı kifayət qədər mübahisəli və qaranlıq məsələlərdir".



**Deputatın sözlərinə görə, keçmiş amerikalı həmsədr tərəfindən açıqlanan fikir bizim üçün o mənada əhəmiyyətlidir ki, Minsk Qrupunun həmsədr ölkələrinin qüvvələri sülhməramlı qüvvələr kimi bölgədə yerləşdirilməyəcək:** "Mənə elə gəlir ki, bunda ABŞ-ın daha çox marağı var ki, Rusiya qüvvələri sülhməramlı adı altında bölgədə yerləşməsin. Belə görünür ki, Amerikanın bu cür bir planı var ki, sülhməramlı qüvvələr tamamilə neytral olan ölkələrə məxsus olsun. Lakin şəxsən mən bu fikirdəyəm ki, Ermənistan hələ bu planın reallaşdırılmasına hazır deyil. Paşinyanın açıqlamaları buna zərrə qədər ümid vermir ki, problem sülh yolu ilə həll olunsun. Ona görə də mən daha çox belə düşünürəm ki, işğal altındakı torpaqlarımızın azad edilməsi funksiyasını milli ordumuz həyata keçirəcək. Çünki Ermənistan sülhə hazır deyil. Ermənistan cəmiyyətinin beyninə Azərbaycana qarşı nifrət, işğal olunmuş torpaqların Ermənistan ərazisi olması kimi cəfəng ideologiyanı yeridiblər. İndi hansı dövlət başçısı cəsarət göstərib belə bir cəmiyyətin əleyhinə gedərək öz qoşunlarını Azərbaycan torpaqlarından çıxaracaq, bax, bu çox böyük problemli məsələdir. Onun üçün gərək uzun müddət Ermənistan cəmiyyətinin üzərində iş aparılsın və onları inandırmaq lazımdır ki, Robert Köçəryan, Serj Sərkisyan onları düz istiqamətə yönəltməyib, həqiqət bundan ibarətdir ki, Ermənistanın öz ordusunu işğal olunmuş torpaqlardan çəkməsi ən düzgün yoldur. Ermənistan cəmiyyətinə inandırılmalıdır ki, yalnız bundan sonra Dağlıq Qarabağa yüksək status veriləcək, Ermənistan blokadadan tamamilə çıxaraq Azərbaycanla, Türkiyə ilə əlaqələr quracaq.

Onsuz da Azərbaycan dövlətinin və prezidentinin iradəsi ortalıqdadır, qətiyyəti bəllidir - bir qarış da torpaq Ermənistana verilməyəcək. Əgər ermənilər müharibə nəticəsində qırılmaq, dövlətçiliklərinin məhvini istəmirlərsə, normal ölkə kimi qonşularla münasibət qurub öz inkişaflarını təmin etmək istəyirlərsə, deyilən sülh platforması əsasında münaqişənin həllinə razılaşmalıdırlar. Əks təqdirdə, Azərbaycan işğal altındakı torpaqlarını güc yolu ilə azad edəcək. Bu isə Ermənistana böyük fəlakətlər gətirəcək. Ona görə də bu gün məsələnin sülh yolu ilə həlli daha çox Ermənistan üçün lazımdır. ABŞ diplomatlarının son zamanlar verdiyi açıqlamalardan da görünür ki, Amerika Qarabağ münaqişəsinin həllini istəyir və sülh planına erməni cəmiyyətinin razılaşmasına impuls vermək istəyirlər. Artıq açıq şəkildə bəyan edirlər ki, tutulmuş ərazilər boşaldılmalıdır və sülh razılaşması bu halda mümkündür. Ermənistan cəmiyyətinə mesajlar verilir ki, bu cür razılaşmaya hazır olmalısınız. İndi baxaq görək, Ermənistan dövləti və cəmiyyəti buna hazır olacaqmı? Əgər hazır olacaqlarsa, gələcəkdə sülhməramlı qüvvələrlə bağlı fikir mübadiləsi aparıb əlbəttə ki, Azərbaycanın suverenliyi təhdid altında olmadan sülhməramlı qüvvələri bölgədə yerləşdirmək istisna olunmur. Lakin torpaqlar azad olunmadan bəri başdan bunun ətrafında geniş müzakirələr aparmağa bizim tərəfdən ehtiyac duymuram. Biz ilk növbədə işğal olunmuş torpaqlarımızın azad olunması haqqında düşünməliyik".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018



# "Keçər dövran..."

Xalid KAZIMLI

**Bu pritçanı Azərbaycanın rəhbəri olmuş (1933-53) Mircəfər Bağırovun adıyla da bağlayırlar, ancaq Osmanlı sultanlarının birinin başına gəldiyinə dair iddialar da var.**

Pritça belədir: Övladı ilə ölkəsini gəzməyə çıxmış sultan ona çayları, gölləri, meşələri, qalaları göstərir. Şahzadə gördüklərindən riqqətə gələrək soruşur: "Ata, bunların hamısı bizimdirmi?" Sultan cavab verir ki, bunların heç biri bizim deyil, övlad, sadəcə, dövran bizimdir.

Bəli, əsas məsələ budur. Şair demişkən, dünya heç kimin deyil. Sultan Süleymana (əslində Süleyman peyğəmbərə) qalmayan dünya heç kəsə qalmır, qala bilməz, sadəcə, hər kəs bir müddət dünyada dövran sürür. Dövran bitdikdən sonra hər şey tarix olur.

Elmar Vəliyevin oğlu Elmir Vəliyevin "Kəpəz" futbol klubunun prezidenti seçilməsi bir neçə ilin söhbətidir. Bu hadisə 2015-ci ilin mayında baş vermişdi. Bu gün artıq Elmir Vəliyev klub prezidenti deyil.

Çünki dövrə qapanıb. Elmar Vəliyevə atılan güllə təkcə onun sağlamlığını zədələmədi, eyni zamanda karyerasını da bitirdi.

Ölkə rəhbərliyi onun sağalmasını gözlədi, sağ-salamat olması barədə videogörüntülər yayılandan 5-6 gün sonra E.Vəliyevin Gəncə şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi barədə sərəncam imzaladı. E.Vəliyevin siyasi dövranı bitdi.

Azərbaycan elə ölkədir ki, burada yüksək vəzifəli ataların, qardaşların karyerası gözlənilmədən bitəndə oğulların, kiçik qardaşların taleyinə də təsir göstərir.

Elmir Vəliyevin klub prezidenti postundan istefa verməsinin əsas səbəbi məhz Elmar Vəliyevə atılan güllənin hədəfə dəyməsindədir.

O güllə İH başçısına atılmasaydı və dəyməsəydi, Elmir Vəliyev də öz postunda qalacaqdı. Hətta "Kəpəz" uğur qazandığı təqdirdə, klubun gənc prezidenti bütün Gəncənin sevimlisi olacaqdı.

Bu hadisə təxminən Ankaranın meri Melih Gökçekin vaqiəsini xatırladır. M.Gökçek paytaxt meri olanda onun oğlu Osman da "Osmanlıspor" adlı klubun prezidenti idi. "Osmanlıspor" Türkiyə liqasında yaxşı çıxış edirdi, hətta bir mövsüm Avropa Liqasında qrup birincisi oldu.

Ancaq bir gün president Ərdoğan Melih Gökçeki Ankara meri vəzifəsindən istefa verməyə vadar etdi. Gənc Osmanın komandası da avtomatik olaraq zəiflədi və güclülər liqasından aşağı liqaya düşdü.

"Kəpəz" də eyni aqibəti yaşaya bilər. Amma söhbətin mövzusu bu deyil, siyasi dövranların müvəqqətiliyidir.

Bir zamanlar Əli İnsanov səhiyyə naziri idi. O, ölkənin ən nüfuzlu, ötkəm, ambisiyalı nazirlərindən biriydi. Bir ara adı parlament sədri vəzifəsinə əsas namizəd kimi çəkilirdi. Onun parlamentdəki sərt siyasi çıxışları, asıb-kəsməsi müxalifət funksionerlərini narahat edirdi, "bu hakimiyyətə gəlsə, hamımızı asdırar" əndişəsi yaradırdı.

O dönəmlərdə Əli İnsanovun oğlu Vidadi hüquq-mühafizə orqanlarında işləyirdi. Bir ara mediada "Vidadinin dubinkası" deyilən bir ifadə də vardı, kimisə o dəyənəyin dalınca göndərmiş, "gedin Vidadinin dubinkasını gətirin" deyə tapşırıq vermişdilər.

2005-ci ildə Əli İnsanovun karyerası gözlənilmədən, bir günün içində baltalananda Vidadiyə də acımadılar. İndi onun harada, nə işlə məşğul olduğu bilinmir. Əli İnsanov isə 13 ildir dustaqdır və hələ indən belə nə qədər məhbəsdə qalacağı aydın deyil.

2006-cı ildə Fərhad Əliyevin məhkəməsi gedəndə qəzetlərdə onun malik olduğu varidatın mündəricatı verilmişdi. İki qoşa səhifə sabiq nazirin malik olduğu ticarət, xidmət, iaşə və sair sektorlara aid daşınmaz əmlakların adlarını tutmamışdı, bir yarısını "ardı 10-cu səhifədə" qrifi yazaraq o biri səhifəyə keçirmişdilər. Aydın olurdu ki, F.Əliyev və qardaşları qısa müddət çəkən dövranlarında böyük varidat əldə ediblər.

Eldar Mahmudovun parlaq dövranı yadınızdadırmı? 3 il öncə bitirildi. Ziya Məmmədovun dövranından da "yaxşı" xatirələr qalıb. Camaat hara baxırdısa, "onlarındır" deyirdilər. Amma heç də onların deyilmiş. Onlarınkı yalnız bir müddət o şeylərə sahib olmaqmış. Vəssalam.

İndi sırada başqaları da var. Onların da dövranı bitəcək, varidatları gedəcək.

Bircə şeyə təəssüf ki, ölkə insanının ömrü oliqarxların, odioz nazirlərin başlayan-bitən dövranlarına, parlayan-sönən karyeralarına tamaşa edə-edə tükəndi, getdi.

# "ASAN Peşə" Təhsil Mərkəzində bir gün

## Uzun illər müəllim işləyənlər də müasir dövrlə ayaqlaşmaq üçün yeni peşə öyrənirlər













**Oktyabrın 22-də Təhsil Nazirliyi "ASAN Peşə" Təhsil Mərkəzinə mediatur təşkil edib. "Yeni Müsavat"ın əməkdaşının da qatıldığı mediaturda jurnalistlər mərkəzin infrastrukturu və maddi texniki bazası ilə yaxından tanış olublar.**

**İlk olaraq "ASAN Peşə" Təhsil Mərkəzi barəsində detallı məlumat öyrənmək üçün mərkəzin direktoru İlham İlyasovla həmsöhbət olduq. İ. İlyasov bildirdi ki, hazırda mərkəzdə 100 şagird 5 ixtisas üzrə təhsil alır:** "Ümumilikdə isə Mingəçevir peşə məktəblərində ixtisasların sayı 8-dir. Onlardan 5-i bu tədris binasında yerləşir. İlk tədrisimiz isə sentyabrın 15-dən başlayıb. Tədris planlarına uyğun olaraq hələ ki şagirdlər nəzəri və təlim məşğələlərində tədris alırlar. Növbəti ilin aprel ayından etibarən hər bir ixtisas üzrə tələbələr öz profillərinə uyğun olaraq idarədə, müəssisədə, istehsal yerlərində təcrübəyə gedəcəklər. Kursun yekununda dövlət buraxılış imtahanı verilir. Bu imtahandan müvəffəqiyyətlə keçən tələbələr, dövlət sənədi hesab edilən diploma təmin olunur. İmtahandan keçməyən kursda qalır və diplomun verilməsi qaydalarına uyğun olaraq hər hansı səbəbdən, dövlət imtahanından keçmədikdə, arayışla təmin olunur. Hazırda burada 16 müəllim və 8 usta olmaqla 24 pedaqoji heyətimiz var".

Daha sonra isə "ASAN Peşə" Təhsil Mərkəzini gəzib, tələbələrin dərs prosesi ilə tanış olduq.

**İlk olaraq "Rəqəmsal Dəzgahların İdarəetmə aparatı" ixtisası üzrə təhsil alan tələbələrlə həmsöhbət olduq. Müşahidə etdik ki, bu ixtisas üzrə təhsil alan tələbələr bütün müasir, proqramlaşdırılmış avadanlıqlarla təmin olunub. Tələbələrə dərs deyən Gülüstan Kərimova bildirdi ki, bu ixtisasa maraq olduqca yüksəkdir:**

"Gördüyünüz kimi, bizim xa-yi ilə gəlib: "Bu vaxta qədər çox şey öyrənmişəm. Uşaqların da hamısı öyrənməyə həvəslidir. Doğrusu, burada belə dərslərin keçilməsini təsəvvür etmirdim. Valideynlərim də gəlib, baxıblar. Onlar da buradakı şəraitdən razıdırlar".

**Aysu Rüstəmli isə özündən çox razılıq edir:** "Bura attestatla qəbul olmuşam. Universitetdə belə bir ixtisas yox idi. Gələn il-tədris almağımız üçün də lazım olan hər cür şərait yaradılıb".

Buradakı iş prosesi ilə tanış olduqdan sonra "Tikişçi" ixtisasları üzrə təhsil alanların istehsalat təlimi məşğələsində iştirak etdik. Burada da xeyli sayda xanım tələbələrin tikişi öyrəndiklərinin şahidi olduq. Müşahidə etdik ki, tikişçi ixtisasına təkcə xanımlar deyil, bəylər də maraq göstərirlər. Məsələn, anası dərzi olan-nım tələbələrimiz də çoxdur. Hazırda biz nəzəri bilikləri onlara aşılayırıq. Verilən cihazlar vasitəsilə də tələbələrə əyani şəkildə başa salırıq ki, iş prosesi necə aparılır. Doğrudur, cihazlarda metal maddə işlənməlidir. Ancaq biz hazırda taxta üzərində onları başa salırıq. Bütün avadanlıqlarımız tam müasirdir, xüsusi proqramlar vasitəsilə işləyir. Həmin proqramları da özümüz hazırlayırıq".

İxtisas üzrə təhsil alan tələbələrlə də həmsöhbət olduq. Öyrəndik ki, onlar bu ixtisasları seçərək seçiblər. Əksəriyyəti bildirdi ki, ali məktəbə qəbul ola bilməyincə, bu cür peşə məktəbinin yaradıldığından xəbər tutub, sənədlərini mərkəzə təqdim etmək üçün hazırlayıblar.

**Tələbə Anar Hacıyev söylədi ki, artıq 1 aydır ki, bu mərkəzdə təhsil alır:** "Bu müddət ərzində cihazla işləməyi öyrənmişəm. Saat 9-da dərsimiz başlayır, 13:00-da isə bitir. Buradakı təhsildən çox razıyam. Çünki bilirəm ki, bu məktəbi bitirdikdən sonra konkret peşəyə yiyələnəcəm. Buna yiyələnmək üçün də hər cür şərait yaradılıb".

**Mahir Hüseynov da söylədi ki, peşə məktəbinə ailəsinin istə-**dən qəbul keçirilməsi planlaşdırılır. Sənədlərimi "ASAN Xidmət" vasitəsilə verdim və 150 nəfər içərisindən 19 nəfər qəbul olduq. Universitetdə bu ixtisas üzrə keçid balı da çox yüksək nəzərdə tutulub. İki ildən sonra bu peşəyə çox yaxşı yiyələnəcəyik. Universitetdə gələn il veriləcək. Onlar 4 il oxuyacaqlar, hələ onların praktikası da var. Ümid edirəm, gəlib yanımızda praktika keçərlər".

**Daha sonra "Elektrik xətlərinin quraşdırılması üzrə mütəxəssis" ixtisasında təhsil alanların istehsalat təlimi məşğələrində iştirak etdik. Diqqətimizi çəkən isə şagird Xəyyam Əliyev oldu. Xəyyam danışdı ki, Gənc Dövlət Universitetini fizika müəllimliyi ixtisası üzrə bitirib. 2005-ci ildən 11 il ərzində müəllim kimi fəaliyyət göstərib, ancaq sonra texnologiyanın inkişaf etdiyi müasir dövrlə ayaqlaşmaq üçün yeni bir peşəyə yiyələnmək qərarına gəlib:** "Mingəçevir Sənaye parkının açılışı olandan sonra orada işləmək üçün müraciət etdim. Gördüm ki, inkişaf dövrüdür və bir yerdə saymaqla mümkün deyil, peşə öyrənmək qərarına gəldim. Əmək bazarında bu ixtisasa çox ehtiyac var. Yaxşı Üzeyir Yusibov da dərzliyi öyrənir. Söylədi ki, bu peşəyə uşaqlıqdan marağı var. Təhsilini bitirəndən sonra tikiş üzrə operator olmaq istəyir.

Daha sonra qonaqlar "Santexnik-çilingər" ixtisası üzrə təhsil alanların istehsalat təlimi məşğələlərində iştirak etdilər. Burada da müşahidə etdik ki, tələbələrin dərslərə marağı böyükdür. Söylədilər ki, bu ixtisas üzrə 20 tələbə təhsil alır. Onlar arasında təkcə Mingəçevir sakinləri deyil, digər rayonlardan gələnlər də var.

Media nümayəndələri həmçinin "Rəqəmli idarə olunan dəzgahların kompüter operatoru" ixtisası üzrə təhsil alanların istehsalat təcrübəsi prosesi ilə yaxından tanış olmaq üçün Akkord-Mingəçevir Maşınqayırma Zavoduna səfər etdilər. İstehsalat təcrübəsi zamanı tələbələr iş prosesini yaxından izləmək, istismarda olan hər bir qurğunu, avadanlığı, texnoloji prosesləri, qurğuların nəzarət və idarəetmə sistemlərinin işini öyrənmək və peşəkar mütəxəssislərlə birgə işləmək imkanı qazanırlar.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanı çətin günlər gözləyir- rəqibləri fors-major situasiya yarada bilər

## İşğalçı ölkənin parlamenti yeni Seçki Məcəlləsini rədd etdikdən sonra Konstitusiya Məhkəməsinin hakimini seçməkdən də imtina etdi; Nikol Paşinyan Rusiya ilə bağlı ehtiyatlı danışmağa başladı

**ABŞ diplomatlarından davamlı şəkildə ciddi mesajlar alan Ermənistanın baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyan indi də üzünü Rusiyaya çevirməyə başlayıb. O, son açıqlamalarından birində deyib ki, "Rusiya prezidenti Vladimir Putinlə aramızda qarşılıqlı inam atmosferi mövcuddur".**

Təbii ki, N.Paşinyanın düşdüyü durumu anlamaq çətin deyil. Onu qarşıda çox ciddi imtahan gözləyir. İki gün əvvəl Razdan şəhərində baş tutan seçkidə Paşinyanın Vətəndaş Müqaviləsi Partiyasından olan deputat Sasun Mikayelyanın oğlu Sevak Mikayelyan qalib gəlib. Sevak Mikayelyan seçkidə 68,9% səs toplayıb. Armavir vilayətinin mərkəzində isə mer seçkisini hazırda merin səlahiyyətlərinin müvəqqəti icraçısı David Xudatyan qazanıb. Xudatyan Nikol Paşinyanın əsas tərəfdarlarından biri kimi tanınıb. Eçmiədzində də Vətəndaş Müqaviləsi Partiyasından Diana Qasparyan qalib gəlib. Sünik vilayətinin mərkəzi Qafanda keçirilən seçkidə şəhərin mer vəzifəsinin müvəqqəti icraçısı Narek Babayan qalib gələ bilməyib. Onun yerinə seçkini bitərəf sahibkar Gevork Parsyan qazanıb.

İrəvan meri seçkilərində yüksək səs çoxluğu ilə qələbəsini təmin etməsi Paşinyan üçün avantaj sayılsa da, unutmaq olmaz ki, dekabrdakı parlament seçkiləri tamam başqa nəticələr də doğura bilər. Çünki parlamentli respublikada hakimiyyəti formalaşdıracaq qurumda səs sahibi olmaq hər şey deməkdir.

Qeyd edək ki, son seçki Ermənistan tarixinin ən aşağı seçici aktivliyi kimi tarixə düşüb. Axar.az xəbər verir ki, Paşinyanın cidd-cəhdlə apardığı kampaniyaya baxmayaraq, seçicilərin 65 faizi seçkidə iştirak etməyib. O mənada Paşinyanın Rusiya ilə ehtiyatlı danşmağa başlaması təsadüfi deyil. Ancaq Paşinyan Qərblə münasibətləri xatırlayaraq bir əlavəsini də edib. Onun sözlərinə görə, bu, onların hər şeylə bağlı eyni mövqedə olması və onların hər şey barədə razılaşması anlamına gəlmir. Yəni bununla o, ABŞ-a da mesaj vermək istəyib. Ermənistan parlamentinə növbədənkənar seçkilər 9 dekabr 2018-ci ildə keçiriləcək. Ölkə qanunvericiliyinə əsasən, seçkilər hökumət başçısının istefasından 30 gün tez olmamaq və parlamentin buraxılmasından 45 gün gec olmamaq şərti ilə keçirilməlidir. Beləliklə, seçkilər noyabrın sonu - dekabrın ortaları aralığında keçirilməlidir. Seçkiyə qədər Nikol Paşinyan baş nazirin vəzifələrini icra edəcək.

Ancaq belə görünür ki, işğalçı ölkədəki seçkiləri yeni seçki qanunu ilə keçirmək mümkün olmayacaq. Artıq durumdan narahat olan Paşinyan tərəfdarları hərəkətə keçib. Ermənistan parlamentindəki "Sarukyan" və "Çıxış" blokları gələn həftənin birinci günü parlamentin növbədənkənar iclasının keçirilməsi ilə bağlı imza toplamağa başlayıb. "Yeni Müsavat" erməni mediasına istinadən xəbər verir ki, əsas məqsəd iclasda yeni Seçki Məcəlləsinin qəbul olunmasıdır. Daşnaksütyun Partiyası imzatoplama prosesində iştirakdan imtina edib. Sarukyan blokundan olan deputat Naira Zoqrabyan deyib ki, hətta Respublikaçılar Partiyasının üzvü olan deputatlar da imza veriblər. Hər iki blokun üzvləri Serj Sərkisyanın sədrlik etdiyi Respublikaçılar Partiyasını iclası boykot etməməyə çağırıblar.

N.Paşinyan isə parlamentdə baş verənləri sabotaj adlandırıb. Qeyd edək ki, bu ilin may ayında ona qarşı itaətsizlik edənlərin hərəkətini də Paşinyan sabotaj kimi qiymətləndirmişdi.

Ölkədə demokratik ab-havanın olduğunu iddia edən N.Paşinyan isə rəqiblərinə qarşı sərt tədbirlərini davam etdir. Belə ki, Ermənistanın parlamentinin eks-deputatı Arakel Movsisyanın (Şmays) 4 qardaşı - Murad, Zərzan, Saak və Lev həbs edilib. Onları Ermənistan Milli Təhlükəsizlik Xidmətinin əməkdaşlarının həbs etdiyi bildirilib. Lakin bu şəxslərə qarşı hansı maddə üzrə iş qaldırıldığı açıqlanmayıb.

Ermənistanda açıq-aşkar parlament böhranı yaşanır. Əslində bunu Paşinyan hakimiyyətinə qarşı rəqiblərinin apardığı mübarizə də adlandırmaq olar. Belə ki, parlamentin 23 oktyabr iclasında Konstitusiya Məhkəməsinin hakimini seçmək mümkün olmayıb. Belə ki, Vaqe Qriqoryanın seçilməsinə cəmi 54 deputat səs verib. Hansı ki, bunun üçün 63 deputatın səsi lazım idi. Serj Sərkisyan tərəfdarları növbədənkənar seçkilərə razılıq versələr də, hər addımda Paşinyanı çətin vəziyyətə salırlar.

Parlamentdəki "Çıxış" bloku isə N.Paşinyanın yenidən baş nazir seçilməsi ilə bağlı təşəbbüslə çıxış edib. Onlar namizədlərinin N.Paşinyan olduqlarını açıqlayıblar. Lakin bunun qarşılığında Respublikaçılar Partiyasının hansı addım atacağı maraq doğurur. Paşinyanın rəqibləri Ermənistanda fors-major situasiya yarada bilər.

Qeyd edək ki, Ermənistan Milli Məclisi 22 oktyabrda Seçki Məcəlləsinə edilən dəyişikliklər layihəsini qəbul etməyib. Qanun layihəsinin lehinə 56, əleyhinə isə 3 deputat səs verib. Lakin qəbul üçün tələb olunan 63 səs olmadığına görə səsvermə baş tutmamış sayılıb. Belə ki, sabiq prezident Serj Sərkisyanın parlamentdə ən çox kürsüyə malik Ermənistan Respublika Partiyasının (ERP), o cümlədən Daşnaksütyunun deputatları iclas salonuna qəsdən gəlməyiblər.

Milli Məclisin sədri Ara Babloyan müzakirə edilən sənədin konstitusiya qanunu olmasını əsas göstərərək onun üçün 63 səsin toplanmasının gərək olduğunu söyləyib.

"Yelk "blokunun deputatı Lena Nazaryanın səsvermə zamanı daha çox deputatın gəlməsi üçün 20 dəqiqəlik fasilə istəməsi də bir işə yaramayıb.

Hər halda, bu gəlişmə Paşinyan üçün növbəti zərbələrdən sayıla bilər. İndi buna görə onu hətta öz komandasında qınayırlar. Seçki Məcəlləsinə dəyişikliklər üzrə komissiyanın üzvü, "Məlumatlı vətəndaşlar birliyi" təşkilatının rəhbəri Daniel İonnasiyan səsverməni boykot edən ERP və daşnaklar qədər baş nazir Nikol Paşinyanın da günahkar olduğunu qeyd edib. **"Nikol Paşinyan seçkilərin müddətini dekabra çəkməklə sabotaj imkanlarını daha da artırdı"**, - İonnaisyan erməni mediasına bildirib.

**Politoloq Hikmət Hacızadə isə "Yeni Müsavat"a bildirdi ki, böyük ehtimalla Paşinyan sonda qələbə çalacaq:** "Çünki cəmiyyət, xalq onu dəstəkləyir. Onun reytinqi indi 70-80%-dir. Odur ki, düşmənləri heç nə edə bilməyəcəklər".

Növbədənkənar parlament seçkilərindən sonra Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı sərt dönüşlər olacaq. Artıq o haqda danışırlar ki, 2019-cu ilin may ayında münaqişə ilə bağlı Ermənistan üçün arzuolunmaz qərarlar veriləcək. Publika.az xəbər verir ki, bu barədə erməni siyasi şərhçi Hakop Badalyan deyib.

**Erməni şərhçi hesab edir ki, bu məsələ ilə bağlı yayılan xəbərlər Ermənistan daxilində Nikol Paşinyanın nüfuzunu salmağa da hesablanmış ola bilər:** "Belə cəhdlər dəfələrlə olub. Lakin burada ABŞ-ın İrəvandakı səfirinin "münaqişənin istənilən həll variantı ərazilərin müəyyən hissəsinin Azərbaycana qaytarılması ilə nəticələnəcək" açıqlaması diqqət çəkir. Mümkündür ki, problemin həlli ilə bağlı Ermənistana beynəlxalq təzyiqlər var. Paşinyan seçkiləri keçirmək və daxili siyasətdəki burulğanları geridə qoymaq üçün zaman istəyib". Badalyan qeyd edir ki, burada Ermənistan daxilində münaqişənin həllini arzulayanların da mövqeyi az da olsa görünür. Misal üçün, "Vikiliks" nəşri yazırdı ki, 2008-ci ildə Ermənistanın birinci prezidenti olmuş Levon Ter-Petrosyan ABŞ səfirini münaqişənin həlli üçün Serj Sərkisyana təzyiq etməyə inandırmışdı. Bu kontekstdə ABŞ səfirinin son bəyanatı diqqət çəkir. Seçkidən sonra Qarabağ ətrafında ciddi proseslərin baş verəcəyi qaçılmaz olacaq".

**H.Hacızadə isə ABŞ-ın seçkilərdən sonra Paşinyana Qarabağla bağlı hansısa təzyiq edəcəyinə inanmır:** "Sülhün açarları hələ ki Moskvadadır. Onun da tələbləri haqqında mən dəfələrlə demişəm. Rusiya öz ordusunu Azərbaycana qaytarmaq istəyir. Hələ ki təzə bir şey görmürəm". **Amma amerikalı keçmiş həmsədr C.Uorlik deyib ki, razılaşmaya görə, həmsədr ölkələrin və qonşu dövlətlərin sülhməramlıları yerləşdirilə bilməz. Bəs belə olan halda nə baş verəcək?** H.Hacızadə: "Bunu həyata keçirmək üçün ABŞ Rusiya ilə kəllə-kəlləyə gəlməlidir. Hələ ki Rusiya regionumuzda ABŞ-dan güclüdür. Ola bilsin ki, ABŞ Rusiyanı ram edə bildi. Onda onlar dediyi olacaq".

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a dedi ki, Paşinyanın seçkilər ərəfəsində istefa verməsi qaçılmaz idi:** "O, tam şəkildə konstitusiyaya uyğun və yaranmış kritik şəraiti nəzərə alaraq hərəkət edir. Rusiya ilə təbii ki, müəyyən razılıq da əldə edilib və inandırıcı görünmür ki, Paşinyan təlimatlanmasın. Buna görə də onun bu və digər şəkildə Azərbaycanın xeyrinə cəzalandırılacağı da real görünmür. Çünki rayonların qaytarılması Paşinyanın istəyi ilə həyata keçirilə bilməz. Təbii ki, "Qarabağ kartı" seçkidə də oynanılacaq və bunsuz mümkün deyil. Çünki Sərkisyan və onun komandası məhz bu münaqişə üzərindən hakimiyyət gəliblər. Paşinyanın əsas güvəndiyi elektorat təbii ki, mitinqçilərdir. Çünki hər hansı bir problem yarananda artıq o, yeni mitinq çağırmaqla öz istəyini həyata keçirməyə çalışır. Əvvəllər Rusiya ilə müəyyən konfrontasiyaya getsə də, son zamanlar bu proses bir az sakitləşib. "Korrupsiyaya qarşı mübarizə" adı altında özünün siyasi opponentlərini sıradan çıxarmağa çalışan Paşinyan artıq Sarukyanla da yaxınlaşmağa başlayıb, zənnimcə, bu da Rusiyanın təlimatı ilə ola bilər. Bir sıra qubernator və nazirlərin istefası da bunu deməyə əsas verir ki, Paşinyan müəyyən qədər problemlərini həll edir. Paşinyan bu gedişlə yəqin ki, seçkini udacaq. Çünki paralel olaraq həm də Qərbi razı sala biləcək bir sıra addımlar da atır. Bu proseslərdə təbii ki, bizim gözlədiyimiz Dağlıq Qarabağ münaqişəsinin həllində müəyyən irəliləyişin ola bilməsidir. Seçkilərə qədər bunu gözləmək inandırıcı görünmür, lakin həm ATƏT-in Minsk Qrupu, həm də regional aktyorlar tərəfindən seçkiöncəsi Ermənistana təsir və hətta təzyiq mexanizmini işə salmaq zəruridir. Çünki öz seçki platformasında Qarabağ məsələsini qabardan Paşinyan bununla bir qədər də səs çoxluğu əldə edə bilər".

****

İndiki halda isə Ermənistan hakimiyyəti işğal altındakı Azərbaycan ərazilərində məskunlaşmanı davam etdirir. Belə ki, Qubadlı rayonunun "İşxanadzor" adlandırılmış Xanlıq kəndində 52 yeni tikilmiş ev qanunsuz sakinlərin istifadəsinə verilib. "İcma rəhbəri" Arsen Telunts deyib ki, hazırda Xanlıqda 600 erməni yaşayır və oktyabrın 21-də daha 30 nəfər kənddə yaşamaq arzusunu bildirib. Bu mənada Azərbaycanın ordu rəhbərliyinin atdığı addımlar tam məntiqlidir. Belə ki, Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov general-leytenant Qadi Ayzenkotun dəvəti ilə oktyabrın 23-də Tel-Əvivə yola düşüb. Hərbi ekspert Şair Ramaldanov bu səfəri yüksək qiymətləndirib və bunun iki ölkə arasındakı hərbi-texniki əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyini qeyd edib. Ermənistanın davranışları bir daha təsdiqləyir ki, Qarabağda son sözü ordumuz deyəcək...

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018

# Partiya sədrinin "Rus dilinin tədrisi konstitusiyamıza ziddir" iddiasına reaksiya

## Tahir Kərimli: "Bu qanunda birbaşa yazılır ki, Azərbaycanda tədris dövlət dilində aparılır"

**Azərbaycanda rus dili müzakirələri səngimək bilmir. Valideynlərin övladlarını orta təhsil üçün rus sektorlarına qoymağa üstünlük verməsi, vətəndaşlar, hətta dövlət müəssisələrində çalışanlar arasında ana dilimizlə yanaşı rus dilindən də istifadə hallarının olması ciddi şəkildə qınanır.**

Bütün bunlarla yanaşı, rus dilinin insanlar qarşısında geniş imkanlar açdığı yöndə də fikirlər səslənir. Xüsusilə postsovet məkanı üçün bu dili bilməyin vacib olduğu vurğulanır.

**Son olaraq, gecən müzakirələrdə ADP sədri Sərdar Cəlaloğlunun fikirləri diqqət çəkib. Partiya sədri rus dilindən istifadənin Azərbaycan Konstitusiyasına zidd olduğunu bildirib. Sitat:** "Rusiya xarici dövlətdir və dünyanın heç bir ölkəsində xarici dövlətdən müəllimlər dəvət edib, həmin müəllimlərin dərs deməsi nümunəsi yoxdur. Azərbaycan Konstitusiyasında Azərbaycan dili dövlət dili elan olunub. Ona görə Azərbaycanda heç bir dövlət müəssisəsi, o cümlədən məktəblər rus dilində dərs keçə bilməzlər. Bu, konstitusiyaya ziddir. Rus dili öyrənmək başqa şeydir, rus dilində təhsil başqa şeydir. Rus dilində təhsil Azərbaycanın müstəqilliyinə və suverenliyinə zidd bir hərəkətdir".





Məsələ ilə bağlı Ali Məhkəmənin keçmiş sədri, Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimlinin fikirlərini öyrəndik. Hüquqşünas "Yeni Müsavat"a bunları dedi: "Azərbaycanda rus dilinə qarşı deyil, rus müstəmləkə təfəkkürünə qarşı mübarizə aparmaq lazımdır. Milli Məclisdə bununla bağlı iki dəfə məsələ qaldırmışam. Azərbaycanda dövlət dilində danışmaq bir şərtdir. Bütün müəssisələrdə bu dildən istifadə mütləqdir. Amma bəzi istisna halların olduğunu da unutmayaq. Məsələn, məhkəmədə insan öz dilində danışa bilər, lakin o, mütləq tərcümə olunmalıdır. Tədris məsələsinə gəlincə, Azərbaycanın təhsil qanunu var. Bu qanunda birbaşa yazılır ki, Azərbaycanda tədris dövlət dilində aparılır. Amma o da yazılır ki, zəruri hallarda başqa dillərdə aparıla bilər. Yəni təhsilin, tədrisin Azərbaycanda aparılmasının dövlət dili ilə birbaşa əlaqəsi yoxdur. Ölkəmizdə müxtəlif dillərdə məktəblər də ola bilər. Bütün dünya ölkələrində müxtəlif dilli məktəblər var. O cümlədən Azərbaycanda da rus, ingilis və müxtəlif dillərdə mövcud olan məktəblər var. Onu da unutmayaq vaxtilə Azərbaycan bu dil vasitəsilə müsəlman dünyasında 350-dən çox ilkə imza atıb. Bu baxımdan rus dili ilə mübarizə yel dəyirmanı ilə mübarizə kimi bir şeydir. Yaşlı insanlarımızın hamısı rus dilində təhsil alıblar, 90% kitablarımız bu dildə olub. İndi bizim, yaxud bu kitabların üstündən xətt çəkilməlidir?"

**Deputat onu da bildirdi ki, rus qafasına qarşı mübarizə vacibdir:** "Sizin qəzetinizə açıqlamalarımın birində bildirmişdim ki, Qandi ingilisdilli idi. O, ingilislərlə birlikdə Hindistanın istiqlalına qələbə qazandırdı. Bu o demək deyil ki, Qandinin hind təfəkkürü yox idi. Ola bilər ki, bizdə rusdillilər olsun, amma onlar tamamilə milli təfəkkürün daşıyıcılarıdır. Öz dövlətlərini çox sevirlər. Azərbaycanda başqa dilləri bilən insanların yetişməsi vacibdir. Bundan qorxmaq lazım deyil. Amma haradakı milli ideyanın əleyhinə, azərbaycançılıq məfkurəsinə qarşı mübarizə varsa, o zaman vacib addımlar mütləq atılmalıdır. Başqa dilə meyl etmək, süni şəkildə başqa dili təbliğ etmək və öz dilini zəiflətmək kimi tendensiyalar varsa, bunun qarşısı mütləq alınmalıdır. Çünki bu dövlət dili haqqında qanuna ziddir. Amma təhsil haqqında qanun başqa dildə tədrisə imkan verir. O cümlədən, rus dilində tədris qanuna zidd deyil. Bu dillə mübarizə aparmaq mənasız bir şeydir. Dünyada 250 milyona yaxın insan rus dilində sərbəst danışa bilir. Bu insanlara qarşı mübarizə aparmaq nə verə bilər? Təkcə rus dilinin deyil, başqa istənilən dilin öyrənilməsi Azərbaycan məfkurəsinə, ideyalarına qarşıdırsa, ona imkan vermək olmaz. Qalan hallarda başqa dillərin tədrisinə normal baxıram. Bir faktı deyim. Milli-azadlıq hərəkatından sonra şəxsən mən uzun müddət rus dilindən kənarda qaldım, yəni bu dildə danışmırdım. Övladlarımız hətta məktəblərə gedəndə rus dilini öyrənmirdilər ki, bu dil imperiya dilidir. Bütün bunlar nəyə görə olur? Ona görə olur ki, millətin içində daim qorxu olur, müstəqilliyimizi yenidən itirərik deyə. İnsanları qınamıram. Çünki Rusiya qorxusu bizdə daim var. Rus dilinin təbliğini insanların imperiyanın təbliği kimi qəbul etmələri də normaldır. Amma artıq bu məsələlər ötüb keçib. İnsanların başqa dillərə üstünlük verən şəxslərə sərgilədikləri sərt mövqeləri də anlamalıyıq. Deməli, insanlarımız vətənləri üçün narahatdırlar, onun milli-mənəvi dəyərlərini diqqətdə saxlayırlar".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# Ərəblər baş kəsməyə meyllidir, çünki...

## Kənan Rövşənoğlu: "Səhra ərəblərinin qəddar davranışları çöl sərtliyi və ənənələrə dayanır"

**Səudiyyə Ərəbistanından olan müxalif jurnalist Camal Qaşıqçının cəsədi İstanbulda quyuda aşkar edilib. Məlumata görə, cəsəd Səudiyyə Ərəbsitanının İstanbuldakı baş konsulluğunun ərazisindəki quyuda tapılıb. Xatırladaq ki, Qaşıqçı oktyabrın 2-də sənəd almaq üçün İstanbulda yerləşən Səudiyyə Ərəbistanı konsulluğuna daxil olduqdan sonra yoxa çıxıb.**



Amma jurnalistin yoxa çıxdığı gündən etibarən onun qətlə yetirilməsi və bu hadisənin təfərrüatları ilə bağlı xeyli məlumatlar yer alıb. Həmin məlumatlardan birində qeyd edilib ki, baş konsul Məhəmməd Uteybi jurnalist C.Qaşıqçının konsulluğun binasından kənarda öldürülməsini istəyib. Bu, Krallığın İstanbuldakı baş konsulluğunda jurnalist Camal Qaşıqçının qətlə yetirilməsi zamanı qeydə alınan səs yazısında aşkar edilib: "Konsulluğa sənəd almaq üçün gedən C.Qaşıqçının orada sorğu-sual zamanı işgəncə verilərkən əvvəlcə barmaqları qoparılıb, ardından isə başı kəsilərək öldürülüb. Səs qeydinə görə, işgəncə verilərkən baş konsul Məhəmməd Uteybi buna etiraz edib. Deyib ki, bunu konsulluqdan kənarda edin, mənim başıma iş açacaqsınız. Başqa bir səs qeydində isə kimsə baş konsulu hədələyir: "Səudiyyə Ərəbistanına gələndə yaşamaq istəyirsənsə, sus"".

"Al-Jazeera" telekanalı isə bildirib ki, C.Qaşıqçı baş konsulun otağında öldürülüb və meyiti 7 dəqiqədə parça-parça edilib. Meyitin parçalanmasını Səudiyyə Ərəbistanının patoloji anatomiya mütəxəssisi Salah Mohammed al-Tubaigy həyata keçirib. O, bu işi icra edərkən yanındakılara musiqi dinləməyi tövsiyə edib.

Bu faktlar və ardınca meyitin quyudan tapılması yetərincə ciddi müzakirə doğurub. Müzakirələrdə daha çox "ərəb vəhşiliyi" məqamı vurğulanır. Xüsusən də Azərbaycana son zamanlar axın edən ərəblərin fonunda mövzu daha çox həssaslıq qazanıb. Ərəblərdə bu aqressiya, kəsməyə, boğmağa, qan tökməyə olan meyl nədən irəli gəlir? İlkin rəy adətən belə olur ki, ərəblərdə məsələlərə maksimalist yanaşma hər zaman hakimdir. Sevgidə də, nifrətdə də hər şeyi maksimum həddə yaşamağa meyl özünü göstərir. "Leyli və Məcnun" bunun tipik örnəklərindəndir. Ya sevgi, ya da ölüm. Nirvanaya yüksəlmək, hissləri ülviləşdirmək, uc nöqtələrdə yaşamaq. Ərəblər üçün terror etmək də, adam öldürmək də bir çox hallarda cənnətə gedən yolda bir addım hesab edilir. Bunu daha çox ərəblərin tayfa ənənəsi ilə əlaqələndirmək mümkündür.

Bundan başqa, ərəblər üçün xarakterik olan bir məqam da vendettadır. Maksimalist yanaşma, qisasçılıq, "gözə göz, dişə diş" prinsipi. Yanaşmalardan biri odur ki, bunu İslamla əlaqələndirmək olmaz. Din müəyyən mənada bu qisasçılığın qarşısını alıb. Amma bu, həm də ərəb psixologiyasının dərin qatlarında özünə yer tapıb. Hətta bir dəfə Bakıdakı diplomatik korpus nümayəndələrindən biri ərəbləri anlamaq üçün "Leyli və Məcnun"u izləmənin vacib olduğunu deyib. Çünki orada ərəblərin sevgiyə də, insani münasibətlərə də yanaşması çılpaq şəkildə özünü göstərir.

**Dini ekspert Kənan Rövşənoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Qaşıqçının hansı formada öldürüldüyü, öldürüldükdən sonra həqiqətən, medianın yazdığı kimi, doğranması məsələsi dəqiq deyil. Müsahibimiz müşahidələrinə əsasən hesab edir ki, bu cür məlumatlar bir mənada Ər-Riyada jurnalistin cinayətini etiraf etməsi üçün təzyiq idi:** "Çünki ilk günlərdə Ərəbistan hakimiyyəti jurnalistin qətlini gizlətməyə çalışırdı. Əgər təsdiqlənsə, mümkündür ki, cəsədi konsulluqdan çıxarmaq üçün parçalayıblar. Türkiyəli istintaqçının dediyi kimi, "Kriminal qiraət" filmi formasında bir hadisə olub. Ancaq ümumilikdə Şərq xalqlarında qəddar edamlar qorxu yaratmaq məqsədi daşıyıb. Yəni qatil və ya qətli sifariş verən insan bununla cəmiyyətə çox qəzəbli olduğu, amansız ola biləcəyi mesajını verir. Bir mənada başqalarının bu adamın aqibətindən ibrət alması üçün. Təbii ki, arxaik, sivil dünya qanunları ilə ayaqlaşmayan ölkələrdə bu qayda, necə deyərlər, hələ də qalır. Daha əvvəl padşaha asi olanları edam edir, şaqqalayıb şəhərin girişlərində və ya bazar meydanında asırdılar ki, hər kəs onun aqibətindən özünə dərs alsın. İndi də eyni metodu, görünür, yaşadırlar. Ərəbistanda, bildiyiniz kimi, bəzi cinayətlərə görə edam cəzaları hələ də var".

**K.Rövşənoğlu xatırlatdı ki, bəzi cinayətləri törədənlərin boynu vurulur. Bu da qədim ənənələrə, bir də şəriət göstərişlərinə əsaslanır:** "Burada qəddarlıqdan daha çox ənənəyə istinad əsas məsələdir. Çünki hər xalqın tarixində cinayətkar edam edib, ancaq əksər xalqlar artıq bu edamları tarixdə buraxıb, necə deyərlər, müasir metodlara keçib. Ya iynə vurmaq, asmaqla edam edirlər, ya da elektrik stulu ilə. Ərəblərə gəldikdə, ərəb anlayışı çox genişir, Mərakeşdən İraqa qədər böyük bir coğrafiyanı əhatə edir. Səhra ərəblərinin qəddar davranışlarının arxasında həm də çöl sərtliyi və dediyim kimi, ənənələrə istinad dayanır".

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018

# Bakının "tıxanan" kanalizasiya problemi

## Ekspert bildirir ki, Bakı ətrafındakı yaşayış ərazilərinin kanalizasiya sistemi 10 ilədək vaxt, 10-11 milyard manat vəsait tələb edir

**Bakı şəhərinin kanalizasiya sistemi ilə əhatə səviyyəsi müasir dünya standartlarından xeyli geri qalır. Xüsusilə paytaxtın ətrafında yerləşən qəsəbələrdə, onlara yaxın ərazilərdə salınan yeni yaşayış sahələrində kanalizasiya ən ciddi problemlərdən biridir.**

Yüz minlərlə evin tullantı suları həyətlərdə qazılmış quyulara axıdılır. Bu isə müxtəlif ərazilərdə qrunt sularının səviyyəsinin artmasına, torpağın aşınmasına səbəb olur. Təsadüfi deyil ki, son illərdə Bakının bütün sürüşmə zonalarında aktivləşmə qeydə alınıb. Nəzərə alsaq ki, son illərdə iqlim şəraitində ciddi dəyişikliklər qeydə alınıb, yağıntıların miqdarı azalıb, onda sürüşmə zonalarındakı bu aktivləşmənin əsas səbəblərindən biri kimi yeraltı suların səviyyəsinin artmasının çıxış etdiyini təbii qarşılamaq lazımdır. Bu günlərdə Badamdarda baş verən sürüşmə göstərdi ki, torpağa axıdılan sular itmir, əksinə, toplanaraq zəif nöqtələrdən "vurur".



Bakı şəhərində kanalizasiya sisteminin tarixi XX əsrin əvvəllərindən başlayır. Bakıda kanalizasiya sisteminin yaradılmasına çar Rusiyası dövründən cəhd edilsə də, buna nail olunmayıb. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra kanalizasiya problemi aktuallaşıb. 1923-cü ildə Bakı Sovetinin tərkibində texniki-kanalizasiya bürosu yaradılıb, tanınmış mühəndis Mark İosifoviç Atlasın "Ayrılmış kanalizasiya sistemi" layihəsi əsasında 1924-cü ildə tikinti işlərinə başlanıb. Beləliklə, 1930-cu ildə Bakı şəhərinin ilk mütəşəkkil kanalizasiya sistemi qurulub. Təxminən 40 ildən sonra, 1972-ci ildə əhalinin 2000-ci ilə qədər perspektiv artımı nəzərə alınaraq, Bakının "Böyük kanalizasiya" layihəsi işlənir və qısa müddətdə tikinti işlərinə başlanılır. Bu müddətdə Hövsan Aerasiya Stansiyası, 1, 2, 3 və 4 saylı kanalizasiya nasos stansiyaları, "Sənaye zonası", "Şəhərkənarı-Tunel" və "Sahil" tunel kollektorları tikilib istifadəyə verilir. Bunların nəticəsində Bakıda yaranan çirkab suların 85 faizə yaxını toplanaraq təmizləyici qurğularda təmizləndikdən sonra dənizə axıdılır. Lakin 1991-ci ildə maliyyə çatışmazlığı üzündən "Böyük kanalizasiya" layihəsi üzrə tikinti işləri yarımçıq dayandırılıb. Yalnız 2006-2007-ci illərdə paytaxtın kanalizasiya şəbəkəsində yenidənqurma layihələrinə start verilib. "Azərsu" ASC-nin məlumatına görə, bu işlər çərçivəsində həyata keçirilən ən böyük layihə "Hövsan Təmizləyici Qurğular Stansiyası, 2 saylı Zığ Nasos Stansiyası və Əsas Ötürücü Kanalizasiya kollektorlarının yenidənqurulması və genişləndirilməsi" layihəsi olub. Bu işlər Fransa hökumətinin ayırdığı 35 milyon avro kredit və Azərbaycan büdcəsindən ayrılmış 44,9 milyon manat vəsait hesabına görülüb. Nəticədə Hövsan Təmizləyici Qurğular Stansiyasının məhsuldarlığı 480 min kubmetr/sutkadan 640 min kubmetr/sutkaya qədər artırılıb.

Hazırda Bakı şəhərində ayrılmış kanalizasiya sistemi mövcuddur. Kanalizasiya şəbəkəsi çox az keramik, beton, asbest-sement, çuqun, dəmir-beton borulardan və tunel şəkilli kollektorlardan ibarətdir. Təsərrüfat-məişət kanalizasiya xətlərinin ümumi uzunluğu 1500 kilometrdən bir qədər artıqdır. Bundan başqa, Bakı şəhərində ümumi uzunluğu 156 kilometr olan yağış kanalizasiya xətləri mövcuddur.

Ümumilikdə gün ərzində kanalizasiya xətlərindən axıdılan tullantı sularının həcmi 1 milyon kubmetrdən çoxdur. Bakı şəhərində mövcud olan 72 kanalizasiya nasos stansiyasının sutkalıq məhsuldarlığı 1 milyon kubmetrə yaxındır.

Bir neçə il əvvəl "Azərsu" ASC tərəfindən "2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Abşeron yarımadasının qəsəbə və kəndlərində su təchizatı, kanalizasiya sistemləri və yağış sularının idarə olunması üçün Master Plan hazırlanıb. Sənədin hazırlanması zamanı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin "Böyük Bakının Regional İnkişaf Planı", Dövlət Statistika Komitəsinin və digər qurumların məlumatları nəzərə alınıb. ASC bildirir ki, 18 bölmədən ibarət olan Master Plan hazırlanarkən şəhərsalmanın inkişafı, əhalinin artımı və sıxlığı, turizmin inkişafı, təmizlənmiş çirkab suların təkrar istifadəsi, ekoloji tarazlıq və digər amillər əsas götürülüb.

Master Planın hazırlanması ilə paralel olaraq görüləcək işlərin layihələndirilməsinə də başlanılıb. Belə ki, su təchizatı sistemində 550 kilometr magistral su kəməri, 8100 kilometr su şəbəkəsi, ümumi həcmi 650 min kubmetr olan 65 su anbarı, məhsuldarlığı sutkada 1 milyon 300 min kubmetr olan 2 mərkəzi su nasos stansiyası layihələndirilib.

Kanalizasiya sistemində Abşeron yarımadası 11 hövzəyə bölünməklə məhsuldarlığı sutkada 1 milyon 400 min kubmetr olan 11 ədəd çirkab sutəmizləyici qurğu, 140 kilometr kanalizasiya tunelləri, 680 kilometr kanalizasiya kollektorları, 6400 kilometr kanalizasiya şəbəkəsi layihələndirilib.

ASC-dən kanalizasiya sistemində həyata keçiriləcək işlərin ümumi dəyərini açıqlamasalar da, müxtəlif zamanlarda bununla bağlı ekspert rəyləri səsləndirilib. Bu rəylərdə Bakı və ətrafının keyfiyyətli kanalizasiya xidməti ilə tam əhatə olunması üçün bir neçə on milyard manatın tələb olunduğu qeyd edilir. Hətta bəzi ekspertlət söhbətin 40 milyard manatın üzərində olan rəqəmdən getdiyini iddia edirlər. Lakin məsələ ilə bağlı "Yeni Müsavat"a danışan mütəxəssisin dediyinə görə, əslində belə şişirdilmiş rəqəmlərin səsləndirilməsi bu məsələdə marağı olan tərəflərin işidir: **"Kanalizasiya tikintisi həqiqətən çox vəsait tələb edən sahədir. Lakin deyildiyi qədər də yox. Bakının yerləşdiyi ərazi imkan verir ki, çirkab suları öz axını ilə axması şərtilə dəniz kənarında yaradılacaq təmizləyici qurğulara ötürülsün. Burada əsas məsələ çirkab suların toplanaraq ötürülməsi üçün xəttin çəkilməsidir. Bu gün əsas problem Bakı ətrafındakı qəsəbələrdə və yeni salınan yaşayış məskənlərindədir. Onların mərhələli şəkildə kiçik təmizləyici qurğulara yönləndirilməsi mümkündür. Bu gün Bakıda əsas ağırlıq Hövsandakı qurğunun üzərindədir. O, çox böyük qurğudur. Belə iri qurğulardansa, xırda və mobil qurğuların quraşdırılmasına üstünlük verilməlidir".**

Müəyyən səbəblərdən adının çəkilməsini istəməyən müsahibimiz deyir ki, bu gün Bakıda əsas güc su təchizatı məsələsinə yönəldilib: **"Yeni-yeni ərazilərə su çəkilir, bu, çox yaxşı. Amma kanalizasiya sistemi olmayan ərazilərə verilən suyun bir çıxacaq yeri də olmalıdır axı. Hamıya elə gəlir ki, torpaq suyu birdəfəlik udur. Belə deyil axı. Torpağa axıdılan sular hardansa qayıdıb üzə çıxmalıdır. Bakının bir sıra rayonlarında çökək ərazilər var ki, digər yerlərin suları da ora axır. Sabunçu, Suraxanı və sair. Təbii maililik nəticəsində quyulara axıdılan sular bu ərazilərdə toplanır, bir qədər yağış yağan kimi üzə çıxır. Yaxud da torpağın alt qatlarını aşındırır, üst hissədə ağırlıq artan kimi sürüşmə baş verir".**

Ekspert bildirir ki, Bakı ətrafındakı yaşayış ərazilərinin kanalizasiya sistemi ilə əhatə olunması on ilədək vaxt, indiki qiymətlərlə hesabladıqda, 10-11 milyard manata yaxın vəsait tələb edir: **"Bir zamanlar Bakının elektrik şəbəkəsinin müasirləşdirilməsi üçün də eyni qaydada on milyardlarla manatın tələb olunduğunu deyirdilər. Amma özəl şirkət gəldi və bu işi 500-600 milyon manata rahatlıqla icra elədi. Buna görə də kanalizasiya sistemi üçün də özəl sektorun yatırımlarından istifadə edilməlidir".**

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

# Komitə sədri açıqladı: özünə əvvəldən qəbir yeri düzəltmək yasaqlanır

## Mübariz Qurbanlı: "Yalnız vəfat edən qadın öncədən vəsiyyət edərsə, əri üçün onun yanında yer saxlanılacaq"

**İslam dini buyurur ki, məzar, qəbir itməlidir, məzarlar, qəbirlər fərqlənməməlidir. Amma bizdə bir az fərqlidir. Ona görə də Azərbaycanda məzarlarla, məzarlıqlarla bağlı yeni qaydaların tətbiqi nəzərdə tutulur.**



Bunu oxu.az-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

Komitə sədri qeyd edib ki, bu yöndə məsələlərin tənzimlənməsi üçün öncə qanun layihəsinin hazırlanması və parlamentə təqdim olunması nəzərdə tutulsa da, sonradan fikir dəyişilib, məzarların, məzarlıqların qaydalarla tənzimlənməsi daha məqsədəuyğun sayılıb: "Çünki qanunla bu məsələni tənzimləmək olmaz, bunu ancaq qaydalarla tənzimləmək olar. Düzdür, indi də məzarlarla, məzarlıqlarla bağlı qaydalar var, mövcuddur, amma orada bəzi məsələlər yoxdur, öz əksini tapmayıb. Odur ki, yeni qaydaların tətbiqinə ehtiyac yaranıb. Qeyd edim ki, qaydalar üzərində xeyli müddət işlər gedib, burada bizim komitə ilə yanaşı, Qafqaz Müsəlmanları İdarəsi, İqtisadiyyat Nazirliyi də birgə fəaliyyət ortaya qoyub.

Bu məsələ Nazirlər Kabinetində, baş nazirin müavini Əli Əhmədovun yanında da müzakirə olunub. İndi onun təsdiqi qalır və məlumatlara görə, yeni qaydaların qəbulu, tətbiqi mümkün olacaq".

**Komitə sədri qeyd edib ki, təsdiqlənəcəyi və tətbiqinə başlayacağı təqdirdə, yeni qaydalar ancaq yeni salınacaq məzarlıqlara, məzarlara şamil olunacaq.**

"Əvvəlki qəbirlərin, məzarların, məzarlıqların heç birinə toxunulmayacaq. Bəzən belə sözlər eşidilir, yəni kimlərsə əsası olmadan deyirlər ki, bəs necə olacaq, məzarı dəmir hasara almışam, sökəcəklər, filan. Belə bir şey yoxdur, heç nəyə toxunulmayacaq. Bu, sadəcə, yeni salınacaq məzarlıqlar, məzarlar üçün nəzərdə tutulur. Yəni məzarlar məzar daşı, sinə daşı və baş daşından ibarət olacaq.

Ölçülər göstəriləcək, məzarların, qəbirlərin biri digərindən hündür olmayacaq. Eyni və iki standart olacaq. Ölü, dəfn sahibi bu iki standartdan birini seçəcək, seçim edəcək. Yanbayan məsafə, məzarlıqla yaşayış məntəqəsi arasındakı məsafə müəyyən ediləcək.

Kimsəsiz insanların dəfni, şəhidlərin dəfni, eyni zamanda məzarlıqların idarəçiliyi bələdiyyələrin balansında olacaq. Dini Komitə məzarlıqların yalnız reyestr xidmətini göstərəcək. Məzarlıqlarda, qəbiristanlıqlarda "ailə məzarlığı" məsələsinə son qoyulacaq.

Çünki insanlar var ki, ölməmişdən qabaq gedib özləri, yaxınları üçün məzar, qəbir yeri götürür, böyük bir ərazini hasarlayır. Yeni qaydaların tətbiqindən sonra heç bir əlavə yer götürməyə icazə verilməyəcək. Yalnız vəfat edən qadın öncədən vəsiyyət edərsə, əri üçün onun yanında yer saxlanılacaq, yaxud ər vəsiyyət edərsə, arvadı üçün yanında yer saxlanılacaq. Başqa kimsəyə icazə verilməyəcək.

Dünyanın əksər yerlərində məzarlıqlara girəndə məzarların hamısı eyni görünür, bizdə isə fərqlidir, bu fərq aradan qaldırılacaq. Bir daha qeyd edirəm ki, bunlar yeni qaydalar təsdiqlənəndən və onların tətbiqinə başlandıqdan sonra mümkün olacaq", - deyə komitə sədri əlavə edib.

# Bakıda sürüşmə zonalarında son durum: ən çətin vəziyyət Bayıldadır

## Sakin: “Sürüşməni ağırlaşdıran hallara münbit şərait yaradırlar”

**Badamdarda sürüşmə sahəsində gərgin vəziyyət hələ də davam edir. Bu barədə “Yeni Müsavat”a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji Planlama Ekspedisiyasının rəisi Əziz Qaralov məlumat verib. O bildirib ki, hazırda sürüşmə zonasının üzərində xırda uçqun prosesləri davam edir:**



“Sürüşmə zolağının sağ və sol hissəsində qeydə alınan çatların parametrlərində nisbi artım qeydə alınıb. Sürüşmənin yuxarı hissəsində yerləşən fərdi yaşayış evlərinin hasarlarında quraşdırılmış mayaklarda dəyişiklik müşahidə olunmayıb. Lakin onu da qeyd edim ki, sürüşmə artıq ərazidəki evlərin tam yaxınlığındadır. Süxurlar olduqca nəmlidir və vertikal sürüşüb”.

**Ekspert Əzim Məsimov “Yeni Müsavat”a açıqlamasında bildirmişdi ki, Bakıda növbəti sürüşmə zonası Xocasən ərazisində baş verəcək. Ekspertin sözlərinə görə, buna səbəb Xocasən gölü kimi tanınan kanalizasiya sularının toplandığı yerdir. Əziz Qaralov söylədi ki, hazırda həmin ərazidə hansısa sürüşmə faktı qeydə alınmayıb:** “Xocasəndə bizim sürüşmə yeri yoxdur. Doğrudur ki, Xocasən gölü daşır, yağıntılar olan zaman ərazini basır. Əvvəllər həmin gölün suyu dənizə axıdılırdı. İndi isə gölün səviyyəsi qalxır. Axar olsaydı bu, daha uyğun idi. Müraciətlər bizə subasmalarla bağlı olurdu. Ancaq hələ ki həmin ərazidə sürüşmə faktı yoxdur”.

Həmçinin Zığ şosesində də sürüşmə aktivdir. Orada da sürüşmənin qarşısını almaq üçün bərkitmə işləri aparılır.

Bu ərazilər barəsində hər gün mətbuatda materiallar dərc olunur, müvafiq qurumlar tərəfindən açıqlamalar verilir. Lakin Bayıl ərazisi demək olar ki, unudulub.

**“Yeni Müsavat”a danışan Bayıl yamacındakı sürüşmə zonasında yaşayan sakin Elməddin Muradlı bildirib ki, artıq camaat öz evlərinə qayıdıb, dövlət isə kirayə pullarını kəsib:** “Keçən həftənin axırında yığışıb, icra hakimiyyətinə getdik ki, heç olmasa qazı versinlər. Çünki hava soyuyub. Dedilər ki, heç bir evə qaz verilməyəcək, verilənlərin də qazını gəlib kəsəcəklər. Səbayel Rayon İcra Hakimiyyəti və Nazirlər Kabinetinin aidiyyəti qurumları sanki camaatı ələ salırlar. Hələ fevral ayında ailələri kirayə köçürən zaman deyirdilər ki, yaxın zamanlarda yekun qərar veriləcək. Artıq hadisənin üstündən 8 ay keçib, yenə də eyni şeyi deyirlər. Bildirirlər ki, gedin kirayədə qalın, sonrasına baxacağıq. Bu nə deməkdir axı? Təxminən 6 ailədən başqa hər kəs kirayə mənzillərdən çıxıb, öz evinə gəlib. Onların da kirayə pulları kəsilib. Heç kim də kirayə pulunu tələb etmir. Orada yaşayan insanların hamısı zəhmətkeş adamlardır. Kirayə pulu olmayanda bəyəm acından ölürdülər? Sadəcə, insanları gərginlik altında saxlamaq doğru deyil. Bizi narahat edən məsələ budur. Bizdə olan məlumata görə, məmurların qəti fikri budur ki, Bayılı köçürsünlər. Sürüşməyə əsas səbəb olan sudur, kanalizasiya xətləridir, ancaq hələ də orada su küçəyə axıdılır. Bu proses bir gün də dayanmayıb. Yaxşı, əgər sakinlərin qayğısına qalırlarsa, nə üçün sürüşmənin qarşısını almaq üçün bu xətləri bərpa etmirlər? O küçələrdən hər gün su axır. Sürüşməni ağırlaşdıran halların hamısına münbit şərait yaradırlar. Deməli, konkret məqsədləri budur ki, ərazini köçürsünlər. Artıq camaat bezib. Deyirlər ki, köçürsəydilər, bu mənəvi əzabdan canımız qurtarardı”.

**Sakinlər bildirirlər ki, Eldar Əzizov onlara 3 ay ərzində yekun qərara gələcəklərini söyləyib. Lakin hazırda susur:**

“Eldar Əzizovun hazırda Səbayel Rayon İcra Hakimiyyətinə qalan keçmiş iş yoldaşları isə bizə deyirlər ki, sizi gəlib yenə də kirayə mənzillərə köçürəcəyik, sonra fikirləşəcəyik ki, nə edək. Bu nə oyundur? Məktəbə gedəni, yası düşəni, toy edəni var. Camaat çətin durumdadır. Köçürmək istəyirlərsə, konkret qərar versinlər. Mətbuatda sakinlərin şikayəti gedən kimi gəlirlər ki, işığınızı, qazınızı kəsəcəyik, danışmayın. Hətta bəzi məmurlar gəlib, su, işıq xəttini qoşmaq üçün sakinlərdən pul da istəyib. İnsanların çətin anında bu cür əməllərlə məşğul olmaq anlaşılmazdır. Orada yaşayanların əksəriyyəti məcburi köçkünlərdir. Bu adamlar keflərindən orada yaşamırlar. Zülümlə ev tikib, ərazidə məskunlaşıblar. İndi də gedəcək rayonları, başqa evləri yoxdur. Bunu dərk etmək çətin məsələdir?”

❑ **Əli RAİS, “Yeni Müsavat”**

# “Pambığın sahədə qalması fermerin məsuliyyətsizliyidir”

## KTN rəsmisi iddialara cavab verdi



**Azərbaycanda pambıq yığımının qızğın çağı olan bu günlərdə sosial şəbəkələrdə bu proses barədə müxtəlif məlumatlar yayılmaqdadır. Bir sıra sosial şəbəkə istifadəçiləri məhsul bol olsa da, rayonlarda pambığın sahələrdə qaldığını və yığılmadığını bildirirlər.**

Məsələn, **iqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu** bildirir ki, ki, neftin qiyməti bahalaşdığına görə pambığa maraq azalıb: “Beyləqandan verilən məlumata görə, pambıq sahələrdə tökülüb, yerdə qalaraq, çürüyür və zay olur. Alış qiymətinin aşağı olmasına görə yerli əhali pambıq yığmağa maraq göstərmir. Hazırda pambığın hər kiloqramını yığmağa görə əhaliyə maksimum 15 qəpik ödənilir”.

Q.İbadoğlunun yazdığına görə, Salyan Rayon İcra Hakimiyyətində bələdiyyələrin və yerli icra nümayəndələrinin iştirakı ilə keçirilən toplantıda icra başçısı pambıq yığımına əhalinin marağının olmamasından gileylənib və təklif edib ki, yığıma səhiyyə və təhsil müəssisələrinin texniki işçiləri məcburi qaydada cəlb edilsin. Bu rayonda kombaynların çatışmazlığı da müzakirə mövzusu olub: “Bir məlumatı da qeyd edim ki, əllə yığılan pambıq maşınla yığılandan daha təmiz olduğuna görə fermerlər pambığın maşınla toplanmasına çox da maraq göstərmirlər. Çünki maşına toplanan pambığın çirklilik dərəcəsi yüksək olduğundan sortu MTK-lar tərəfindən aşağı yazılır və bunun da nəticəsində pambığın alış qiyməti də ucuzlaşır”.

**İqtisadçı-alim həmçinin Sabirabadda gələn il üçün məcburi pambıq əkini müqavilələrinin indidən bağlandığını, məktəblərin texniki işçilərinin məcburən pambıq yığımına cəlb olunduğunu qeyd edir:** “Pambıq yığımı mövsümü pambıq mövzusunu xeyli aktuallaşdırıb. Regionlardan çoxsaylı məlumatlar daxil olmaqdadır. Verilən məlumata görə, Sabirabad rayonun Ulacalı kəndinə yeni təyin olunmuş icra nümayəndəsi Mehman Cəfərov 21 oktyabr 2018-ci ildə əkinçiliklə məşğul olan sakinləri iclasa toplayaraq onların boynuna gələn il pambıq əkmək öhdəliyi qoyub və məsələni yerindəcə rəsmiləşdirərək məcburi qaydada müqavilə imzalatdırıb. Mehman Cəfərov iclasda deyib ki, analoji müqaviləni sabah kənd məktəbinin müəllimlərinə də bağlatdıracaq. Sabirabad rayonunun icra başçısı adından danışan kənd icra nümayəndəsi pambıq əkmək öhdəliyinə riayət etməyib qarpız, taxıl, yonca və sair əkənlərin sahələrinə traktor salaraq şumlatdıracağını deyərək onları hədələyib”.

Bu rayondan gələn digər məlumatda adının çəkilməsini istəməyən fermer bildirib ki, Sabirabad rayonu Cavad kəndində bu il pambığın məhsuldarlığı çox aşağı olub. Fermer əllə yığılan pambığın hər kiloqramına maksimum 15 qəpik ödədiklərini yazır: “Onsuz da məhsuldarlıq aşağıdır, zərərə düşəcəyik”. Fermerin dediyinə görə, kənddə həyat səviyyəsi aşağı olduğuna, işsizliyin mövcudluğuna görə əhali bu qiymətə pambıq yığmağa könülsüz də olsa razılaşır, çünki işləmək üçün başqa imkan yoxdur. Fermer kənd məktəbinin texniki işçilərinin məcburən pambıq yığımına cəlb olunması faktını da təsdiqləyib.

Bu rayondan aldığım sonuncu məlumata görə, Sabirabad pambıq zavodu xərclərinin artdığını əsas gətirərək traktorçulara verilən günorta yeməyini ləğv edib. Bundan xəbər tutan traktorçular etiraz edərək bir neçə saatlıq işi dayandırıblar. Ancaq etirazlar və danışıqlar bir fayda verməyib, zavoddan traktorçulara verilən günorta yeməyini bərpa etməyəcəklərini bildiriblər".

**Kənd Təsərrüfatı Nazirliyinin (KTN) İctimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Vüqar Hüseynov isə bildirir ki, “əgər hansısa sahədə pambıq yığılmırsa, bu, fermerin günahı, səriştəsizliyidir”. “Yeni Müsavat”a danışan nazirlik rəsmisi qeyd edib ki, pambıq əkini gəlirli sahədir və onu əkən fermerlər yetərincə qazanc əldə edirlər:** “Cənab prezidentin tapşırığı əsasında ötən ay Kənd Təsərrüfatı Nazirliyi və İqtisadiyyat Nazirliyinin nümayəndələri pambıq emalı müəssisələrinin rəhbərləri ilə görüş keçirdi və nəticədə emal müəssisələri ilə xam pambığın alış qiymətinin 50 manat artırılması haqqında qərar qəbul olundu. Yeni qiymətlərə əsasən, emal müəssisələri birinci növ pambığın bir tonunu 650 manatdan alır. Bundan başqa, dövlət emal müəssisələrinə təhvil verilmiş hər ton pambığa görə 100 manat subsidiya ödəyir. Hər hektardan orta hesabla 30 sentner məhsul yığılırsa, bu, təxminən 2250 manat pul deməkdir. Kim bu qazancdan imtina edib, pambığı sahədə çürüdər? Buna görə ya pambığın sahədə çürüməsi iddiaları yanlışdır, ya da fermerin biznes təfəkkürü yoxdur”.

**V.Hüseynovun sözlərinə görə, əllə pambıq yığmaq heç kim üçün məcburi deyil:** “Burada əsas məsələ sahibkardan asılıdır. Sahibkar elə qiymət təklif etməlidir ki, insanlar əllə yığıma maraq göstərsinlər. Dövlətin pambıq əkininə görə subsidiya verməsinin əsas səbəblərindən biri fermerin əllə yığıma xərclədiyi vəsaitin əvəzini qarşılamaqdır. Bu vəsaiti yığıma sərf etməyib, pambığı sahədə çürütmək məntiqsizlikdən başqa bir şey deyil. Eyni zamanda bir məsuliyyətsiz fermerin məntiqsiz hərəkətini ümumiləşdirmək düzgün deyil. Beyləqan rayonunun pambıq sahələrində bu il məhsuldarlıq kifayət qədər yüksəkdir, sosial şəbəkələrdə bunu təsdiqləyən, fermerlərin çəkib paylaşdığı onlarla videolar var”.

**V.Hüseynov gələn il üçün pambıq əkini ilə bağlı Sabirabadda insanlara məcburən müqavilə imzalatdırılması məsələsinə də toxunub. Onun dediyinə görə, bu məsələnin KTN-ə aidiyyəti yoxdur:** “Biz nazirlik olaraq heç bir fermerə deyə bilmərik ki, nəyi əksin, nəyi əkməsin. Kiməsə məcburən nəsə etdirirlərsə, aidiyyəti orqanlara müraciət etsin”.

❑ **DÜNYA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 225 (7114) 24 oktyabr 2018

# “Qarabağ”- “Vorskla” qarşılaşması- Qeqam gəlsəydi...



## Həm “Qarabağ”, həm Ukrayna təmsilçisi sabahkı oyun ərəfəsi yalnız nəzəri olaraq qrupdan çıxmaq şanslarını saxlayırlar

**Sabah-oktyabrın 25-də UEFA Avropa Liqasının qrup mərhələsinin üçüncü turunda “Qarabağ” Ukrayna təmsilçisi “Vorskla” (Poltava) ilə qarşılaşacaq. Bakı Olimpiya Stadionunda saat 20:55-də başlayacaq matçı İsrail Futbol Federasiyasından Roi Reynşreyber idarə edəcək. Ona Danni Krasikou və David Elias Bitton köməklik edəcək. Dördüncü hakim funksiyasını Amihay Yehoşua Mozes yerinə yetirəcək.**

“Vorskla” Avropa Liqasının qrup mərhələsində ilk turda səfərdə İngiltərə “Arsenal”ına məğlub olub - 2:4. Poltavalılar ikinci turda “Sportinq”lə oyunda qələbəni son dəqiqələrdə əldə verib-1:2. “Qarabağ” isə ilk turda səfərdə “Sportinq”ə 0-2, ikinci turda isə evdə “Arsenal”a 0-3 hesabı ilə uduzub.

“Qarabağ” daha əvvəl 2 dəfə Ukrayna təmsilçisi ilə qarşılaşıb və bunların birində məğlub olub, digərində qalib gəlib. Avropa Liqasının 2014/15 mövsümündə “Qarabağ” qrup mərhələsi çərçivəsində səfərdə “Dnepr”ə 1-0 hesabı ilə qalib gəlsə də, evdə 1-2 hesabı ilə uduzub.

Azərbaycan azarkeşləri üçün Ukrayna futbolu yad olmasa da, “Vorskla” haqda o qədər də məlumatlı deyilik. Bu klub 1955-ci ilin 5 yanvarında təsis edilib. 1996-cı ildə Ukrayna yüksək liqasında oynayan klub 1996/97 və 2017/2018 mövsümlərində bürünc mükafatın sahibi olub və ikinci dəfə Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanıblar. Bundan əvvəl Ukrayna klubu 2011/12 mövsümündə qrup mərhələsində iştirakçı olub. “Hannover”, “Standard” və “Kopenhagen”lə eyni qrupda mübarizə aparan paltavalılar son pilləni tutublar.

“Vorskla”nın hazırkı baş məşqçisi Vasili Saçko “Tavriya”, “Oskil”, “Volın”, “Krivbass” kimi klublarında hücumçu mövqeyində oynayıb. O, 2008/2012-ci illərdə hazırda çalışdırdığı klubda da çıxış edib. Sonra isə Poltava təmsilçisində iki il köməkçi məşqçi oldu. 2014-cü ildən isə komandanın baş məşqçisidir.







Klub Ukrayna çempionatında hazırda 4-cü sırada qərarlaşıb. Klubun 12 oyundan 18 xalı var. Müqayisə üçün qeyd edək ki, Ukrayna çempionatında liderlik edən “Şaxtyor”un hazırda 31 xalı var. “Vorskla”dan bir pillə öndə olan “Aleksandriya” ilə xal fərqi də az deyil - 7 xal... Yeri gəlmişkən, “Vorskla” Ukrayna çempionatının 12-ci turunda ikinci yerdə qərarlaşmış Kiyev “Dinamo”suna öz meydanında 0:1 hesabı ilə uduzub. Onu da qeyd edək ki, Ukrayna çempionatın da komandaların sayı əhalinin sayına görə çox azdır. Cəmi 12 klubun çıxış etdiyi yüksək liqada neçə illərdir ki, “Şaxtyor” hökmranlıq edir.

Klubun heyəti əsasən yerli oyunçulardan ibarətdir. Müdafiə xəttində Gürcüstandan (Andrio Qiorqadze), Malidən (Kane), Albaniyadan (Ardin Dallkul), Qanadan (N.Yakubu) və Braziliyadan (Artur (onun zədəli olduğu üçün Bakıya gəlməyəcəyi deyilir)) olan futbolçular var. Yarımmüdafiə xəttində isə Ermənistan və Gürcüstanı təmsil edən daha iki legioner var. Aleksandr Koibaxidze və Qeqam Kadimyan. Qeqam Kadimyan məlumdur ki, Azərbaycana gəlməyəcək. Bu həmin Qeqamdır ki, 2015-ci ildə Donetsk “Olimpik”i ilə müqaviləsinin müddəti başa çatan bu erməni hücumçunun guya Azərbaycan klublarında birinə transfer ola biləcəyi haqda sərsəm iddialar ortaya çıxmışdı. Amma Qeqam gəlsəydi, qaqa(lar)da onu meydanda... Nəsə...

Mümkündür ki, zədəli olan Aleksandr Koibaxidze də sabahkı oyunu buraxsın. Klubun hücum xətti isə braziliyalı Nikolas Kareka istisna olmaqla ukraynalı futbolçulardan ibarətdir.

“Qarabağ”la oyun ərəfəsi “Vorskla”da maliyyə problemlərinin olması barədə xəbərlər də diqqət çəkəndir. Ukrayna mətbuatının yaydığı xəbərə görə, klub rəhbərliyi oyunçulara borcludur, maaş problemi var. **“Beş ayın maaşını, yaxud da bizə olan borcun yarısını ödədilər. Nə qədər qaldığına baxmaq lazımdır. Amma ən yaxşısı bu sualı rəhbərliyə verməkdir. Avrokuboklara vəsiqə qazandığımız müəyyən məbləğ aldıq. Amma bəzi aylardan rəhbərliyin bizə borcu qalıb. Bildirildi ki, bunun üzərində iş gedir”** deyə, “Vorskla”nın qapıçısı Boqdan Şust bildirib. (Qol.az).

“Vorskla”nın Bakıya “yüz faiz” qələbə qazanmaq üçün gələcəyini demək çətindir. Ukrayna təmsilçisi vurulan və buraxılan qolların sayəsində hazırda üçüncü yerdə qərarlaşıb. Həm “Qarabağ”, həm Ukrayna təmsilçisi yalnız nəzəri olaraq qrupdan çıxmaq şanslarını saxlayırlar. Bu səbəbdən “Qarabağ”da sabahkı qarşılaşmada qələbə qazanmağa çalışacaq. Yerli və beynəlxalq bukmeyker kontorları da bu qarşılaşmada üstünlüyü “Qarabağ”a verir. Oyuna bundan əvvəlki “Arsenal”la qarşılaşmaya olduğu kimi xüsusi maraq, deyəsən, yoxdur. Bu da təbiidir. “Qarabağ” “Arsenal”la oyunda yaxşı təsir bağışladı, səviyyəli oyun nümayiş etdirdi. Hesab oyuna görə deyildi. Sadəcə, İngiltərə təmsilçisi oyunçularının təcrübəsi hesabına 3 top fərqi ilə qalib gəldi.

“Qarabağ” Azərbaycan çempionatında son turda “Səbail”ə minimal hesabla qalib gəlsə də, texniki səhv ucbatından məğlubiyyət alacaq. Bu səhvlə bağlı yazımızda da qeyd etmişdik ki, “Qarabağ” zəif təsir bağışladı, ötürmələrdə xeyli səhvlər nəzərə çarpdı. Ümid edək ki, “Qarabağ” sabahkı oyunda azarkeşlərini sevindirəcək və qrupda ilk qol(lar) vuracaq, 3 xalını qazanacaq.

**Uğurlar, “Qarabağ”...**

**❑ Nazim SABİROĞLU, “Yeni Müsavat”**







# YENİ MÜSAVAT

## Son səhifə

*N 225 (7114) 24 oktyabr 2018*





## Dünyanın ən güclü adamı gündə 7 dəfə bunları yeyir

**Dördqat "Dünyanın ən güclü adamı" tituluna sahib olan Brayan Şou gündəlik qida rasionu barədə danışıb. "The Independent"in xəbərinə görə, kişi gündə 12 min kalorilik qida qəbul edir. O bildirib ki, qidalanma planını onun üçün məxsusi olaraq dietoloq qrupu hazırlayıb. Sonuncular onu mümkün qədər güclü etmək üçün çalışıblar. Onun dediyinə görə, dietaya əməl etmək onun üçün daha çətindir, nəinki məşq etmək. Çünki sonuncu fasiləsiz prosesdir. Səhər yeməyində Şou səkkiz yumurta, bir qaşıq fıstıq yağı və taxıl yeyir. Bir müddət sonra isə ikinci dəfə, daha güclü şəkildə səhər yeməyi yeyir. Buna taxıl, protein kokteyli və baton çörəklər daxildir. Cəmi bir saat sonra isə Şou yarım kilo dana əti ilə pomidor souslu makaron yeyir.**

Dördüncü dəfə yemək zamanı Şou daha bir protein kokteyli qəbul edir. Onun yanında fıstıq yağı, orqanik meyvələr və çərəzlər də olur. Daha sonra yağsız hinduşka, düyü və brokkoli də qəbul edir. Gün ərzində altıncı dəfə yeməyi zamanı Şou daha 500 qram mal əti, kartof yeyir.

Nəhayət, sonuncu yeməyi zamanı kişi daha bir protein kokteyli ilə bir neçə tikə çizkek yeyir. O bildirib ki, bu dieta nəticəsində özünü çox yaxşı hiss edir və ağır məşqlərdə olduğu üçün tez-tez acır. O, çox ağır çəkilər qaldırır. Məqsədi rekorda çatmaqdır - 517 kilonu qaldırmaq: "Mən çox yeyirəm, çünki planetin ən güclü adamı olmaq istəyirəm".

## Pişiyini əlindən aldılar, geri qayıtdı

**İsveçli sərhədçilər ölkəyə girməsi qadağan olunan Rusiya vətəndaşını sərhəddə saxlayıblar. Məlum olub ki, 52 yaşlı kişi heyvan sığınacağına qoyduğu pişiyinin dalınca bu ölkəyə gəlib. Rusiya vətəndaşının heyvanını 3 il öncə həbs olunan zaman polislər heyvan sığınacağına yerləşdirmişdilər. İndi isə pişiyin geri qaytarılması məsələsi ilə vəkil məşğul olacaq.**




Əldə edilən məlumatlara görə, kişinin İsveçə girişinə qadağan qoyulmasının səbəbi onun Sankt Peterburq-Helsinki reysində, təyyarənin avtosalonuna bomba qoyulması ilə bağlı yalan xəbər yayması olub. Təyyarə məhz bu yanlış xəbərə görə Stokholmda yerə enmək məcburiyyətində qalmışdı.

Avqustun ortasında məlum oldu ki, rus səyahətçilərinin dörddə biri ev heyvanlarını qoyacaqları yer tapmayanda səfərdən imtina edirlər. Respondentlərin cəmi 17 faizi heyvanı özləri ilə götürə bilirlər.

## Əkiz bacı idilər, eyni vaxtda əkiz qardaş oldular



**Amerikanın Merilend ştatının Baltimor şəhərindən olan əkiz bacılar eyni vaxtda əkiz qardaşlar olmağa qərar veriblər. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Ceklin və Cenifer Qreyf adlı bacılar 1995-ci ildə mühafizəkar xristian ailəsində dünyaya gəliblər. Onlar etiraf ediblər ki, uşaqlıqdan ən böyük arzuları səhər yuxudan oyananda özlərini oğlan kimi görmək olub. Dini məktəblərdə onlar daim qızlara vurulur, amma bu barədə heç kimə heç nə demirdilər. 18 yaşında onlar adlarını oğlan adına dəyişdirdilər, Corciya ştatına köçdülər. 2017-ci ildə əkizlər hormonal müalicəyə başladılar, 2018-ci ilin avqustunda isə cinsiyyətin dəyişdirilməsi əməliyyatı keçirdilər. Şerif köməkçisi işləyən Cek deyir ki, həyatı müsbətə doğru dəyişsə də, heç də hər kəs onları qardaş kimi qəbul etmir və hələ də qadın kimi müraciət edirlər. Əkiz qardaşlar onlara qadın kimi müraciət ediləndə özlərini təhqir olunmuş kimi hiss edirlər. Polis akademiyasına yenicə qəbul olunan Ceys bildirib ki, qardaşının dəstəyi onun üçün çox vacibdir: "Mən hər zaman bu barədə arzulayırdım. Amma qardaşım olmasa, buna cəsarət edə bilməzdim. Sənin əkiz qardaşın varsa, özünü tənha hiss etmirsən. O da sənin kimi çətinlikləri yaşayır. Ona görə də sən özünü güclü hiss edirsən".**

Hazırda Ceys 19 yaşlı qız tələbə Cess Smitlə görüşür. Qardaşı isə 22 yaşlı şirniyyat dükanı sahibəsi Meyqonla nişanlanıb. Sentyabr ayının sonunda onların hər ikisi kişi soyadı alıblar.




**QOÇ** - Mənfi enerjili Ay bürcünüzdə olduğu üçün günün ilk yarısında daha diqqətli olmalı, heç bir riskli və yeni işlərə başlamamalısınız. Sonrakı müddətdə bütün məsələlərdə sərbəstsiniz.

**BUĞA** - Hər bir məsələyə cəld reaksiya verməyiniz, bəzən son sözü əvvəldə deməyiniz sizi gözdən salır. Bu baxımdan bir qədər ayıq olmağınıza ehtiyac duyulur. Gün ərzində sevgidən qidalanın.

**ƏKİZLƏR** - Dünənki kimi bu gün də sizi maddi uğurlar müşayiət edəcək. Çalışın ki, belə gözəl məqamda kimlərinsə qəlbini qırmayasınız. Əksinə, çoxdan görmədiyiniz doğmalarınızla mütləq əlaqə yaradın.

**XƏRÇƏNG** - İçtirakçısı olduğunuz hadisələrdə bədbin düşüncələrə qapılmayın. Çünki ulduzlar sizə saat 12-dən etibarən böyük perspektivlər vəd edir. Dost bildiklərinizə elə dost kimi baxın.

**ŞİR** - Günün ümumi mənzərəsi gərgin fonla müşahidə olunduğundan bütün vacib işlərinizi təxirə salmalısınız. Bu gün yaxşı olar ki, məişət və müalicə ilə bağlı planlarınızla məşğul olun.

**QIZ** - Texniki cihazlarla ehtiyatlı davransanız, ixtiyarınızda olan bu təqvimi könül xoşluğu ilə başa vuracaqsınız. Sizə hörmət bəsləyən kəslərə siz də laqeyd yanaşmayın. Ac qalmayın, qidanıza əhəmiyyət verin.

**TƏRƏZİ** - Darıxdırıcı məqamlarınız artıq başa çatmaq üzrədir. Bu səbəbdən boş-boşuna oturmamalı, ümid işığı gələn bütün istiqamətlərə baş vurmalısınız. Dost köməyinə arxa çevirməyin.

**ƏQRƏB** - Yeni layihələri gözdən keçirmək, təcrübəli insanlarla müzakirələr aparmaq üçün çox gözəl gündür. Belə fürsəti əldən buraxmaq olmaz, xüsusən də saat 16-18 arası. Gecəni öz evinizdə keçirin.

**OXATAN** - Mistik düşüncələrdən uzaq olun. Hər hansı falçıya üz tutmaqdansa problemlərin həllini özünüzdə axtarın. Unutmayın ki, Allaha sığınan bəndə sıxıntıya mübtəla olmaz. Axşam qonaq getməyə dəyər.

**OĞLAQ** - Günün ümumi mənzərəsi ürəyinizcə olacaq. Bütün cinahlardan ovqatınızı yüksəldəcək xəbərlər duyacaqsınız. Amma istənilən prosesdə obyektivliyinizi də qorumalısınız. Səfərə çıxmayın.

**SUTÖKƏN** - Ailə üzvlərinizlə daha mehriban davranın, küsülüləri barışdırın, sədəqə verin. Bir sözlə, elə addımlar atın ki, yalnız savab qazanasınız. Bu günü yalnız bu minvalla başa vurun.

**BALIQLAR** - Səfərə çıxmaq üçün olduqca səmərəli gündür. Əgər imkan varsa, yola çıxın. Alınmırsa, yaxın ünvanlarda yaşayan doğmalarınıza baş çəkin. Bu gün aldığınız iş təkliflərinə tələsik razılıq verməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Valideynlərin ayrılıq qərarına ilginc etiraz



**Pensilvaniya ştatında 7 yaşlı Cesika Admans adlı qız valideynləri boşanma qərarı verdiyi üçün buna etiraz edib. Uşaq bu etirazını evdə yemək yeməməklə bildirib. 2 gün boyunca su daxil olmaqla ağzına heç nə almayan uşağa ata-anası zorla heç nə yedirdə bilməyib. Psixoloqlara müraciət edən valideynlərə bir müddət boşanmanı təxirə salmaları məsləhət görülüb. Mütəxəssislər bildirib ki, uşaq bu ayrılığın qarşısını almaq üçün valideynlərini cəzalandırmaq istəyib və ağlına gələn ən "optimal" yoldan istifadə edib. Valideynləri də balacanı yolundan döndərmək üçün qərarlarını təxirə saldıqlarını deyiblər. İndi onlar uşağı bu fikrə öyrəşdirmək üçün onu psixoloq yanına göndərəcəklər.**

**Səhifəni hazırladı: SELCAN**


Təsìsçì: Rauf ARİFOĞLU
Baş redaktorun bìrìncì müavìnì: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Azərbaycan" nəşrìyyatında çap edìlìb. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksìyanın mövqeyì uyğun gəlməyə bìlər.

Lìsenzìya N: B 114
SAYI: 5.100